Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 77 (8100) CÜMƏ AXŞAMI, 11 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV: yeni prezidentlik dövrünün möhtəşəm bir ili

**2018-ci il aprelin 11-də Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçirildi. Seçkilərdə inamlı qələbə qazanmış cənab İlham Əliyev aprelin 18-də Konstitusiyaya və müqəddəs Qurani-Kərimə əl basaraq and içdi və növbəti 7 il üçün Prezident səlahiyyətlərinin icrasına başladı.**

Azad seçki fəaliyyəti bəşər sivilizasiyasının nailiyyətləri sırasında xüsusi yer tutur. Müasir hüquqi, demokratik dövlətin, xalqın iradəsinə əsaslanan hakimiyyət orqanlarının, səmərəli özünütəşkil mexanizmlərinə malik cəmiyyətin mövcudluğunu azad və ədalətli seçkilərsiz təsəvvür etmək mümkün deyildir. Məlum olduğu kimi, 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Azərbaycan Respublikası Konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edilərək, dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə qədər uzadılmış və Azərbaycan Respublikası Prezidentinə seçicilərə etimad votumu üçün müraciət imkanı - növbədənkənar prezident seçkilərini elan etmək səlahiyyəti verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konstitusiya səlahiyyətindən istifadə edərək 2018-ci il 5 fevral tarixli sərəncamı ilə növbədənkənar prezident seçkiləri elan etdi. Ölkənin dinamik tərəqqisi yolunda yeni bir mərhələnin başlanğıcını qoyan bu seçkilər, respublikamızda demokratik siyasi sistemin və liberal cəmiyyətin dərin kök saldığını bir daha nümayiş etdirdi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra ictimai-siyasi sabitliyin bərqərar edilməsi ölkə həyatının bütün istiqamətlərində, o cümlədən siyasi-hüquqi sahədə köklü islahatların aparılmasını mümkün etmişdir. Ötən dövr ərzində Azərbaycan Respublikasının seçki sistemi müxtəlif mərhələlərdən keçərək inkişaf etmiş, konstitusiya təminatları da daxil olmaqla, qanunvericilik və təcrübə baxımından təkmilləşdirilmiş, beynəlxalq standartlara uyğunlaşdırılmışdır. İndiyə qədər ölkəmizdə keçirilmiş prezident, parlament, bələdiyyə seçkiləri, ümumxalq səsvermələrinin (referendumların) təcrübəsi göstərir ki, Azərbaycanda əhalinin seçki mədəniyyəti kifayət qədər yüksəlmiş, effektiv ictimai nəzarəti təşkil etməyi bacaran, məsuliyyətli və tələbkar seçici nəsli yetişmişdir. Növbədənkənar Prezident seçkiləri də məhz belə şəraitdə keçirilmiş, xalqın iradəsini dolğunluqla əks etdirmişdir. Seçki prosesində bilavasitə iştirak etmiş maraqlı tərəflər, seçkilərin bütün mərhələlərini diqqətlə izləmiş yerli və xarici müşahidəçilər bu faktı təsdiq etmişlər.

Prezidentliyə namizədlərdən biri - fəaliyyətdə olan Prezident İlham Əliyev əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də öz təşviqat kampaniyasında şəxsən iştirak etməmişdir. Digər namizədlərin isə hər biri yaradılmış əlverişli imkanlardan özünün və komandasının qurduğu strategiyaya uyğun yararlanmışdır.

Seçkiqabağı kampaniyanın televiziyalarda işıqlandırılmasının monitorinqi də göstərmişdir ki, özəl telekanallarda digər namizədlərin hər birinin təşviqatına dair materiallar fəaliyyətdə olan Prezidentin təşviqindən bir neçə dəfə çox olmuşdur. Məsələn, seçkiqabağı təşviqat kampaniyasının üçüncü həftəsində telekanallarda ("Lider" televiziyası, ARB TV, Xəzər TV, "Space" TV, " Azad Azərbaycan" Teleradio Yayım Şirkəti) YAP-ın namizədinə 15 dəqiqə 36 saniyə, digər namizədlərə isə 1 saat 25 dəqiqə 5 saniyə təşviqat vaxtı ayrılmışdır.

MSK-nın yekun məlumatına görə, ölkə üzrə seçicilərin ümumi sayının 74,30 faizi səsvermədə iştirak etmiş və onların 86.02 faizi cənab İlham Əliyevə səs vermişdir. Rəsmi açıqlanan rəqəmlər "exit-poll"ların nəticələrinə yaxın olmuşdur.

## Azərbaycan xalqının cənab İlham Əliyevə yüksək inam və etimadını şərtləndirən amillər

Cənab İlham Əliyevin seçkilərdə yenidən qələbə qazanmasının əsasında Azərbaycanın son 15 il ərzində onun rəhbərliyi altında dinamik inkişaf dövrünü yaşaması, ölkəmizin qarşısında dayanan vəzifələrin uğurla icra edilməsi kimi ciddi amillər dayanır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2003-cü ildə və ondan sonrakı illərdə respublikamızın inkişafı, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədlər həyatda öz təsdiqini tapmışdır. 15 il ərzində Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, modernləşmə yoluna qədəm qoymuşdur. Ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Bu isə müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi deməkdir. Azərbaycan beynəlxalq reytinqlərdə yüksək yerlərə qalxmışdır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos İqtisadi Forumu Azərbaycanda aparılan islahatlara yüksək qiymət vermişdir. Davos Forumunun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında (2017) ölkəmiz inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir.

Keçən dövr ərzində Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqelərini daha da möhkəmləndirmişdir. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq ölkəmizin xarici siyasət strategiyasının əsas prinsiplərindən birini təşkil etmişdir. Beynəlxalq aləmlə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq, geostrateji maraqların reallaşması, terrorizmlə mübarizə, vətəndaşlarımızın firavan və təhlükəsiz şəraitdə yaşayışının təmin olunması istiqamətində uzaqgörən xarici siyasət həyata keçirilmişdir.

Azərbaycan enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla çıxarılmasını nəzərdə tutan praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu ilə beynəlxalq birliyin diqqətini özünə cəlb edir. Bütün bunlar ölkəmizlə dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi və ilk növbədə Azərbaycanın geoiqtisadi maraqlarının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Respublikamız transmilli enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri olmaqla yanaşı, regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

*Ardı 3-cü səh.*




**Uğurlarının təməlində ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi kursunun, strateji proqramların, konsepsiyalar və islahatların dayandığı müstəqil Azərbaycan son illər ərzində həm bölgədə, həm də dünyada çox böyük nüfuz qazanmış sürətli inkişaf edən ölkələr sırasına daxil olub.**

Ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılan inkişaf strategiyasını siyasətinin ana xəttinə çevirən, yüksək dövlətçilik və idarəçilik təfəkkürünə malik lider Prezident İlham Əliyev ölkənin sürətli tərəqqisini təmin edir.

Müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin həyat amalı, möhtəşəm fəaliyyəti, uzaqgörən və müdrik siyasəti sayəsində ölkəmiz bu gün azad, müstəqil və güclüdür. Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət suveren Azərbaycana şanlı tariximizin ən uğurlu illərini yaşatmaqla onu bütün sahələrdə regionun aparıcı dövlətinə çevirib.

*Ardı 4-cü səh.*

## Tarix yaradan LİDER



**İlham Əliyevin 2018-ci ilin 11 aprelində xalqın yekdil dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsindən ötən bir ildə isə həyatımızın ən müxtəlif sahələrində islahatların daha da geniş vüsət aldığını görürük.**

Prezidentin siyasi iradəsi ilə həyata keçirilən bu islahatlar nəticəsində cəmiyyət böyük dəyişikliklər ovqatındadır. İnsanlarımızın narahatlığına səbəb olan bir çox problemlər aramla həllini tapır. İndiyə qədər inkişafa müxtəlif səviyyələrdə əngəllər törətmiş maneələr ortadan götürülür.

İndi kimi dindirsən, təsdiqləyər ki, Azərbaycan sürətlə yenilənir. Cəmiyyətdə çox mühüm proseslər gedir. Bu proseslərin özəlliyi ondadır ki, onlar bir-birini tamamlayır, hamısı bir arada baş verir və vahid ideyaya, amala xidmət edir.

Ölkə tamamilə yeni bir dövrə qədəm qoyur. Bu dövrün adı inkişafdır...

Sosial rifahdır, milli barış və vəhdətdir...

Hər bir vətəndaşa həssas münasibətdir, hər bir insana bərabər imkanlar mühitinin yaradılmasıdır...

Vətəndaşların həllini arzu etdikləri problemlərin aradan qaldırılmasıdır, dövlətin insanlara ən doğma adamları qədər əlçatan olmasıdır...

*Bax: səh. 5*



## 22 rayona 27 səfər, 93 yeni obyektin açılışı

**"Seçkilərdə mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha böyük güc verir. Seçkilərdə xalqımız həm görülən işlərə, real nəticələrə, eyni zamanda, bizim gələcəyimizə, xoşbəxt gələcəyimizə səs vermişdir. Əminəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək. Bundan sonra da Azərbaycan xalqı sabitlik, təhlükəsizlik şəraitində yaşayacaq".**

Ötən il aprelin 11-də keçirilən prezident seçkilərində seçicilərin mütləq əksəriyyətinin səsini qazanan İlham Əliyev inamlı qələbə münasibətilə təşkil edilən möhtəşəm toplantıda xalqdan aldığı etimad mandatını belə dəyərləndirdi. Hər zaman xalqın dəstəyini hiss etdiyini və bu dəstəyə arxalandığını vurğulayan Prezident sədaqətli, ləyaqətli xidmət missiyasını davam etdirəcəyinə söz verdi.

*Ardı 7-ci səh.*

## 4 qəsəbə, 6713 mənzil



**Bu gün dünya miqyasında humanitar sahədə yaşanan ən böyük problemlərdən biri qaçqın və məcburi köçkünlərlə bağlıdır.**

Bu qəbildən olan insanların sayının davamlı şəkildə artması problemin həllini daha da aktuallaşdırır. Amma görünən odur ki, saylarının getdikcə artmasına baxmayaraq, qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklər heç də effektiv şəkildə həllini tapmır. Düzdür, ortaya fərqli nümunələr qoyan ölkələr də var və onların sırasında ilk yerdə Azərbaycanın adı çəkilə bilər.

*Ardı 8-ci səh.*



## İnsan amilinin yüksəlişinə xidmət edən siyasətin zəfəri

**Azərbaycanın ən yeni tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilə biləcək 2018-ci ilin 11 aprel seçkilərindən 1 il ötür.**

Bu prezident seçkilərində xalqımızın gələcək müqəddəratı baxımından son dərəcə mürəkkəb və taleyüklü bir proses yekunlaşmış, azad, ədalətli, şəffaf və demokratik şəraitdə layiqli qələbə qazanmış cənab İlham Əliyev xalqa sədaqət andı içərək yeni mərhələ üçün ölkəyə rəhbərlik missiyasını üzərinə götürmüşdür. Dövlətimizin hərtərəfli inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş bu seçkilər xalqın sabitlik, tərəqqi və intibah kursuna dərin etimadını növbəti dəfə təsdiqləmişdir.

*Ardı 4-cü səh.*

# Azərbaycan ilə Argentina arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələri yaxşı səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunellanın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Serxio Osvaldo Perez Qunella fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Serxio Osvaldo Perez Qunella etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Serxio Osvaldo Perez Qunella, ilk növbədə, Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan ilə Argentina arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin yaxşı səviyyədə olduğunu qeyd etdi, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi və iqtisadi əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğuladı. Dövlət başçısı ikitərəfli münasibətlərin inkişafında ölkələrimizin qarşılıqlı şəkildə səfirliklərinin fəaliyyət göstərməsinin rolunu vurğulayaraq Serxio Osvaldo Perez Qunellanın səfirlik fəaliyyəti dövründə onun Azərbaycanın müvafiq strukturlarının nümayəndələri ilə əməkdaşlığın genişlənməsi baxımından səmərəli görüşlər keçirəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün çox əlverişli şəraitin mövcudluğunu qeyd edərək Argentina şirkətlərinin də Azərbaycanda işləyəcəklərinə ümidvar olduğunu bildirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Serxio Osvaldo Perez Qunella səfir kimi fəaliyyətinin əsas məqsədinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, o cümlədən qarşılıqlı ticarət və investisiyanın genişləndirilməsindən ibarət olduğunu bildirdi və bu istiqamətdə səylərini əsirgəməyəcəyini dedi.

Görüşdə energetika, biznes, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlət başçısı Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş etdi.

## Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 25,0 (iyirmi beş) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2019-cu il*

## Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə Azərbaycan ictimai fikrinin böyük nümayəndələrindən biri, görkəmli publisist və tənqidçi, tanınmış hüquqşünas və şərqşünas alim Əhməd bəy Ağaoğlunun (Əhməd bəy Mirzə Həsən oğlu Ağayevin) anadan olmasının 150 illiyi tamam olur.

Əhməd bəy Ağaoğlu ötən əsrin əvvəllərindən etibarən Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə fəal iştirak etmiş və milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda, müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanınmışdır. Ümumxalq mənafeyinin qorunması naminə çoxşaxəli, gərgin və məhsuldar fəaliyyəti ərzində o, parlaq bədii-publisistik və dolğun elmi-nəzəri irs yaratmış, Azərbaycanın ədəbi-mədəni və sosial-fəlsəfi fikir xəzinəsinin yeni ideya və konsepsiyalarla daha da zənginləşməsində diqqətəlayiq xidmətlər göstərmişdir. Əhməd bəy Ağaoğlunun ictimai problemləri mənəvi-əxlaqi aspektdə işıqlandıran, cəmiyyəti tərəqqiyə doğru yönəlməyə və qabaqcıl dünya mədəniyyətindən bəhrələnməklə yeniləşməyə çağıran geniş mövzu dairəsinə malik dərin məzmunlu əsərləri Azərbaycan maarifçiliyinə mühüm töhfədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ictimai fikri tarixində dərin iz qoymuş mütəfəkkir Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə görkəmli ictimai xadim Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2019-cu il*

# Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib

Aprelin 10-da Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda komissiyanın üzvləri və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Baş nazirin müavini, komissiyanın sədri Əli Əhmədov iclasın gündəliyində üç məsələnin olduğunu bildirib. Bunlar uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə 2018-ci il üçün hesabatın müzakirəsi, 2019-cu ildə monitorinq keçirilməsi nəzərdə tutulan dövlət uşaq müəssisələrinin siyahısının təsdiq edilməsi və komissiyanın nəzdində yaradılan işçi qrupun tərkibinin təsdiq edilməsi məsələləridir.

Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə 2018-ci il üçün hesabatla çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova uşaqlarla işin vacibliyini bildirib. Qeyd edib ki, bu işdə əsas rol valideynlərin üzərinə düşür.



Qeyd edək ki, Azərbaycanda uşaq hüquqlarının həyata keçirilməsi və bu istiqamətdə müvafiq tədbirlərin görülməsi müxtəlif qurumlar tərəfindən aparılır. Bu qurumların gördüyü işlərə və onların fəaliyyətinin əlaqələndirilməsinə isə Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya baxır.

# Hikmət HACIYEV: "İşğal olunmuş ərazilərimizdə qeyri-qanuni fəaliyyətlər problemi ilə bağlı tədbirlər davam etdiriləcək"

BMT-nin Cenevrə Bölməsinin qərargahında Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi BMT-nin Sülh Universiteti ilə birgə "Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlərin insan hüquqlarına təsirləri" mövzusunda beynəlxalq konfrans təşkil edib.



Konfransın nəticələrini AZƏRTAC-a şərh edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyev ölkəmizin işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərin qarşısının alınmasını xarici siyasətimizin qarşısında mühüm tapşırıqlar kimi qoyub. Bu xüsusda Azərbaycanda və xaricdə müxtəlif tədbirlər keçirilir. Belə ki, martın 5-də beynəlxalq ekspertlərin iştirakı ilə Azərbaycanda hərbi işğal altında olan ərazilər və üçüncü tərəflərin məsuliyyəti adı altında beynəlxalq konfrans keçirilib. Azərbaycan Respublikasının malik olduğu peyk imkanlarından istifadə etməklə, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirdiyi fəaliyyətləri sübut edən faktlar müəyyən olundu və bu da bir hesabat formasında beynəlxalq ictimaiyyətə təqdim edildi.

Bu prosesin ardınca isə bu gün BMT-nin Cenevrə Bölməsində "İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətlər və onun insan hüquqlarına təsiri" mövzusunda konfrans keçirildi. Bu tədbirə paralel olaraq, Strasburqda Avropa Şurasının mənzil-qərargahında da qeyri-qanuni fəaliyyətlər və onun Avropa Şurası qarşısında götürülmüş öhdəliklərlə ziddiyyət təşkil etməsi və ona təsirləri mövzusunda konfrans keçirilir. Bu, onu göstərir ki, dövlət başçısının tapşırığına uyğun olaraq, kompleks şəkildə bütün istiqamətlərdə aidiyyəti beynəlxalq təşkilatlarda bu mövzu ardıcıl surətdə qaldırılır və beynəlxalq problemin tərkib hissəsində Azərbaycan Respublikasının üzləşdiyi problem də dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

Şöbə müdiri qeyd edib ki, bugünkü konfransda məhz qeyri-qanuni iqtisadi fəaliyyətlər və onların insan hüquqlarına təsiri mövzusuna toxunulub. Beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq, xüsusilə də Cenevrə Konvensiyaları nöqteyi-nəzərindən baxdıqda və beynəlxalq təcrübəyə müraciət etdikdə, aydın şəkildə görünür ki, işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətlərin həyata keçirilməsi dövlətlər üzərinə konkret beynəlxalq hüquqi məsuliyyət də qoyur. Buna baxmayaraq, Ermənistan Respublikası öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə zidd şəkildə Azərbaycanın işğal olunmuş ərazilərində bir neçə istiqamət üzrə qeyri-qanuni fəaliyyətlər aparır. Bunların arasında narahatlıq doğuran məqamlardan biri də Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşma siyasətinin aparılmasıdır. Belə ki, Suriyadan olan qaçqınların Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi, burada demoqrafik tərkibin dəyişdirilməsi, həmçinin işğal edilmiş ərazilərdə Azərbaycanın maddi-mədəniyyət abidələrinin dağıdılması və talan edilməsi, onların Azərbaycan xalqına mənsubluğunu bildirən memarlıq xüsusiyyətlərinin dəyişdirilməsi istiqamətində fəaliyyət göstərilir, addımlar atılır.

Beynəlxalq hüquqda bu məsələ aydın şəkildə müəyyən olunsa da, dövlətlərin milli qanunları səviyyəsinə gəldikdə, burada ziddiyyətlər üzə çıxır. Açıq şəkildə qeyd etməliyik ki, bəzi dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərirlər və bu məsələ də bu gün konfrans çərçivəsində müzakirə olundu.

Hikmət Hacıyev, həmçinin diqqətə çatdırıb ki, bu kimi tədbirlər davam etdiriləcək. BMT-nin aidiyyəti üzrə digər təsisatlarında, o cümlədən Nyu Yorkdakı mənzil-qərargahında da bu istiqamətdə müvafiq tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# Azərbaycan Prezidentinin tapşırığına əsasən FHN İrana humanitar yardım göndərib



İran İslam Respublikasında aramsız yağışlar nəticəsində baş vermiş təbii fəlakətlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyi (FHN) aprelin 10-da Azərbaycan hökuməti adından bu ölkəyə humanitar yardım göndərib.

AZƏRTAC xəbər verir ki, FHN-in ayırdığı humanitar yardım aprelin 10-da Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Mülki Müdafiə Alayından İrana yola salınıb.

Fövqəladə hallar nazirinin müavini, tibb xidməti general-leytenantı Faiq Tağızadə jurnalistlərə müsahibəsində bildirib ki, ümumi dəyəri 950 min manat olan humanitar yardıma 166 ədəd mətbəx dəsti, 3 min ədəd yataq dəsti, 75 çadır, 150 ədəd müxtəlif parametrli su nasosu, 5 ədəd 4 metrlik rezin qayıq, 140 ədəd işçi geyimi, 320 xilasedici geyim dəsti və 200 ədəd xilasedici jilet, "Katerpiller", "Komatsu" markalı iki ədəd ekskavator daxildir.

Qeyd edək ki, baş vermiş təbii fəlakət insan itkisi və dağıntılara səbəb olub, infrastruktura ciddi ziyan dəyib. Azərbaycan Prezidenti İlham Əliyev təbii fəlakət nəticəsində insan tələfatı ilə əlaqədar martın 27-də İran Prezidenti Həsən Ruhaniyə başsağlığı verib.

# Dövlət Komitəsi: "Yanğın zamanı ziyan dəymiş 23 mənzilin sakinlərinə dövlət tərəfindən kirayə pulu veriləcək"

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi aprelin 10-da Bakıda, Babək prospektində məcburi köçkünlərin məskunlaşdıqları binada baş verən yanğınla əlaqədar məlumat yayıb.

Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə xəbər alındıqdan dərhal sonra Baş nazirin müavini Əli Əhmədov, Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri və digər məsul işçilər hadisə yerində olublar. Yanğın baş verdikdən sonra Dövlət Komitəsi tərəfindən yaradılmış komissiya hadisə yerinə gedib, siyahıyaalınma aparılıb.

Qeyd edək ki, yanğın binanın üçüncü mərtəbəsində dəhlizdə baş verib. Yanğının söndürülməsi zamanı sudan ziyan çəkmiş 23 mənzildə yaşayan məcburi köçkünlərə dövlət tərəfindən kirayə pulu veriləcək.

Yanğın zamanı yanğınsöndürənlər tərəfindən biri azyaşlı olmaqla 2 nəfər xilas edilib, 10 sakin təxliyə olunub. Hadisə nəticəsində 2 nəfər xəsarət alıb. Xəsarət alan şəxslərdən birinə hadisə yerində, digərinə xəstəxanada ilkin tibbi yardım göstərilib.

Fövqəladə Hallar Nazirliyi yanğının başvermə səbəblərini araşdırır, dəymiş ziyan müəyyənləşdirilir. Araşdırmalardan sonra yekun rəy veriləcək. Rəy əsasında müvafiq hüquqi addımlar atılacaq.

# Xalqın böyük sevgisi

Xalqımız 2018-ci il prezident seçkilərində İlham Əliyevə səs verərək davamlı inkişafa, sabitliyə və Azərbaycanın xoşbəxt gələcəyinə "HƏ" dedi.



Bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov deyib.

Yaqub Mahmudov bildirib ki, Prezidentin ötən bir illik fəaliyyətindən bəhs edərkən onun andiçmə mərasimində xalqa verdiyi vədini xatırladıram: "Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamının amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Fransanın "Opinion Way" şirkətinin bu ilin martında Azərbaycanda keçirdiyi rəy sorğusu Prezident İlham Əliyevin yenə də öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiqlədi. Sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezidentin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib.

Ümumiləşmiş orta nəticələr onu göstərir ki, əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, İlham Əliyev ölkə seçicilərinin mütləq çoxluğunun səsini qazana bilər.

Dövlət başçısı İlham Əliyevin prezident seçkilərindən sonra imzaladığı ilk fərman vətən uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə, onların vərəsələrinə 11 min manat həcmində yardım göstərilməsi barədə olub. Bu sahədə böyük işlər görülüb və təkcə keçən il şəhid ailələrinə və onların vərəsələrinə 34,1 milyon manat vəsait ödənilib.

Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair "Opinion Way"in sualına respondentlərin bütövlükdə 75,6 faizinin müsbət cavab verməsi hazırkı ictimai-siyasi mənzərəni tam əks etdirir.

Prezidentin son bir ildə həyata keçirdiyi struktur və kadr islahatları dövlət idarəetməsinin səmərəliliyinin artırılması, şəffaflaşdırılması, cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması, peşəkar kadr bazasının formalaşdırılması və layiqli namizədlərin mühüm vəzifələrə irəli çəkilməsi bir sıra məsələlərin həlli istiqamətində ciddi addımlar olub. Bu, son bir ilin ən ciddi uğurlarından biridir. Son zamanlar keçirilən bütün sorğularda Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində görülən tədbirlər yüksək qiymətləndirilib.

Əməkhaqlarının, təqaüdlərin artırılması, problemli kreditlərin həlli, şəhid ailələrinə verilən kompensasiyalar, məcburi köçkünlərin mənzillə təmin olunması ilə bağlı görülən işlər Prezidentin xalqımızla birlikdə olduğunu bir daha sübut edir. Regionlara səfəri zamanı Prezident insanlarla birbaşa ünsiyyətə girərək onları maraqlandıran, narahat edən məsələləri müzakirə edir və təklifləri qəbul edir. Bu, idarəçilikdə Prezidentin yeni və mühüm addımıdır. Xalq bunu birmənalı müdafiə edir.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadi, sosial və digər sahələrdə böyük inkişaf mərhələləri keçib, insanların həyat şəraiti yüksəlib və ölkəmizin beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib. Bu reallıqlar İlham Əliyevin siyasi reytinqini dünya miqyasında yüksək səviyyəyə qaldırıb.

Bu gün müasir inkişafın Azərbaycan modeli ilə bütün dünya maraqlanır. Bu modelin müəllifi dövlət başçısı İlham Əliyevdir. Fikrimcə, bu modelin ən mühüm tərkib hissəsi milli-mənəvi dirçəlişdir, o cümlədən milli tariximizin saxtalaşdırmalardan və təhriflərdən təmizlənməsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun fəaliyyəti də ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Prezidentin təşəbbüsü, çağırışları və tapşırıqları əsasında son 15 ildə Tarix İnstitutunda 500-ə yaxın tədqiqat əsəri işıq üzü görüb. Prezident tarixçilərin yanında olmasaydı, biz bu tədqiqatları apara bilməzdik. Odur ki, Prezidentə minnətdarıq.

Prezident İlham Əliyevin sərəncamı ilə 2012-ci ildə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Tarix İnstitutunun 13 əməkdaşına Azərbaycan Respublikasının Dövlət Mükafatı verilib.

Son bir ilin uğurları növbəti illərin nailiyyətləri üçün böyük stimuldur. Ötən il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili", bu il isə "Nəsimi ili" elan edilib. Bu kimi önəmli addımlar xalqımızın zəngin tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə sahibliyinin təsdiqidir. Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında" sərəncamlarına uyğun olaraq Tarix İnstitutu Bakıda, bölgələrimizdə və xarici ölkələrdə beynəlxalq və respublika səviyyəli elmi konfranslar təşkil edib.

Dövlətimizin əsas məqsədi işğal olunmuş torpaqları düşmənlərdən təmizləmək və ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir. Tarixçilər inanırlar ki, xalqımız nəinki Qarabağdakı yurd yerlərinə, həmçinin gələcəkdə İrəvan, Zəngəzur və Göyçə ellərinə də qayıdacaq. Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə biz bu qələbələrə hökmən nail olacağıq.

Prezident İlham Əliyev qlobal miqyasda böyük dövlət xadimidir. Fikrimcə o, bu mürəkkəb qloballaşan dünyanın ən ağır problemlərini həll etməyə qadir olan dövlət xadimidir. O, doğma torpağını, xalqını müasir dünyanın zirvəsində olan dövlətlər, xalqlar sırasına qovuşdurmaq uğrunda mübarizə aparır. Bu mübarizədə uğurlarımız artdıqca dövlətə və onun başçısına qarşı geniş miqyasda əngəllər törətmək meyilləri də baş qaldırır. Biz tarixçilər bundan əvvəl olduğu kimi, yenə də Prezidentin yanında olacağıq. Mən bir tarixçi və millət vəkili kimi xalq içərisində Prezidentə olan böyük sevginin şahidiyəm. Xalq onu idarə edən müdrik dövlət başçılarını heç zaman unutmur. Bu gün də xalqın içərisində bir zamanlar başçılıq etdiyi böyük Səfəvi imperiyasını başdan-başa dolaşan, xalqının ehtiyaclarını öyrənən və ailələrlə görüşən "şah oğlu Şah Abbas"la bağlı deyimlər, rəvayətlər sevilə-sevilə danışılmaqdadır. Qürur hissi keçirirəm ki, Prezident ölkəmizin işıqlı gələcəyi naminə ən cəsarətli addımlarını atanda xalq "O Heydərin oğludur, ancaq Heydərin oğlu belə addımlar ata bilər" deyə ürək dolusu sevincini büruzə verir. Xalq içərisində Prezidentlə bağlı bu cür deyimlər çox gəzib-dolaşmaqdadır.

Ali Baş Komandan bir sərkərdə kimi daim əsgərlərinin yanındadır. Ordusunu gücləndirmək qayğısına qalır. Əsgərlərlə bir süfrədə yemək yeyir. Mən bir tarixçi olaraq onu bir zamanlar öz əsgərləri ilə birləşərək, əsgər həyatı keçirərək ölkəmizi bütün işğalçılardan təmizləyən qüdrətli Nadir şaha bənzədirəm. İnanıram ki, ölkə rəhbəri prezidentliyi dövründə müzəffər ordumuzun başında bütün torpaqlarımızı işğalçılardan təmizləyəcək və Azərbaycan tarixinə xilaskar Prezident kimi daxil olacaq.

# İLHAM ƏLİYEV: yeni prezidentlik dövrünün möhtəşəm bir ili

*Əvvəli 1-ci səh.*

Ötən illər ərzində qazanılmış nailiyyətlər sırasında milli mədəniyyətin inkişafını xüsusi qeyd etməliyik. Milli-mənəvi dəyərlərimizin təbliğinə, mədəni həyatımızın zənginləşməsinə göstərilən diqqət və qayğı, bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət milli mədəniyyətimizin qorunmasında və dünya miqyasında tanıdılmasında böyük nailiyyətlər qazanmağa imkan vermişdir.

Azərbaycan dünyada multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Respublikamız müxtəlif mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə sivilizasiyalararası dialoqun təmin olunmasında mühüm rol oynayır. Azərbaycanda müxtəlif mədəniyyətlər arasında vəhdət və qarşılıqlı təsirin mövcud olması müasir cəmiyyətimizin əsas xüsusiyyətlərindən biridir.

Gənclər millətin varlığının və gələcək inkişafının təməl daşıdır. Bu mövqedən çıxış edərək ötən illər ərzində ölkəmizdə gənclərlə bağlı məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir. Onun əsas qayəsini dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiq və yüksək intellektual potensiala malik Azərbaycan gəncliyinin formalaşdırılması təşkil etmişdir. Bu sahədə atılan addımlar gənclərin cəmiyyətimizdə özlərini təsdiq etməsində mühüm rol oynamış, onların vətənimizə layiq vətəndaşlar kimi yetişməsinə böyük təsir göstərmişdir.

Azərbaycan Respublikası dövlətimizin ərazi bütövlüyünü qoruyan, dünyanın ən güclü orduları ilə eyni sırada yer alan və yüksək döyüş hazırlığı olan Silahlı Qüvvələrə malikdir. 2016-cı ilin aprel ayında Milli Ordumuz ermənilərin təxribatına layiqli cavab verməklə düşmənə sarsıdıcı zərbələr endirdi və zəbt olunmuş ərazilərimizin bir hissəsini işğalçılardan təmizlədi. Bununla da Azərbaycan Böyük qayıdış üçün ciddi addımını atdı. Hər birimiz indi erməni qəsbkarlarının vaxtilə işğal etdiyi Cocuq Mərcanlı kəndində Azərbaycan bayrağının dalğalanmasından böyük qürur hissi keçiririk. Bu şanlı qələbə erməni işğalçılarına xalqımızın və dövlətimizin gücünü nümayiş etdirdi, Milli Ordumuzun işğal olunmuş torpaqlarımızı istənilən anda azad etməyə qadir olduğunu göstərdi.

Göründüyü kimi, cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi uğurlar Azərbaycan vətəndaşlarını prezident seçkilərində fəal şəkildə iştirak etməyə və xalqımızı inamla firavan gələcəyə aparan liderini növbəti dəfə dəstəkləməyə ruhlandırmışdır.

## İslahatların yeni dalğası

Xatırlatmaq istərdik ki, növbədənkənar prezident seçkilərində səsvermədən iki gün əvvəl - aprelin 9-da Prezident İlham Əliyev 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə dair Nazirlər Kabinetinin iclasında islahatların davam etdirilməsinin vacibliyini vurğulamış və görüləcək işlərlə bağlı mülahizələrini açıqlamışdı. Cənab Prezident qeyd etmişdi ki, ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində bundan sonra da addımlar atılacaq, vergi, gömrük sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi davam etdiriləcək, institusional və digər tədbirlər həyata keçiriləcəkdir. Azərbaycan Prezidenti sənayenin, aqrar sahənin dəstəklənməsi və infrastrukturun inkişafı istiqamətində də işlərin davam etdiriləcəyini, məşğulluğun artırılması, yoxsulluğun azaldılması və sosial təminat istiqamətində mühüm addımların atılacağını bildirmişdi. Cənab İlham Əliyev aprelin 18-də keçirilən andiçmə mərasimindəki nitqində isə növbəti müddətdə dövlət başçısı postunda fəaliyyətinin əsas istiqamətlərini bəyan etdi. O, seçkiqabağı təşviqat mərhələsində digər namizədlərin də səsləndirdiyi fikirlərin və təkliflərin nəzərə alınacağını, qaldırılmış məsələlərə diqqətlə baxılacağını xüsusi vurğuladı. Prezident İlham Əliyev növbəti illərdə də bütün sahələrdə islahatların davam etdiriləcəyini, dövlət siyasətinin mərkəzində Azərbaycan xalqının köklü maraqlarının, maddi, mənəvi və sosial tələbatlarının dayanacağını qeyd etdi: “Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır”. Prezident İlham Əliyev sonrakı nitq və çıxışlarında, o cümlədən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında (11 yanvar), “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda (29 yanvar) etdiyi çıxışlarda, Novruz bayramı münasibətilə xalqa təbrik nitqində və ictimaiyyətlə görüşlərində ölkədəki real vəziyyətin təhlilini vermiş, dövlət idarəçiliyi, iqtisadi inkişaf, sosial müdafiə, məhkəmə-hüquq və digər sahələrdə nəzərdə tutulmuş islahatların başlıca tezislərini bəyan etmişdir. Azərbaycan Prezidenti islahatların əsas strategiyasının ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsinə, demokratik dəyərlərin inkişafına və dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinə yönəldiyini bildirmiş, bu məqsədlə cəmiyyətin bütün sahələrində ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir.

Cənab İlham Əliyev yenidən Azərbaycan Prezidenti seçildikdən sonra Nazirlər Kabinetinin tərkibində ciddi yeniləşmələr baş vermiş, müasir idarəetmə bilik və bacarıqlarına malik olan cavan kadrlar hökumətdə yüksək vəzifələrə təyin olunmuşlar. İctimai rəydə böyük rəğbətlə qarşılanan kadr siyasəti dövlət orqanlarının çevik və səmərəli şəkildə fəaliyyətinə mühüm təsir göstərmişdir. Bu zaman dövlət idarəçiliyi sistemində səmərəliliyin yüksəldilməsi və müasir dövrün tələblərinə cavab verən yeni idarəetmə strukturunun formalaşdırılması zərurəti nəzərə alınmışdır. Dövlət orqanlarının və qurumlarının fəaliyyətini optimallaşdırmaq məqsədilə 2019-cu il yanvarın 14-də Azərbaycan Prezidenti dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalamışdır. Sənəddən irəli gələrək idarəetmə sistemində çevikliyin və effektivliyin təmin olunması istiqamətində əsaslı struktur islahatlarına başlanılmışdır.

Qeyd edək ki, bu islahatların aparılması bütövlükdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə reallaşan çoxşaxəli islahatlar konsepsiyasının əsas istiqamətlərindən birini təşkil edir. İslahatlar sürətli sosial-iqtisadi inkişafa, əhalinin sosial rifahının yüksəlməsinə mühüm təkan verməklə yanaşı, həm də Azərbaycanı beynəlxalq aləmdə islahatçı dövlət kimi tanıtmaqdadır.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə son bir ildə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla aparılmışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələrək apelyasiya və inzibati-iqtisadi məhkəmələrin fəaliyyəti təkmilləşdirilmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Azərbaycan Prezidentinin 2019-cu il aprelin 3-də imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” fərman məhz həmin məqsədə xidmət edir. Fərmanda müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin formalaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, müvafiq infrastrukturun yenilənməsi işlərinin davam etdirilməsi, məhkəmə icraatında müasir informasiya texnologiyalarından hərtərəfli istifadə edilməsi və digər mühüm məsələlərin həll olunması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuş, aidiyyəti qurumlara müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

Fərmanda sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması və digər mühüm məsələlərlə bağlı qanunvericilik aktlarının layihələrinin hazırlanması müvafiq icra hakimiyyəti orqanına tapşırılmışdır.

Məhkəmə-hüquq sahəsində mühüm islahatlardan biri də mediasiya institutunun yaradılmasıdır. Martın 29-da bununla bağlı müvafiq qanun Prezident tərəfindən imzalanmışdır. Qanunda mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili məsələləri öz əksini tapmışdır.



Prezident İlham Əliyev cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini davam etdirmişdir. Azərbaycan Prezidentinin 2019-cu il 16 mart tarixli “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” sərəncamı ilə 431 nəfər əfv edilmişdir.

## Sosial təminat paketinin hazırlanması və həyata keçirilməsi

Sosial təminat paketinin həyata keçirilməsi ölkədə sosial müdafiə sisteminin gücləndirilməsi sahəsində atılan mühüm addımlardan biridir. Bu paketdə müəyyənləşdirilmiş məqsədlərdən irəli gələrək Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə şəhid ailələri üçün nəzərdə tutulmuş Prezident təqaüdünün məbləği 242 manatdan 300 manata, Əfqanıstan müharibəsində həlak olanların ailələrinə verilən müavinət 220 manatdan 300 manata qaldırılmışdır. Minimum əməkhaqqı və pensiyalarda 40 faizədək artım olmuşdur. Təxminən 100 minə yaxın tələbənin təqaüdü əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Ötən dövr ərzində qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində mühüm addım atılmışdır. Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği isə 50 faiz artırılmışdır. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülmüşdür. Həmin il şəhid ailələri və Qarabağ müharibəsi əlilləri 626 mənzillə təmin edilmiş, 2019-cu ildə isə onlara 800-ə yaxın mənzilin verilməsi nəzərdə tutulmuşdur.

2018-ci ilin aprel ayında seçkilərdən dərhal sonra Prezident İlham Əliyev “Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında” fərman imzalamışdır. Sənəddə bu qəbildən olan insanların vərəsələrinə on bir min manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Prezidenti 2019-cu il yanvarın 11-də Nazirlər Kabinetinin iclasında bu məsələyə yenidən qayıdaraq demişdir: “Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar, - mənim sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Eyni zamanda, siyahılara baxılır, dəqiqləşdirilir və bu məsələ ilə bağlı təkliflər də irəli sürülür. Burada, əlbəttə ki, sosial ədalət prinsipi əsas olmalıdır. Qanun və ədalət. Əminəm ki, biz bu istiqamətdə də istədiyimizə nail olacağıq”. Cənab Prezident o zaman “qanun və ədalət” prinsipini önə çəkərək vaxtilə bu yardımı alanlara indikindən xeyli az vəsait ödənildiyini nəzərə çatdırdı və yaranmış uyğunsuzluğun tezliklə aradan qaldırılmasını təmin etdi.

Azərbaycan Prezidentinin 2019-cu ilin fevral ayında “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” və “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərmanları sosialyönümlülük və humanizm prinsiplərinin əsas götürülərək, əhalinin sosial maraqlarının müdafiəsinə və rifah halının yaxşılaşmasına yüksək diqqət yetirildiyini bir daha göstərdi.

## Mütərəqqi inkişafın təməlində dayanan iqtisadi nailiyyətlər

Cənab İlham Əliyevin yenidən Prezident seçilməsindən ötən bir il ərzində digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də ciddi nailiyyətlər qazanılmışdır. Azərbaycan iqtisadiyyatının dayanıqlığının təmin edilməsi, onun neftdən və qazdan asılılığının daha da azalması, qeyri-neft sektorunun inkişafı məqsədilə ardıcıl tədbirlər davam etdirilmişdir. İqtisadi və maliyyə sektorlarında maksimum şəffaflığın təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Müasir mərhələdə onu da nəzərə almaq lazımdır ki, bu sahələrdə kompleks tədbirlərin görülməsi iqtisadiyyata, xüsusilə də qeyri-neft sektoruna böyük həcmdə xarici sərmayənin cəlb olunması üçün mühüm əhəmiyyət daşıyır.

Həyata keçirilmiş iqtisadi islahatlar, gömrük və vergi sahəsində şəffaflıqla bağlı görülən işlər büdcə daxilolmalarına da müsbət təsir göstərmişdir. 2019-cu ilin birinci ayında büdcəyə daxilolmalar xeyli artmış, vergi orqanları plandan əlavə 80 milyon manatdan çox, gömrük orqanları isə 20 milyon manatdan çox vəsait toplamışlar. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “2018-2020-ci illərdə Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”ndan irəli gələrək vergi sistemində həyata keçirilən əsaslı dəyişikliklər də öz bəhrəsini verməyə başlamışdır.

Son bir ildə sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahəsində mühüm addımlar atılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 31 iyul tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu təsis edilmişdir. Fondun yaradılması sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilməsində mühüm əhəmiyyət daşıyır. 2018-ci ildə fondun xətti ilə 999 sahibkara 160,0 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277,0 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17,0 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib. Sahibkarlara köməyin gücləndirilməsi üçün bir çox ölkələrə ixrac missiyaları təşkil olunmuşdur. Sahibkarlığa dəstək məqsədilə artıq Belarus, Çin, Ukrayna, Latviya və Polşada Azərbaycan Ticarət evləri fəaliyyətə başlamışdır. Ticarət evlərinin açılması eyni zamanda həmin ölkələrə Azərbaycanın ixracını da artırır. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Ötən dövr ərzində sənaye potensialının inkişafı ilə bağlı göstəricilərin yüksək dinamikasına nail olunmuşdur ki, bunun nəticəsində sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artmışdır. 2016-cı ildən tətbiqinə başlanmış investisiya təşviqi mexanizmi müsbət nəticələr verməkdədir. Hazırda bu proqram 300-dən çox layihəni əhatə edir ki, onlardan 107-si 2018-ci ildə icra olunub. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. İndiyə qədər bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılmışdır. 2018-ci ilin iyul ayında Sumqayıt Kimya Sənaye Parkının ərazisində “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən polipropilen zavodu fəaliyyətə başlamışdır.

Azərbaycan iqtisadiyyatında rəqabətliyin artırılması özünün müsbət əksini nüfuzlu beynəlxalq təşkilatların və aparıcı maliyyə qurumlarının reytinq cədvəllərində tapmışdır. Məsələn, Davos Forumunun hesablamalarına əsasən, ölkəmiz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yeri tutur. Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir.

Regionların inkişafı sahəsində həyata keçirilmiş dövlət proqramlarında və digər direktiv sənədlərdə nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına mühüm təkan vermişdir. Regionların III sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində ötən bir il ərzində bölgələrdə əhəmiyyətli infrastruktur layihələri icra edilmiş, yeni sənaye müəssisələri yaradılmışdır. Bununla yanaşı, regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı Azərbaycan Prezidenti tərəfindən bir çox sərəncamlar imzalanmışdır. Azərbaycan Prezidentinin 2019-cu il 29 yanvar tarixli fərmanı ilə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir. Azərbaycan Prezidenti 2018-ci ildə Azərbaycanın bölgələrinə 24 səfər etmişdir.

Məlumdur ki, regionların iqtisadiyyatı əsasən aqrar sahə ilə bağlıdır. Ötən il kənd təsərrüfatı sahəsində çalışanlara 370,0 milyon manat məbləğində subsidiya və güzəştlər verilmişdir. Prezident İlham Əliyevin göstərişi ilə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi istiqamətində görülən işlər ölkənin ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

## Enerji-nəqliyyat layihələrinin regional və beynəlxalq əhəmiyyəti

Azərbaycanın yaxından iştirak etdiyi nəhəng transmilli layihələrin reallaşması Avrasiyanın enerji və nəqliyyat xəritəsində ciddi dəyişikliklər yaratmışdır. 2018-ci il mayın 29-da “Cənub qaz dəhlizi”nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olmuşdur. Bu layihələrin həyata keçirilməsi Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətinin artmasında, Qərb ölkələri ilə münasibətlərin daha yüksək pilləyə qalxmasında vacib əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də böyük işlər görülmüşdür. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolu istifadəyə verilmişdir. Ümumiyyətlə, respublika üzrə 2018-ci ildə 2 min kilometr avtomobil yolu çəkilmişdir.

## Sosial-mədəni xidmət sahələrinin və təsərrüfat infrastrukturunun inkişafı

Ötən bir il ərzində ölkənin sosial-mədəni xidmət sahələrində və təsərrüfat infrastrukturunda mühüm yeniliklər baş vermişdir. Tarixi bina, muzey, teatr və kitabxanalarda yenidənqurma işləri davam etdirilmiş, ölkənin bütün ali təhsil ocaqları, həmçinin AMEA-nın nəzdində olan institut və müəssisələr təmir edilərək yeni avadanlıqla təchiz olunmuşdur. 2018-ci ilin avqust ayında Böyük Britaniyanın müxtəlif aviaşirkətlər və aeroportlar tərəfindən göstərilən xidmətin keyfiyyətini öyrənmək üzrə ixtisaslaşmış nüfuzlu özəl konsaltinq şirkəti “Skytrax” beşulduzlu hava limanlarının reytinqini müəyyənləşdirmişdir. Reytinqə görə, Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın beşulduzlu 9 əsas hava limanı siyahısına daxil olmuşdur. 2018-ci ilin sentyabrında isə Azərbaycanın daha bir telekommunikasiya peyki “Azerspace-2” orbitə çıxarılmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 1 ildə ölkədə turizm sənayesinin formalaşdırılması, yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi məqsədilə əsaslı islahatlar və mühüm tədbirlər həyata keçirilmişdir. Turizm və dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə 2018-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılmışdır. Əlverişli biznes və investisiya mühiti nəticəsində Bakıda və regionlarda yüksək standartlara cavab verən turizm müəssisələri fəaliyyətə başlamışdır.

2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin İmişli rayonunda və Şəki şəhərində yeni mərkəzləri istifadəyə verilmiş, 2019-cu ildə isə regionlarda bu cür 5 mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaratmışdır.

## Milli maraqlara söykənən xarici siyasətin və ordu quruculuğunun uğurlu nəticələri

Ötən bir il ərzində beynəlxalq tədbirlər çərçivəsində və eyni zamanda, Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində ölkəmizin dünya birliyində nüfuzu daha da artmışdır. Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin sayəsində Azərbaycanın dünya dövlətləri və beynəlxalq güc mərkəzləri ilə səmərəli, işgüzar və bərabərhüquqlu münasibətləri daha da möhkəmlənmişdir. Prezident İlham Əliyev təkcə 2018-ci ildə xarici ölkələrə 16 səfər etmiş, xarici ölkələrin 16 dövlət və hökumət başçısı isə Azərbaycana səfərə gəlmişdir. Hazırda Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişinin imzalanması üzərində iş gedir. Tərəflər arasında müxtəlif istiqamətlər üzrə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açan bu sənədin bu il imzalanacağı gözlənilir. 2018-ci ilin avqust ayında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması ölkəmizin maraqlarına tam cavab verməklə, onun dənizdə həyata keçirdiyi karbohidrogen hasilatı ilə bağlı layihələrinin, eləcə də digər növ təsərrüfat-iqtisadi fəaliyyətlərinin davamlılığını və təhlükəsizliyini təmin edir.

Prezident İlham Əliyev xarici ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyini onların diqqətinə çatdırmışdır. Bu istiqamətdə aparılan qətiyyətli və prinsipial siyasət nəticəsində Ermənistanın yeni rəhbərliyinin danışıqlardan yayınmaq, danışıqların formatının dəyişdirilməsi cəhdlərinin qarşısı alınmışdır. Keçən dövr ərzində nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət yetirilmişdir. 2018-ci il iyulun 11-də Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın prioritetlərinə dair imzalanmış sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də öz əksini tapmış, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək, hörmət ifadə olunmuşdur. 2018-ci ilin iyul ayında NATO-nun Brüssel Zirvə görüşündə qəbul edilmiş yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdir. Ötən il Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirilmişdir. Bu il isə paytaxtımızda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcəkdir. Şübhəsiz, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək Azərbaycanın nüfuzunu daha da artıracaq, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür. Bütün bunların nəticəsidir ki, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür. Ötən dövr ərzində ölkəmizin hərbi potensialının daha da gücləndirilməsi Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasına daxil olmasında mühüm rol oynamışdır. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri 2018-ci ildə dünyada ən güclü 50 ordu sırasında yer tutmuşdur.

2018-ci il iyunun 26-da Bakı şəhərinin Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə təntənəli hərbi parad keçirilmişdir. 240-dan çox hərbi texnika, gəmi, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikaların nümayiş olunduğu parad Azərbaycanın Silahlı Qüvvələrinin maddi-texniki təchizat baxımından gücünü bütün dünyaya nümayiş etdirdi.

## Davamlı inkişaf və beynəlxalq təşkilatların, sosioloji sorğu mərkəzlərinin hesabatları

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan “Doing Business 2019” hesabatında isə Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək, 2018-ci ildə dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Hesabatda Azərbaycan 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə qalxmış, dünyanın bir çox ölkələrini geridə qoyaraq Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqe tutmuşdur. Davos İqtisadi Forumunun “Qlobal Rəqabətlilik 2019” hesabatına əsasən, Azərbaycan 140 ölkə arasında “Dövlət tənzimlənməsinin yükü” altindikatoru üzrə əvvəlki illə müqayisədə 3 pillə irəliləyərək 12-ci yeri tutmuşdur. Bu forumun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə dünya ölkələri içərisində 30-cu yeri tutur.

Dövlətin və cəmiyyətin bütün sahələrini əhatə edən dəyişikliklərin baş verdiyi ötən bir il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Azərbaycan Prezidentinin apardığı daxili və xarici siyasət kursu, həyata keçirdiyi islahatlar xalqımız tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Bu fikri Fransanın “Opinion Way” şirkətinin 2019-cu ilin mart ayında Azərbaycanda keçirdi rəy sorğusunun yekunları da təsdiq edir. Təşkilatın Naxçıvan Muxtar Respublikası istisna olmaqla, ölkənin bütün bölgələrində apardığı sorğularda respondentlərin 85,1%-i Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri müsbət qiymətləndirdiyini bildirmişdir.

“Opinion Way”in “Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları necə qiymətləndirirsiniz” sualına sorğuda iştirak edənlərin 90,5%-i müsbət cavab vermışdır. Rəyi soruşulanların mütləq əksəriyyəti, 80%-ə qədəri Prezident İlham Əliyevin öz seçkiqabağı vədlərini tam yerinə yetirdiyi qənaətindədir.

*Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev yeni prezidentliyi dönəminin ilk ilində həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətlə ölkəmizin inkişafı, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədləri vaxtında və yüksək səviyyədə yerinə yetirmişdir. Azərbaycanın əldə etdiyi uğurlar xalqımızın bir il bundan əvvəl keçirilən prezident seçkilərində cənab İlham Əliyev kimi uzaqgörən siyasi lideri dəstəkləməklə düzgün mövqe tutduğunu bir daha sübut edir.*

**Əli HƏSƏNOV,**
***tarix elmləri doktoru, professor***

# Liderlik nümunəsi

*Əvvəli 1-ci səh.*

Bu gün Azərbaycan uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların - davamlı və tarazlı inkişafı stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq dünyanın sürətli inkişaf yolunda olan, qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxan dövlətlərindən biri kimi tanınır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan son 16 ildə olduğu kimi, 2018-ci ildə də iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Ötən ilin ən mühüm-əlamətdar hadisəsi prezident seçkilərinin keçirilməsi və cənab İlham Əliyevin növbəti dəfə möhtəşəm qələbə qazanması oldu. Azərbaycan xalqı cənab İlham Əliyevə yüksək etimad göstərdi və bir daha sabitliyə, inkişafa səs verdi. Ötən il aprelin 11-də xalqımız cənab İlham Əliyevin siyasətinə - inkişafa, sabitliyə, "Yeni hədəflərə doğru" müddəalarına yenidən "HƏ" deməklə bu inkişafın davamlılığını, dinamizmini şərtləndirdi və sürətləndirdi. Dövlət başçısı Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: *"Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq. Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik".*

Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının sədri, dövlət başçısı cənab İlham Əliyevə yüksək inam və etimad göstərməklə ölkəmizin qarşıdakı dövrdə də möhtəşəm nailiyyətlər, uğurlar qazanmasına mandat verdi. Azad, şəffaf şəraitdə Azərbaycan seçicilərinin yüksək fəallığı ilə yenidən Prezident seçilən cənab İlham Əliyevin xalq qarşısında çıxışında səsləndirdiyi fikirlər, verdiyi vədlər hər biri tam şəkildə yerinə yetirilib və yetirilməkdədir.

Son bir ildə Prezidentin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı davamlı xarakter daşıyıb. Siyasətinin əsasında Azərbaycan xalqının maraqlarını müdafiə etməyin vacibliyinin dayandığını söyləyən cənab Prezident xalqın rifah içində, təhlükəsizlik şəraitində yaşaması üçün əlindən gələni edir. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində ardıcıl addımlar atır. Ötən bir ildə Azərbaycanda sosial-iqtisadi sahələrdə bir sıra uğurlar qazanılıb. Ümumi daxili məhsulun artımı, sənaye və kənd təsərrüfatı istehsalının yüksəlməsi, yeni iş yerlərinin açılması, bütövlükdə əhalinin real gəlirlərinin artması kimi faktorlar bunun əyani sübutudur. Prezident İlham Əliyevin sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu siyasət nəticəsində işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Cənab Prezidentin bu tədbirləri bir daha sübut edir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımından aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması da bu sahəyə Azərbaycan Prezidentinin qayğısını bir daha təsdiq edir.

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla yanaşı, zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir, ölkəmizin qüdrətinin daha da artmasına xidmət edən mühüm addımlar atılır. Son zamanlar Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlara uyğun olaraq həyata keçirilən tədbirlər sosial, iqtisadi və digər sahələri əhatə edən islahatların davamlı xarakter daşıdığını göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük inkişaf yolu keçərək regionun lider dövlətinə çevrilib, paytaxt Bakının və regionların siması əhəmiyyətli dərəcədə dəyişilib, əhalinin sosial müdafiəsi daha da gücləndirilib və bütün bunlar Azərbaycanın qüdrətinin artmasını təmin edib.

Bütün bunlar göstərir ki, güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənib, yeni istehsal sahələri yaradılıb, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlib, ixrac qabiliyyəti artıb. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə ölkəmizdə qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir. Prezident İlham Əliyevin inkişaf siyasəti özündə uzunmüddətli və çoxşaxəli perspektiv hədəfləri ehtiva edir. Belə ki, dövlət başçısı tərəfindən təsdiq olunmuş müxtəlif proqramlar bütövlükdə, Azərbaycanın uzunmüddətli inkişafı üçün strateji vəzifələr müəyyən edir.

Azərbaycan artıq dünyada iqtisadi inkişafın özünəməxsus modelinə sahib olan ölkə kimi tanınır və qəbul edilir. Postsovet məkanında keçid dövrünü uğurla başa vuran ilk dövlət kimi əldə edilən nailiyyət göstəriciləri düşünülmüş, məqsədyönlü siyasətin nəticələridir. Bunlar həm də Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən siyasətin düzgünlüyünün real isbatı və daha sürətli inkişafın zəminidir.

*"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə..."* - deyən Prezident İlham Əliyev bu ilin ilk 2 ayında əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində inqilabi islahatlara imza atıb. 3 milyondan çox vətəndaşımızın maddi vəziyyətini yaxşılaşdıran sosial paketin təsdiqlənməsi, minimum əməkhaqqı və minimum pensiyanın 40 faiz artması, sosial müavinətlərin iki dəfə artması, məcburi köçkünlərə verilən müavinətlərin 50 faiz artması, tələbələrin təqaüdlərinin, şəhid ailələrinə verilən müavinətlərin, xarici valyutada götürülmüş kreditlərin artan hissəsinin ödənilməsi barədə qərarın qəbul edilməsi islahatların tərkib hissəsi olaraq xalqın rifahına yönəlib.

Prezident İlham Əliyevin Novruz bayramı ərəfəsində imzaladığı əfv sərəncamı dövlət başçısının humanizm siyasətinin parlaq nümunəsidir. Sadalanan bu faktlar Azərbaycanın inkişaf, tərəqqi, sabitlik ölkəsi olduğunun, dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla irəlilədiyinin əyani sübutudur.

Azərbaycan bu gün güclü dövlət quruculuğu istiqamətində möhkəm dayaqlar üzərində irəliləyir və bu dayaqlardan biri, bəlkə də birincisi xalqımızın öz milli-mənəvi dəyərlərinə bağlılığıdır. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Xüsusilə böyük tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir.

Prezident İlham Əliyev tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırır. Maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib.

Dini, mədəni və tarixi abidələrin bərpasına, onların yenidən xalqın qan yaddaşına qaytarılmasına həssaslıqla yanaşan, bu sahədə həyata keçirilən layihələrə ciddi dəstək verən Prezident İlham Əliyevin son illərdə bir çox dini abidələrin bərpası ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar ölkəmizdə mövcud olan milli mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsinə çevrilib. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli mənəvi dünyasına daha çox bağlı olsunlar. Bu gün Azərbaycan müsəlman aləmində çox böyük hörmətə, nüfuza malikdir. İslam həmrəyliyinə müstəsna töhfələr verir. 2018-ci ildə də Azərbaycan bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyətini uğurla davam etdirib.

Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində əsasını qoyduğu siyasətin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul model kimi qəbul olunur və bəyənilir. Bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurur. Bütün bunlar ölkəmizdə dinə dövlət qayğısının bariz nümunəsi, ümumiyyətlə, dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürüdür.

Ölkəmizdə dövlət başçısı tərəfindən müəyyən edilən dövlət-din münasibətlərinin yüksələn xətlə inkişafında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi ilə birgə fəaliyyət göstərir, milli-mənəvi və ənənəvi dini dəyərlərimizi cəmiyyətə düzgün şəkildə çatdırmaq məqsədilə mütəmadi maarifləndirici tədbirlər, beynəlxaq səviyyəli konfranslar keçirir və keçirməkdədir.



Ötən günlərdə Prezident İlham Əliyevin bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərən, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmiş, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində xidmətlər göstərmiş Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyinin tamam olması münasibətilə yubileyinin qeyd edilməsi barədə imzaladığı sərəncam dövlətin din sahəsinə verdiyi dəyərin bariz nümunəsidir.

Azərbaycan dövlətinin din siyasətinin örnək olmasının çoxsaylı nümunələrindən biri də Prezident İlham Əliyevin müsəlmanlarla yanaşı, yəhudi və xristian icmalarına hər il qeyd etdikləri dini bayramlarda təbrik ünvanlamasıdır.

Sadalanan faktlar bir daha göstərir ki, dünyada dini ayrı-seçkiliyin gücləndiyi və dini zəmində qarşıdurmaların artdığı bir dövrdə tolerantlıq Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Fəxrlə deyə bilərik ki, bu gün bütün dünyada demokratik dəyərlərdən biri kimi təbliğ olunan dini dözümlülük xalqımızın əsrlər boyu formalaşan və bir çoxlarına örnək olan xarakterik xüsusiyyətidir və bu, inkaredilməz həqiqətdir. Bu gün Azərbaycanda kilsə və sinaqoqlarla yanaşı, bir çox xristian, yəhudi dini tədris müəssisələrinin sərbəst şəkildə fəaliyyət göstərməsi və onlara dövlət tərəfindən lazımi dəstək verilməsi də buna əyani sübutdur.

Dövlət başçısı cənab İlham Əliyevin milli-mənəvi dəyərlərimizə yüksək ehtiram və qayğısının sonuncu nümunəsi onun 2017-cu il oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması ilə bağlı imzaladığı fərmandır. Fond ölkədə mövcud olan dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə yaradılıb.

Eyni zamanda, Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında imzaladığı sərəncam və sadalanan bütün faktlar birmənalı şəkildə deməyə əsas verir ki, ölkəmizdə dövlət-din münasibətləri sağlam təməllər üzərində qurulub. Ölkə rəhbərliyinin din sahəsində yeritdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətləri beynəlxalq hüquq normalarına uyğun tənzimlənir, dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir, ölkədəki tolerantlıq mühiti qorunub saxlanılır. Azərbaycanın dini tolerantlıq modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur.

Mövcud mürəkkəb geosiyasi durumda bu uğurları daha da genişləndirmək və tarixin ən möhtəşəm Azərbaycanını qurmaq kimi çətin, şərəfli vəzifəyə nail olmaq möhtərəm Prezident İlham Əliyevin həqiqətən də görkəmli dövlət xadimi və qüdrətli lider olduğuna əyani sübutdur. Dövləti idarə etmək yəqin ki, siyasi bir şansdır və bu fürsətə təsadüfi adamlar da yiyələnə bilər. Ən azından elə ölkəmizin siyasi tarixi bunu göstərir. Amma dövləti layiqincə idarə etmək məharətinə sahib olmaq, bu fəaliyyəti yalnız millətin və dövlətin maraqlarının ödənməsinə yönəltmək, siyasi sələflərdən miras olaraq əldə olunan dövlətçilik potensialını dəfələrlə artırmaq kimi xüsusiyyətlər isə yalnız həqiqi liderlərə xasdır. Buna görə də, tam əminliklə söyləmək olar ki, bu gün Prezident İlham Əliyevin şəxsiyyəti Azərbaycanla bərabər yüksəlir və dünya miqyasında nüfuz qazanır. Beləliklə də, öz tərcümeyi-halını Azərbaycanın inkişaf və quruculuq tarixinə həkk etdirir.

**Mübariz QURBANLI,**
***Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini***

# İnsan amilinin yüksəlişinə xidmət edən siyasətin zəfəri

*Əvvəli 1-ci səh.*

Böyük əksəriyyət 1 il əvvəl keçirilmiş seçkilərdə müdrik seçim edərək xalq üçün çalışan, dövlətin hərtərəfli inkişafını təmin edən, gələcək nailiyyətlərinə etibarlı zəmin hazırlayan komandaya və əməli siyasətə səs vermişdir. Ötən dövrdə respublikamızın dinamik sosial, iqtisadi, siyasi, diplomatik uğurları, habelə əvvəlki illərdə əsası qoyulmuş qlobal layihələrin davam etdirilməsi zərurəti ictimai rəyin düzgün və birmənalı seçiminə təsir etmiş, səsvermədə iştirak edənlərin 86,03 faizi ən çətin sınaqlardan üzüağ çıxaraq özünü tam təsdiqləmiş komandanın zəfərinə səs vermişdir. Son seçkilərdə hər bir vətəndaş, ilk növbədə, xalqının və dövlətinin gələcəyini düşünərək ölkədə davamlı sabitliyin və sürətli inkişafın təminatçısı olan Prezident İlham Əliyevə etimad göstərmişdir.

Seçkilər mahiyyət etibarilə həm də hər bir siyasi qüvvənin fəaliyyətinə verilən ictimai qiymətdir. Hər bir hakimiyyətin müəyyən zaman intervalındakı fəaliyyətinin dəyərləndirilməsi məhz azad və ədalətli seçkilər nəticəsində mümkün olur. Cəmiyyətdəki mütləq çoxluğun maraq və mənafeyinə cavab verən inkişafyönümlü proqramları uğurla reallaşdıran komandanın seçkilərdəki zəfəri də qaçılmaz olur. Bu nöqteyi-nəzərdən, həm yerli, həm də əcnəbi siyasi analitiklər hələ seçkilərdən əvvəl Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədinin parlaq qələbə qazanacağını böyük əminliklə proqnozlaşdırırdılar. Bu əminlik sadəcə, əhalinin müxtəlif qrupları arasında keçirilmiş rəy sorğularının obyektiv nəticələrinə deyil, həm də ölkənin milli iqtisadi inkişaf modelinin ölkəyə gətirdiyi dividendlərə, insanların həyat tərzində hiss olunan konkret makroiqtisadi göstəricilərə əsaslanırdı. Başqa sözlə, 11 aprel seçkilərinin nəticələri konkret, real əməli fəaliyyətə əsaslanan siyasətin zəfəri olmuşdur.

2018-ci il aprelin 18-də xalqa və dövlətə sədaqət andı içən Prezident İlham Əliyev dərin məzmunlu nitqində bu siyasətin qarşıdakı illərdə də inamla davam etdiriləcəyini vurğulamışdır: *"Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".*

Dövlət başçısının da vurğuladığı kimi, xalqın bu müdrik seçimi Heydər Əliyev siyasi kursunun Azərbaycanın yeganə nicat yolu olduğunu, milli inkişafda mühüm rol oynadığını növbəti dəfə təsdiqləmiş, həyata keçirilən siyasi kursun böyük ictimai etimada, dəstəyə malik olduğunu göstərmişdir. Bu seçimi şərtləndirən başlıca amillərdən biri də dövlət başçısının rəhbərliyi altında cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən səmərəli islahatların həyata keçirilməsidir. Cənab İlham Əliyev hər cür pafosdan, populizmdən tamamilə uzaq, praqmatik, realist təfəkkürlü liderdir və onun elə bir vədi yoxdur ki, ötən 15 ildə reallaşmamış qalsın. Əksinə, son 15 ildə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə ən azı onilliklər ərzində reallaşdırılması mümkündür. Öz liderinin yüksək iradəsi, əzmi, qətiyyəti, idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan bu dövrdə inqilabi inkişaf yolu keçmiş, bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur.

Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi Ərzurum qaz kəmərləri istifadəyə verilmiş, "Ümid", "Abşeron" kimi perspektivli yataqlar kəşf olunmuş, Şərqlə Qərbi qovuşduran Bakı-Tbilisi-Qars dəmir yolu xətti işə düşmüş, TAP, TANAP kimi enerji layihələri həyata vəsiqə almış, "Əsrin müqaviləsi"nin vaxtı uzadılmışdır. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızı bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir.

Prezident cənab İlham Əliyev YAP-ın son qurultayında ölkədə yürüdülən siyasətin əsasında insan və vətəndaş amilinin dayandığını bir daha bəyan etmişdir: *"Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir".*

Ötən 15 ildə hökumətin vaxtaşırı olaraq xalqa hesabat verməsi də milli dövlətçilik tariximizdə mütərəqqi ənənəyə çevrilmiş, demokratik dəyərlərə hörmətin, ictimai rəyə həssas münasibətin ifadəsi kimi diqqəti çəkmişdir. Bu, eyni zamanda cəmiyyətdə şəffaflığın və sosial ədalət normalarının qorunmasını təmin etmiş, dövlət məmurlarının xalq və Prezident qarşısında məsuliyyətini artırmış, onları qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün daha səylə çalışmağa sövq etmişdir. "ASAN xidmət", "ASAN Kommunal" və "DOST" kimi unikal xidmət mərkəzlərinin yaradılması və fəaliyyəti hökumətin xalq qarşısında bürokratik amillər olmadan, şəffaf və layiqli xidmət etmək niyyətinin ali təcəssümü olaraq Azərbaycan milli brendinə çevrilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin prezidentlik dövrünün ən böyük uğurlarından biri də Azərbaycan kəndinə şəhər simasının gətirilməsi olmuşdur. Hətta sovet dövründə belə mavi yanacaq görməyən Yardımlıya, Lerikə qaz xətti, Oğuz-İsmayıllı bölgəsindən Bakıya su kəməri, Qubanın ucqar dağ kəndi Xınalığa yol çəkilmiş, daha bir layihənin - strateji əhəmiyyətli Quba-Şamaxı yolunun inşasına start verilmişdir. Bütün bunlar regionlarda mənəvi ab-havanın yaxşılaşmasına səbəb olmaqla, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadı, sevgini və rəğbətini daha da artırmışdır.

Ötən illərdə Azərbaycan regional və beynəlxalq əməkdaşlığı regionda sülhün və sabitliyin qorunub saxlanılması üçün mühüm amil hesab edərək Ermənistan istisna olmaqla bütün yaxın qonşuları ilə qarşılıqlı faydalı dostluq münasibətləri qurmuşdur. Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, Rusiyanın Azərbaycandakı yeganə hərbi bazasının - Qəbələ Radiolokasiya Stansiyasının fəaliyyəti dayandırılmış, türk və islam dövlətləri ilə münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Çevik və çoxtərəfli diplomatik fəaliyyətin, Azərbaycanın təşəbbüskarlığı və evsahibliyi ilə Bakıda keçirilən çoxsaylı mötəbər beynəlxalq tədbirlərin nəticəsidir ki, Bakı artıq regionun "diplomatik paytaxtı"na, multikulturalizm mərkəzinə çevrilmişdir.

Prezident cənab İlham Əliyev ilk gündən elm və təhsilə qayğını, bu sahədə özünü göstərən problemlərin həllini də hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Regional inkişaf prosesi çərçivəsində yeni məktəblərin tikintisi və onların kompüterləşdirilməsi, ali təhsil sisteminə qayğının gücləndirilməsi, müəllimlərin sosial müdafiəsi tədbirlərinin genişləndirilməsi, elm sahəsindəki problemlərin aradan qaldırılması, Avropa təhsil məkanına inteqrasiyanın təmini - Bolonya prosesinə keçid, "Təhsil haqqında", "Elm haqqında" yeni qanunların qəbulu, 4 may 2009-cu il tarixli "Azərbaycan Respublikasında 2009-2005-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın, 22 may 2009-cu il tarixli "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi və s. bu tədbirlərin əsas tərkib hissəsi olmuşdur.

Yeni dünya reallıqlarını obyektiv dəyərləndirən Prezident cənab İlham Əliyevin xüsusilə də son üç ildə yürütdüyü məqsədyönlü siyasət təkcə iqtisadi islahatların dərinləşdirilməsinə deyil, həm də dövlət idarəçiliyində sistem xarakterli keyfiyyət dəyişikliklərinin təmin edilməsinə yönəlmişdir. Ölkədə və regionda, ümumilikdə, qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından, dövlət başçısı rəhbəri olduğu komandanın bu çağırışlara hazır olmasını son dərəcə vacib sayır.

Cənab İlham Əliyevin təşəbbüsü və xalqımızın azad siyasi iradəsinin təntənəsi kimi tarixiləşmiş 2016-cı ilin 26 sentyabr referendumu ilə Azərbaycan Respublikasında vitse-prezident vəzifələrinin təsis edilməsi, 2017-ci il 21 fevral tarixdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması, bu mənada, postneft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlılığını və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət etmişdir. Bu təyinat ölkəmizin elm və təhsil sahəsində əldə etdiyi nailiyyətlərin uğurlu davamına təminat yaratmış və islahatlara yeni nəfəs vermişdir.

11 aprel seçkilərindən sonra sosialyönümlü islahatları genişləndirən, ictimai rəy amilinə daha həssas yanaşan cənab İlham Əliyev, bu mütərəqqi islahatların reallaşdırılmasına layiqli töhfələrini verən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqını sevən, vətəndaşların problemlərinə yüksək qayğı ilə yanaşan şəxsiyyət olduqları bir daha əyani təsdiqini tapmışdır.

Yalnız son 1 ildə həyata keçirilən sosialyönümlü islahatlar dövlət başçısının inqilabi islahatların təşəbbüskarı və icraçısı olduğunu bir daha nümayiş etdirir. Ərazi bütövlüyümüz uğrunda həlak olmuş insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödənişin edilməsi, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün yeni evlərin tikintisi, minimum əməkhaqqının, sosial müavinət, pensiya və tələbə təqaüdlərinin artırılması, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borclarının müəyyən şərtlər civarında silinməsi, yanğından zərər çəkmiş sahibkarlara kompensasiyanın ödənilməsi, Azərbaycanın 10 milyonuncu vətəndaşının ailəsinə yüksək diqqətin göstərilməsi və digər addımlar xalq tərəfindən böyük rəğbətlə qarşılanır.

Dövlət rəhbəri cənab İlham Əliyev 2019-cu il martın 20-də - Novruz bayramı münasibətilə xalqa ənənəvi müraciətində demişdir: *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir".*

Axırıncı prezident seçkilərindən sonra dövlət başçısının qətiyyətlə həyata keçirdiyi kadr islahatları - müasir təfəkkürlü və idarəetmə sahəsində novatorluğu ilə fərqlənən gəncləri irəli çəkməsi ölkədə islahatların miqyasını və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflığı təmin etmək niyyətindən irəli gəlir. Bu təyinat və islahatlar digər sahələrdə olduğu kimi, elm, təhsil sahələrində də səmərəsini göstərir.

Onu da əminliklə demək olar ki, Azərbaycan cəmiyyəti tarixin heç bir mərhələsində son 1 ildəki kimi sürətli dəyişikliklərə uğramamış, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmamışdır. Belə məsuliyyətli mərhələdə dövlət məmurları qarşısında vətəndaşların mənafeyi naminə daha səy və bacarıqla işləmək, islahatların düzgün, vaxtında reallaşdırılmasını təmin etmək, xalqın xidmətçisi olmaq kimi ümdə vəzifələr müəyyənləşdirilmişdir. Başqa sözlə, son illər həyata keçirilən sosialyönümlü islahatlar paketinin əsas məqsədini əhalinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə dövlət idarəçilik fəlsəfəsinin dəyişdirilməsi təşkil edir.

Dövlət başçısı böyük əzmlə həyata keçirdiyi sosialyönümlü islahatlarla vətəndaşların dövlətə və onun rəhbərliyinə inamını daha da artırır. Fransanın tanınmış "Opinion Way" şirkətinin bu günlərdə nəticələrini açıqladığı rəy sorğusuna görə, sadə azərbaycanlıların 85,1 faizinin Azərbaycan Prezidenti cənab İlham Əliyevə etimad göstərməsi, bu mənada, tamamilə təbii, qanunauyğun proses kimi dəyərləndirilməlidir.

11 aprel prezident seçkilərindən ötən 1 il deməyə əsas verir ki, Heydər Əliyev dühasının müəyyənləşdirdiyi yolla inamla irəliləyən Azərbaycan xalqı onun ən layiqli davamçısı - cənab İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti ətrafında sıx birləşərək, gələcəyə böyük nikbinliklə, ümidlə baxır.

*Mütləq əksəriyyət əmindir ki, Azərbaycan xalqının milli mənayefinə cavab verən bu siyasət qarşıdakı illərdə də davam etdiriləcək, respublikamız sürətli inkişaf tempini qoruyub saxlayaraq qabaqcıl dövlətlər sırasında layiqli yerini tutacaqdır.*

**Mönsüm ALIŞOV,**
***pedaqoji elmlər doktoru, professor***

# Tarix yaradan LİDER



**Biz cənab Prezidentin gördüyü işləri, atdığı addımları, rəsmi səfərlərini, apardığı danışıqları, verdiyi qərarları sadəcə sosial-iqtisadi proqramlar, rəsmi fəaliyyət xronikası kimi nəzərdən keçirməklə bütün bunların miqyasını kiçiltmiş oluruq.**

**Zamanın içində yaşayanda, bəli, mahiyyətini dərindən hiss edə bilmirsən, baş verənləri, həqiqətən, cari fəaliyyət gözündə görürsən. Amma zamana bir qədər kənardan, keçmişin, bugünün və gələcəyin ənginliklərindən baxanda bunların hər birinin nə qədər möhtəşəm bir tarix olduğunu anlayıb dərk edirsən.**

**Bəli, cənab İlham Əliyev təkcə dövlət idarə etmir...**

**Tarix yaradır...**

**Azərbayanın ən qüdrətli dövrünün tarixini...**

**Bu yazının doğma qəzetimdə - rəsmi dövlət nəşri "Azərbaycan"da nə vaxt işıq üzü görəcəyini və dəyərli oxucularımın yazdıqlarımı nə zaman oxuyacaqlarını hələ bilmirəm...**

**Amma istərdim onlar elə başlanğıcdan duysunlar ki, bu sətirlər xalqımız üçün çox sevindirici bir yeniliyin xoş ovqatı içində yazılır...**

**Yazını qələmə aldığım dəqiqələrdə Azərbaycanın on milyonuncu vətəndaşı dünyaya gəlib. Gəlişi ilə bütün dünya azərbaycanlılarına bir aləm sevinc bəxş edən qız balamızın valideynləri keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün ailəsidir.**

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva bu münasibətlə xalqımızı təbrik ediblər. Bu sətirlərin yazıldığı anlarda millət vəkili seçildiyim Xətai rayonunda və Bakının digər ərazilərində möhtəşəm atəşfəşanlıq və gözəl bir konsert proqramının sədaları eşidilir. ***Öz nəcib əməlləri ilə bütün Azərbaycan ailələrinin, hər bir vətəndaşımızın sonsuz sevgisini qazanmış Mehriban xanım Əliyevanın şərəfinə körpəyə Mehriban adı verilib.***

***Adı ilə böyüsün!..***

Ana Kitabımız - "Kitabi-Dədə Qorqud"da deyildiyi kimi, adını biz verdik, yaşını tale versin, daşıdığı ada, elinə-obasına layiq bir vətəndaş kimi böyüsün, gələcək nailiyyətləri ilə hər zaman ailəsinə, xalqına, dövlətimizə bol-bol sevinclər yaşatsın...

Arzu edirik ki, elimizə də bundan sonra ancaq belə gözəl yeniliklər, xoş xəbərlər, sevinc ovqatı nəsib olsun, inşallah...

❖ ❖ ❖

Bu, insan nəslinin təbii xarakteridir...

Körpələr doğulur, ailələr uşaq səsindən bəxtiyar olur və yeni doğulan körpələr hesabına böyüyüb daha da möhtəşəm olur. Həyat, onun dəyərləri, mədəni nailiyyətləri, xalqların tarixi, əsrlərlə formalaşdırdığı milli irs o körpələrin ömründə sonsuzluğa qədər davam edir.

***Əgər dünyaya körpələr gəlirsə, deməli, o xalq yaşayır və yaşayacaqdır.***

***On milyonuncu vətəndaşımızın dünyaya gəlməsi faktına bir də dövlətçilik mövqeyindən baxıram və bu yazını əslində o balaca qızcığazın gələcəyinə bir məktub kimi ünvanlamaq istəyirəm...***

On milyona çatmaq bir xalq üçün, həqiqətən, çox əlamətdar məqamdır. Bu o deməkdir ki, burada həyat, təbii təkamül prosesi öz ahəngində davam edir. Sayımız artır. Çevrəmiz genişlənir. Gələcəyə ümidlərimiz böyüyür. Azərbaycan getdikcə insanların yaşaması üçün gözəl bir yerə çevrilir. Ata-analar bu rahat, qan-qadadan mümkün qədər uzaq, gündən-günə inkişaf edən vətəndə öz övladlarının xoşbəxt gələcəyini görə bilirlər.

Ailə qurub, ev-eşik sahibi olmağın, övlad dünyaya gətirməyin, onları böyüdüb boya-başa çatdırmağın şirinliyindən özlərini məhrum etmirlər. Bunun xoş duyğuları qədər də ağır məsuliyyəti onları çəkindirmir. Hələ öz çəhrayı dünyalarında mışıl-mışıl uyuyub, dünyanın min bir sınağından bixəbər olan körpələrin sabahından bədgüman deyillər. ***Çünki o ata-anaların da, o körpələrin də bugününə və gələcəyinə sahib çıxan güclü dövlətimiz var. Bu dövlətin körpə vətəndaşlarının güllə səsindən zəhri yarılmır, bu dövlətin körpə vətəndaşları ölümün, müharibənin, terrorun əlindən baş götürüb başqa məmləkətlərə qaçarkən valideynləri ilə birgə dəryalarda qərq olmurlar.***

***Bu dövlətin körpə balaları öz ailələri, ölkələri, xalqları üçün gözəl bir arzudur, Tanrının öz sevgisindən yaratdığı şirin paydır, daha yaxın-uzaq ölkələrdəki kimi saysız-hesabsız sosial problemlər, aclıq, səfalət, uşaq əməyinin istismarı, məktəbsizlik, taleyin ümidində sərgərdanlıq demək deyil.***

Ona görə Azərbaycanda valideynlər də, cəmiyyət də bu körpələrin gələcəyindən əmindirlər. İnsanlarımız hər addımda dövlətin qayğısını, diqqətini, qüdrətini, vətəndaşların rifahı üçün atdığı addımları duyub hiss edirlər.

Azərbaycan Respublikasının on milyonuncu vətəndaşının dünyaya gəlişi həm də onunla əlamətdardır ki, bu körpə ölkəmizin ən qüdrətli çağlarının yaşıdıdır. Azərbaycan milli dövlətçilik tarixi boyu heç zaman indiki qədər güclü olmayıb. Buna hər birimiz şahidik. On milyonuncu körpə də dünyaya bu gücün, qüdrətin, qürur hissinin canlı bir rəmzi kimi gəlib.

Və o uşaq böyüdükcə onunla birgə Azərbaycan da böyüyəcək...

İndikindən daha güclü, daha qüdrətli mövqeyə yüksələcək...

Və gələcək nəsillərimiz bu gücü, qüdrəti, bütün dünyada yüksək nüfuza malik belə bir ölkənin vətəndaşı olmağın üstünlüklərini öz həyat və talelərində daha dərindən duyub hiss edəcəklər...

❖ ❖ ❖

On milyonuncu vətəndaşımızın dünyaya gəlişi həyatımızdakı gözəl bir başlanğıcın müjdəsidir həm də...

Azərbaycanda uzun illərdir müsbət dəyişikliklər gedir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ötən əsrin 90-cı illərinin ortalarından həyata keçirdiyi milli dövlət quruculuğu xətti davamlı islahatlarla müşayiət olunub. Prezident İlham Əliyev bu islahatları daha böyük əzmlə davam etdirir. Ölkəmizin, cəmiyyətimizin, insanlarımızın həyatında böyük dəyişikliklər yaradır. Öz nəcib əməlləri ilə cəmiyyətə milli birlik, dövlətçilik dəyərləri ətrafında doğmalıq, qaragüruh düşüncədən, radikalizmdən, mənasız çəkişmələrdən, ixtilaflardan uzaq durmaq, hamılıqla ölkəmiz üçün, ölkəmizin insanları üçün çalışmaq, insanlara, cəmiyyətə faydalı olmaq mesajları verir.

❖ ❖ ❖

Müstəqillik illərində Azərbaycanda çox şey dəyişib. İnsanlarımızın əyin-başından tutmuş həyat tərzinə, maraqlarına, yaşayış səviyyəsinə qədər çox şeylərin dəyişdiyini və bu dəyişikliklərin yaxşıya doğru olduğunu görürük.

Ölkəmizdə idarəçilik sistemi də xeyli dəyişib, təkmilləşib, dövlət-vətəndaş münasibətləri daha da yaxşılaşıb, dövlət institutları vətəndaşlar üçün onun xidmətində dayanan, dar məqamda köməyinə tələsən, problemlərini anında aradan qaldıran bir dəyərə çevrilib.

İlham Əliyevin 2018-ci ilin 11 aprelində xalqın yekdil dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsindən ötən bir ildə isə həyatımızın ən müxtəlif sahələrində islahatların daha da geniş vüsət aldığını görürük.

Prezidentin siyasi iradəsi ilə həyata keçirilən bu islahatlar nəticəsində cəmiyyət böyük dəyişikliklər ovqatındadır. İnsanlarımızın narahatlığına səbəb olan bir çox problemlər aramla həllini tapır. İndiyə qədər inkişafa müxtəlif səviyyələrdə əngəllər törətmiş maneələr ortadan götürülür. Cəmiyyət bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövrü başa çatdıqdan sonra bu çətin və mürəkkəb prosesin həyatımızda ilişib qalmış son təzahürlərini də geridə buraxır.

İndi kimi dindirsən, təsdiqləyər ki, Azərbaycan sürətlə yenilənir. Cəmiyyətdə çox mühüm proseslər gedir. Bu proseslərin özəlliyi ondadır ki, onlar bir-birini tamamlayır, hamısı bir arada baş verir və vahid ideyaya, amala xidmət edir.

Ölkə tamamilə yeni bir dövrə qədəm qoyur. Bu dövrün adı inkişafdır...

Sosial rifahdır, milli barış və vəhdətdir...

Hər bir vətəndaşa həssas münasibətdir, hər bir insana bərabər imkanlar mühitinin yaradılmasıdır...

Vətəndaşların həllini arzu etdikləri problemlərin aradan qaldırılmasıdır, dövlətin insanlara ən dogma adamları qədər əlçatan olmasıdır...

❖ ❖ ❖

Bu dövr vətəndaşların rifah halının yüksəlməsinə yönələn ardıcıl tədbirlər silsiləsidir. Mətbuatı gözdən keçirsək, rəsmi xronikaya ani nəzər salsaq, bu silsilənin nə qədər vətəndaşımızın həyatında müsbət dəyişikliklər yaratdığını, həyatına təsir etdiyini görə bilərik.

Dövlət rəhbərimizin imzaladığı sənədlə minlərlə şəhid ailəsinə müvafiq məbləğdə sığorta haqqının verilməsi təmin olundu. Hətta müəyyən qrup ailələr vardı ki, onlar illər əvvəl indiki ilə müqayisədə az məbləğdə sığorta pulunu almışdılar və indi bu, əsas gətirilərək həmin ailələrə də ödənişin verilib-verilməməsi hüquqi baxımdan müəyyən mübahisə doğururdu. Amma cənab Prezident şəhid adı kimi yüksək bir dəyərin belə mübahisələrdə hallanmaması üçün onlara da ödənişin verilməsini təmin etdi. İnsanlar bütün mübahisəli məqamlarda dövlətin məhz vətəndaşın yanında durduğunu, onun rifahından yana olduğunu növbəti dəfə gördülər.

Bu, manatın məzənnə itkisindən əvvəl banklardan xarici valyutada kredit götürən və iki devalvasiyadan sonra borc məbləği xeyli artdığına görə ödənişlərdə çətinlik çəkən vətəndaşlarımıza problemli kredit borcuna görə kompensasiyanın ödənilməsi addımında da özünü göstərdi.

***İlham Əliyevin istəyi, arzusu, ortaya qoyduğu siyasi iradə və ən əsası yüksək menecerlik qabiliyyəti hesabına elə bir variant tapıldı ki, problemin həlli üçün dövlət də, vətəndaşlar da, banklar da öz imkanlarını birləşdirdilər.***

Beləliklə, ağır kredit yükü vətəndaşların çiynindən götürüldü. Bu, indiyə qədər vətəndaşın mənafeyini nəzərə alaraq dünyanın heç bir ölkəsində tətbiq edilməmiş misilsiz addımdır.

***Və bu addım yüz minlərlə vətəndaşımızın ağrı-acılarına, sıxıntılarına son qoydu...***

Əgər sırf iqtisadiyyatın, bazar münasibətlərinin sərt qanunları prizmasından yanaşsaq, bu məsələni banklar müştərilərlə öz aralarında həll etməli idilər. Amma nə borcun müəyyən hissəsini güzəştə getməyə bankların, nə də artmış borcu ödəməyə vətəndaşların gücü çatırdı. Bu məqamda dövlətin kömək əli dada yetişdi. Vətəndaşların borc yükü yüngülləşdiyi kimi, bankların da maliyyə dayanıqlığı gücləndi, onların ölkə iqtisadiyyatının müxtəlif sahələrində iştirak imkanları genişləndi.

Ən əsası isə, dövlətimiz müştəri-bank münasibətlərində ən vacib olanı, demək olar ki, həyati əhəmiyyətli amili - gələcəyə ümidi təmin etdi. İnsanlar gördülər ki, birilərinin bədbin öncəgörmələrinə rəğmən, Azərbaycanı bundan sonra ancaq inkişaf tendensiyaları, davamlı yüksəliş gözləyir. Çünki Azərbaycanda inkişaf prosesləri diqqətlə, peşəkar şəkildə, bütün imkanlar və risklər nəzərə alınmaqla idarə olunur, tənzimlənir, yönəldilir.

Özü də dövlətin müəyyən büdcə xərclərini nəzərə alaraq belə məqamlarda göstərdiyi maliyyə köməyi dolayısı ilə yenə vətəndaşın rifahına yönəlir. Problemli kreditlərin həlli üçün banklara ödənilən vəsaitlər bir tərəfdən vətəndaşın yükünün yüngülləşdirilməsidirsə, başqa tərəfdən də banklar tərəfindən ayrı-ayrı iqtisadi layihələrin maliyyələşməsi, yeni müəssisələrin, iş yerlərinin açılması, insanlarımızın bu müəssisələrdə çalışıb öz güzəranını yaxşılaşdırması, ölkəmizdə həyat səviyyəsinin daha da yüksəlməsi deməkdir.

Bunun əksi ömrü banklarla məhkəmə çəkişmələrində keçən və bir daha kredit almayacağını özünə söz verən vətəndaşlarımızın narahatlıqları, müflis duruma gələn, yaxud kapital mövqeyi xeyli zəifləyən banklar, kreditləşmə olmadığından müştəriləri qəhətə çəkilən mağazalar, bu mağazaların məhsula tələbatı qalmadığından iflasa uğrayan sahibkarlar, beləliklə, dolanışıq səviyyəsi aşağı düşən minlərlə ailə demək olardı.

İndi fikir verək ki, dövlətimizin, dövlət rəhbərimizin problemin həllinə peşəkar müdaxiləsinin, verdiyi qərarın faydasından nə qədər vətəndaşımız bəhrələnir.

❖ ❖ ❖

Son aylar bütün gözəl yeniliklərlə yanaşı, ölkəmizdə bəzi xoşagəlməz hadisələr də yaşandı. Şamaxıda zəlzələ baş verdi, xeyli vətəndaşımızın evi, başqa daşınmaz əmlakı ziyan çəkdi. Bundan bir müddət sonra isə Bakıdakı böyük ticarət mərkəzlərindən biri yandı və "Diqlas" adı ilə tanınmış bu mərkəzdə çalışan sahibkarlara müəyyən zərər dəydi.

Zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı məsələ aydındır. Əksər ölkələrdə dövlət belə məqamlarda vətəndaşa köməyini əsirgəmir. Amma ***ziyanın müəyyən bir hissəsini də sığorta şirkətləri qarşılayır. Şamaxıda baş vermiş zəlzələ zamanı isə Azərbaycan Prezidenti şəxsən özü bir neçə dəfə o evlərə, zəlzələdən zərər görmüş insanlara baş çəkməklə təkcə dövlətin maddi köməyini çatdırmadı, həm də o vətəndaşlara mənəvi dayaq oldu. Cəmiyyət üçün bir nümunə yaratdı.*** İnsanlarımız gördülər ki, başlarına gələn qəzavü-qədər qarşısında əsla tək və çarəsiz deyillər. Dövlətin, dövlət rəhbərinin onlara doğru uzanmış güclü əlləri bütün çıxılmazlıqları yoluna qoymaq iqtidarındadır.

"Diqlas"da baş verən yanğın isə sırf sığorta hadisəsi idi. Burada çalışan sahibkarlar uzun illər ərzində ticarətlə məşğul olaraq normal pul qazanıblar. İqtisadi məntiq, sivil təcrübə diktə edirdi ki, onlar vacib addım kimi öz mağazalarını sığortalasınlar. Çünki mühafizə tədbirləri nə qədər güclü olur-olsun, dünyadakı saysız-hesabsız ticarət mərkəzlərinin hər birində belə yanğın hadisələri, digər texnogen qəzalar baş verə və sahibkarları böyük ziyanla üzləşdirə bilər. Amma hadisədən sonra məlum oldu ki, "Diqlas"dakı sahibkarlar mağazalarını sığortalamayıblar. Bu vacib məsələyə, demək olar ki, məhəl qoymayıblar. Və yanğın hadisəsindən sonra çıxılmaz bir durum yaranıb. Bu durumda həmin zərərçəkən sahibkarlara nəsə ödəmək, maddi kömək göstərmək qətiyyən dövlətin borcu deyildi. Qaydaya görə, onlar mallarını, mağazalarını əvvəlcədən sığortalamalı və yanğın hadisəsində dəymiş ziyana görə kompensasiyanı da sığorta şirkətləri ödəməli idi. Təsadüfi deyil ki, sosial şəbəkələrdəki müzakirələrdə, müxtəlif müsahibələrdə bir çox tanınmış şəxslər, ekspertlər də dövlətin onlara kompensasiya verməsinə qarşı çıxırdılar.

***Amma dövlətimiz bu köməyi də etdi. Prezident bu insanları naçar durumda buraxmağı rəva görmədi. Həmişə olduğu kimi, yenə comərd davrandı. Yanğının vurduğu ziyana görə kompensasiyanın verilməsi qərara alındı. Və bütün polemikalara, fərqli fikirlərə rəğmən dövlət rəhbərimizin bu mərdanə addımı böyük rəğbət yaratdı.***

Birincisi ona görə ki, bu yanğında ziyan çəkən şəxslərin də hər biri Azərbaycan vətəndaşıdır. Onlar uzun illər ailələrinin zindəganlığını bu mağazalardakı alış-verişdən çıxarıblar. Əllərində olan pulu-paranı müxtəlif məhsul çeşidlərinə xərcləyiblər ki, satıb qazansınlar, indi o malların böyük qismi yanıb, kül olub. Özü də bu insanların çoxu hər bir cəmiyyətdə sosial-iqtisadi inkişafın əsas sütunu kimi çıxış edən, orta təbəqəni formalaşdıran kiçik və orta sahibkarlardır.

İndi həmin insanları heç bir köməksiz, dəstəksiz taleyin ümidinə buraxmaq, çarəsizlikləri ilə baş-başa qoyub getmək bu qədər insanın, onların ailə üzvlərinin sosial vəziyyətinin ağırlaşması demək olardı. Ona görə dövlətimiz bu insanlara əl uzatdı ki, yıxılmasınlar, ayaqda qalıb yenidən öz işlərini qura bilsinlər.

Prezidentimiz onu da nəzərə aldı ki, kiçik və orta sahibkarlıq Azərbaycanda hələ yenicə inkişaf edir. Ona görə də hələlik bu sahibkarlardan öz vəzifələrini tam yerinə yetirmələrini, biznesin bütün məsuliyyət normalarını, o cümlədən sığorta məsuliyyətini də nəzərə almalarını gözləmək mümkün deyil.

Həqiqətən, sığorta ənənələri bizdə hələ tam formalaşmayıb. İnsanlarımızın bir çoxu sığortanın mahiyyətini düzgün dəyərləndirə bilmir. Evinin, avtomobilinin, mağazasının, başqa əmlakının sığortasına verdiyi məbləği boşuna xərclənmiş pul sayır. İnsanlarımızın çoxu, necə deyərlər, əllisini əlli yerdə xərcləyir, bahalı avtomobillərə, evlərin şahanə təmirinə, təmtəraqlı məclislərə, dəbli geyimlərə, namxuda, pul tapırlar, amma əmlakın, həyatın sığortasından ötrü çox xırda bir məbləğdən keçməyə təhəmmül etmirlər.

❖ ❖ ❖

***Prezidentimiz bu addımı ilə cəmiyyətimiz üçün bir ibrət nümunəsi də yaratdı ki, sivil cəmiyyət olaraq artıq bu kimi məsələlərə də diqqət yönəltmək lazımdır.*** Dövlət, bəli, vətəndaşa bacardığı köməyi, hətta onun gözlədiyindən də çoxunu edir. Amma vətəndaş, sahibkar da öz növbəsində dövlətə kömək etməlidir. Vergisini, kommunal ödənişlərini vaxtlı-vaxtında ödəməlidir. Sığorta məsələlərini vacib saymalıdır ki, hər hansı xoşagəlməz hallar baş verərkən dövlət büdcəsinə çox ziyan dəyməsin. Eyni zamanda, möhtəkirlikdən qaçmalıdır, beş manatlıq malı beşqat bahasına satmamalıdır. Birdən-birə milyoner olmağa can atmayıb az qazanca qane olmağı, nəhayət, öyrənməlidir. Həlledici məqamlarda kəmfürsətlik edib malları sonra od qiymətinə satmaqdan ötrü gizlətməməli, yaxud bahalaşdırmamalıdır. Çünki bu kəmfürsətliyin ziyanları son nəticədə vətəndaşa dəyir. O məhsulları od qiymətinə almaq məcburiyyətində qalanlar da bu dövlətin vətəndaşlarıdır. Dövlət bu vətəndaşların da rifahı qayğısına qalır.

Sahibkarlar eyni zamanda gücləri çatan müəyyən işlərin də qulpundan yapışıb xırda-para korporativ sosial məsuliyyət layihələri ilə müxtəlif problemlərin həllində dövlətə kömək göstərməlidirlər. Sahibkarlıq təkcə elə pul qazanmaq deyil. Əldə edilən puldan ictimai işlərə müəyyən bir vəsait ayırıb cəmiyyət üçün mənəvi dəyərlər yaratmaq barədə də düşünmək lazımdır.

❖ ❖ ❖

Əlbəttə, bu sətirləri qələmə almaqla kimisə qınamaq niyyətində deyiləm. Məramım sırf maarifləndirmədir. Bilirəm ki, maarifçiliyin gücü ilə bu sahədə çox şeyləri dəyişmək olar. Məsələn, mənim üçün çox maraqlı idi ki, yanğın hadisəsindən sonra, şükür ki, dövlətimizin imkanları hesabına kompensasiya alıb çətin vəziyyətdən çıxan o sahibkarların, görəsən, heç olmasa biri qazancının bolhabol vaxtlarında elə o "Diqlas"ın həndəvərində bircə ağac əkmək qayğısına qalmışdımı?!

Yaxud imkansız ailədən olan bir şagirdin məktəb xərclərini, tanımadığı istedadlı bir tələbənin təhsil haqqını ödəmişdimi?! Hansısa istedadlı gənc yazarımızın kitabının çapına, tanıtımına yardım etmişdimi?!

Və ya bu gün çətin vəziyyətlə üzləşəndə onun problemlərini yazıb, göstərib ictimailəşdirən və çətinliklərin aradan qaldırılmasına dəstək olan kütləvi informasiya vasitələrimizin ayaqda qalmasından ötrü, heç gündə də demirəm, həftədə qırx-əlli qəpik xərcləyib bircə qəzetə abunə olmağı özünə borc bilmişdimi?! Hansısa media orqanında mağazasının kiçicik bir reklamını yerləşdirməyin ictimai əhəmiyyətini dərk etmişdimi?!

Bunlar edilibsə, nə gözəl, amma olmayıbsa, heç olmasa bundan sonra edilməsi lazımdır. Çünki bunların hər biri sosial borcdur, sivil cəmiyyətləri ayaqda saxlayan adi biznes mədəniyyətidir. Artıq bizdə də yavaş-yavaş bu mədəniyyət formalaşmalıdır.

Elə zərərdidə sahibkarlara kompensasiyanın verilməsi məsələsinin müzakirə edildiyi günlərdə məlum oldu ki, başqa bir sahibkar şəhid ailəsini məhkəməyə çəkib, canını bu torpaq uğrunda fəda etmiş zabitimizin ailəsinə aid evi müxtəlif hüquqi dəlillər gətirərək onların əlindən almaq niyyətindədir. Məhkəmə də müəyyən hüquqi dəlilləri əsas gətirərək sahibkarın xeyrinə qərar çıxarıb.

Mətbuat məsələni gündəmə gətirəndən sonra qarşılıqlı ittihamlar başladı. Və bu məsələdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva yenə cəmiyyət üçün bir örnək yaratdı. O, şəhidimizin ailəsinə daha yaxşı bir yerdə dövlət adından üçotaqlı mənzil bağışlamaqla göstərdi ki, şəhid kimi müqəddəs bir adı belə çəkişmələr səviyyəsinə endirmək olmaz.

Belə məqamlarda hansı tərəfin hüquqi cəhətdən haqlı olması əsas deyil. Burada bütün çəkişmələrin, iddiaların, hüquqi sənədlərin fövqündə duran bir əbədiyyət ucalığı var.

Bu, şəhid adıdır!

Bu adın qarşısında hər kəs öz iddialarından bacardığı qədər geri çəkilməlidir. Sahibkar qazancının kiçik bir hissəsindən bu ada görə vaz keçəcək qədər yüksək könüllü olmalıdır. Şəhid ailəsinin üzvü də bu adın məsuliyyətini hər zaman anlamalıdır. Nə özünə, nə başqalarına imkan verməlidir ki, kimlərsə bu müqəddəs addan vasitə kimi istifadə etmək niyyətinə düşsün.

Bunları ona görə yazıram ki, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr bütün sosial-iqtisadi nailiyyətləri ilə bərabər, həm də cəmiyyət həyatında sivil dəyərlərin formalaşdığı, normaların öz yerini tutduğu, cəmiyyət təfəkkürünün, milli dövlətçilik, vətəndaşlıq məsuliyyətinin formalaşdığı dövrdür. Bu dövr həm də belə cəhətləri ilə əlamətdardır, qiymətlidir.

Sosial şəbəkələrdə, mediada gedən müzakirələrə diqqət yetirək. Azərbaycan insanı, şükür ki, bu gün daha onillər əvvəl olduğu kimi bir tikə çörəyinin dərdində deyil, özbaşınalığı, aşkar qanunsuzluqları, başıpozuqluqları, firqə dartışmalarını müzakirə etmir. Bu gün Azərbaycan cəmiyyətinin gündəmə gətirdiyi, fəal şəkildə müzakirə etdiyi və dövlətimizin dəstəyi ilə çox vaxt elliklə həllinə nail olduğu problemlər dolanışıq problemini çoxdan geridə qoymuş hər bir sivil cəmiyyət üçün aktual olan mövzulardır. Cəmiyyətimizi bu gün yaxşı mənada tanımaq olmur daha, Azərbaycan insanı sosiallaşıb, mütərəqqi dəyərlərə, təcrübələrə açılıb, inkişafda xeyli irəli gedib.

Bütün bunlar məhz İlham Əliyevin həyatımıza gətirdiyi uğurlardır...

Vətəndaş olaraq öz davranışlarımızla, məsələlərə doğru-dürüst münasibətimizlə bu dövrə, bu inkişaf proseslərinə nə qədər töhfə versək, yenə də Azərbaycanın karıdır, bugünkü və gələcək nəsillərimizin faydasıdır.

❖ ❖ ❖

***Azərbaycanda pensiyalar, əməkhaqları son onilliklərdə davamlı olaraq artır. Yenə artıb və bu istiqamətdə qərarlar, icra tədbirləri davam etdirilir. Bu addımlar milyonlarla vətəndaşımızın aylıq qazancının artımı, cibinin bərəkətlənməsi deməkdir.***

İndi dövlət hər bir vətəndaşımızın icbari tibbi sığortasına da hazırlaşır. Regionlarda belə bir məqsədlə həyata keçirilən pilot layihələr özünü doğruldub. Tezliklə bu gözəl təşəbbüs bütün ölkə insanlarını əhatə edəcək. Müayinə və müalicə xərclərində vətəndaşlarımızın yükü xeyli yüngülləşəcək. Vətəndaşlarımız özlərinin, doğmalarının sağlıq durumundakı problemlərin həlli üçün daha maddi baxımdan ciddi əziyyət çəkməyəcəklər.

Təhsilimizdəki problemlərin də aramla ortadan qalxdığı hiss olunur, ölkədə yeni müəllim nəsli yetişir və işə tam şəffaf imtahanla, dövlətin inam və güvəni ilə qəbul olunan gənc müəllimlərimiz təhsil sektoruna yeni nəfəs, yeni dəyərlər gətirirlər. Ən mühümü, bu sahəyə ictimai nəzarət getdikcə güclənir. Azərbaycanda təhsil, bilik, fərdi inkişaf məsələləri insanlarımız üçün indiyə qədər heç vaxt olmadığı səviyyədə ciddi bir meyara çevrilir. İnsan kapitalının formalaşmasını illər əvvəl ilk dəfə Prezident İlham Əliyev dövlətimizin əsas prioritetlərindən biri kimi gündəmə gətirmişdi. İndi bu, hər bir Azərbaycan ailəsinin, bu ailələrdən çıxan hər bir gəncimizin məqsədi və bu məqsədə doğru ardıcıl fəaliyyətidir. Çünki müasir dünyada bilik, innovasiyalara dərindən bələdlik, müasir texnologiyalardan baş çıxarmaq olmazsa-olmaz məsələsidir.

Ona görə dövlətimiz də insanlara şərait yaradır, insan kapitalının formalaşması üçün mümkün dəstəyi verir.

Düşünürəm ki, pensiya, maaş artımından, həyata keçirilən irimiqyaslı sosial layihələrdən, təhsil, səhiyyə proqramlarından, biznesə yaradılmış şəraitdən görün nə qədər insan bəhrələnir. Dövlətimizin gücündən, artan imkanlarından faydalanan vətəndaşlar olaraq sayımız indi on milyondur. Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev, bu böyük dövlət adamının strateji inkişaf kursunu əzmlə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu 10 milyon vətəndaş üçün güclü, qüdrətli, getdikcə inkişaf edən, öz vətəndaşının hüquq və azadlıqlarının müdafiəsində dayanan, ona sahib çıxan hüquqi dövlət qurub.

Amma təkcə on milyon üçünmü?!.

Müstəqil Azərbaycan dövləti bu gün dünyanın müxtəlif səmtlərində yaşayan 60 milyona yaxın soydaşımızın istinad nöqtəsidir, mənəvi qibləgahıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev on milyonluq vətəndaşımızla birgə bu qədər insanın da mənəvi rəhbəridir, lideridir. Onun Azərbaycana qazandırdığı nailiyyətlər bütün dünya azərbaycanlılarının uğurudur. Çünki onların hər birinin bu güclü, qüdrətli vətənin gözləri üstündə yeri var.

Bu vətən on milyonluq vətəndaşımız qədər onların da yanındadır, xidmətindədir...

❖ ❖ ❖

Bunu nə vaxtsa yazmışam, evdə nəvələrimə də tez-tez deyirəm...

Düşünürəm ki, biz cənab Prezidentin gördüyü işləri, atdığı addımları, rəsmi səfərlərini, apardığı danışıqları, verdiyi qərarları sadəcə sosial-iqtisadi proqramlar, rəsmi fəaliyyət xronikası kimi nəzərdən keçirməklə bütün bunların miqyasını kiçiltmiş oluruq.

Zamanın içində yaşayanda, bəli, mahiyyətini dərindən hiss edə bilmirsən, baş verənləri həqiqətən cari fəaliyyət gözündə görürsən. Amma zamana bir qədər kənardan, keçmişin, bugünün və gələcəyin ənginliklərindən baxanda bunların hər birinin nə qədər möhtəşəm bir tarix olduğunu anlayıb dərk edirsən.

Bəli, cənab İlham Əliyev təkcə dövlət idarə etmir...

Tarix yaradır...

Azərbayanın ən qüdrətli dövrünün tarixini...

*Bu tarixin bir zərrəsi olmaq nə gözəl!..*

*Bu dövrə şahidlik etmək, nə böyük xoşbəxtlik!..*

*Uğur yolu, şərəf yolu... Bu yol bizim yolumuzdur! Bu yol İlham Əliyev yoludur. Xalq yorulmadan öz lider oğluyla qoşa addımlayır bu yolda...*

*Yolunuz yolumuzdur,*
*cənab Prezident!..*

**Hüseynbala MİRƏLƏMOV,**
***Milli Məclisin deputatı***

# Bir ilin uğur hesabatı



**Bu gün Azərbaycanda sonuncu prezident seçkilərinin bir ili tamam olur. 2018-ci il aprelin 11-nə təyin olunan səsvermədə Azərbaycan seçiciləri növbəti dəfə ən düzgün və müdrik seçimi etdilər. Ötən bir ilin siyasi, iqtisadi və sosial mənzərəsi göstərir ki, xalq İlham Əliyevin ətrafında birləşməklə inkişafa və yüksəlişə və güclü Azərbaycan dövlətçiliyinə səs verib. Milli Məclisin deputatlarının qəzetimizə açıqlamaları da bu barədədir.**

## Hər bir azərbaycanlının Prezidenti

**Siyavuş NOVRUZOV,**
*Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri:*

- Dünya şöhrətli ictimai-siyasi xadim, ümummilli lider Heydər Əliyevin milli maraqları nəzərə almaqla yürütdüyü siyasəti XXI əsrin başlanğıcında bütün sahələrdə layiqincə davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin etmişdir.

Azərbaycanı Avratlantik geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən cənab İlham Əliyevin 2003-cü ildən yürütdüyü siyasət dövlət başçısının xalqın, dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir. Dövlət başçısı ulu öndərin böyük müdrikliklə irəli sürdüyü inkişaf strategiyasını ötən illərdə inamla davam etdirməklə yanaşı, yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır.

Ötən illərdə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması dövlət başçısı cənab İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir.

Dövlət başçısının ötən illərdə praqmatizmə və əməli siyasətə söykənən iqtisadi siyasətinin əsas qayəsində məhz insan amili dayanmış, cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədlərə sadiq qalmaqla hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu təsdiqləmişdir. "Hər bir məmur xalqının xidmətçisi olmalıdır" deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən dövlət başçısı hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir.

Respublikamızda son illər ərzində həyata keçirilən iqtisadi siyasətin sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Dəniz səviyyəsindən 3000 metrədək hündürlükdə yerləşən Qubanın Xınalıq kəndinə yolun, sovetlər dövründən mavi yanacaq üzü görməyən Lerik və Yardımlıya qaz kəmərlərinin çəkilməsi, eləcə də Naxçıvanın davamlı olaraq elektrik enerjisi və qazla təmin olunması, Bakıya Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilməsi, rayonlarda yeni təhsil, səhiyyə, mədəniyyət, olimpiya idman komplekslərinin tikintisi, qaçqın düşərgələrinin tamamilə ləğvi, sırf Azərbaycan brendi olan "ASAN" xidmət şəbəkəsinin genişləndirilməsi - bütün bunlar Azərbaycan vətəndaşlarının firavan, rahat yaşamasına xidmət edən qlobal investisiya layihələrinin çox cüzi qismidir.

Hələ 2019-cu ilin əvvəllərində cənab Prezident ölkədə təxminən 2 milyon 200 min vətəndaşımızı əhatə edəcək iriмiqyaslı sosial müdafiə paketinin tətbiq ediləcəyi barədə açıqlama vermişdi. Təkcə son iki ay ərzində imzalanan sərəncam və fərmanlarda nəzərdə tutulan islahatlar sadəcə "hər bir azərbaycanlının prezidenti olmaq" fəlsəfəsinin praktikada uğurla reallaşmasının bariz nümunəsi deyil, həm də bəzi dövlət və dövlət rəhbərlərinin illərlə həll edə bilmədiyi sosial məsələlərin operativ və effektiv həlli nümunəsidir.

Belə ki, Prezidentin 2019-cu il 8 fevral tarixli sərəncamı ilə minimum əməkhaqqı 38,5 faiz artırılaraq 180 manat müəyyən edildi. Bu sərəncam 600 mindən artıq vətəndaşın sosial rifah vəziyyətinə müsbət təsir göstərməklə demək olar ki, inqilabi mahiyyət daşıyır. Onun ardınca isə dövlət başçısı müxtəlif sferalarda çalışan qulluqçuların əməkhaqlarının artırılması ilə bağlı geniş əhatəli sərəncamlar imzaladı. Nəzərə almaq lazımdır ki, bu siyasət son 15 ildə ümumilikdə əməkhaqları 7, minimum əməkhaqqı isə 6,5 dəfə artırılmaqla ardıcıl xarakter daşıyır.

Məlumdur ki, 2015-ci ildə baş vermiş devalvasiyadan sonra vətəndaşların, xüsusən də aztəminatlı ailələrin banklara xarici valyuta ilə olan borcları onların maddi vəziyyətində müxtəlif çətinliklər yaratmışdı. Cənab Prezident bu dəfə də xalqın səsinə səs verərək 2019-cu ilin 28 fevral tarixində fiziki şəxslərin xarici valyutada olan problemli kreditlərinin həlli ilə bağlı fərman imzaladı. Bununla da 100 minlərlə vətəndaşımızın çiyinlərindəki ağır maddi yük qaldırılmış oldu.

İstər bazar iqtisadiyyatına, istərsə də planlı iqtisadi münasibətlərə sahib olmasından asılı olmayaraq fors-major hadisələr zamanı vətəndaşa dəyən zərər dövlət və ya özəl sığorta fondları tərəfindən ödənilir. Lakin vətənə və vətəndaşa olan sevgini, qayğını dövlət siyasətinə çevirmiş möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti belə durumlarda sığorta qurumu kimi çıxış edir və vətəndaşların hərtərəfli hamisi rolunu oynayır. Ən son 2019-cu ilin 26 martında "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın zamanı dövlət başçımız bir daha öz yüksək humanizmini və prinsipial mövqeyini ortaya qoydu. Belə ki, imzaladığı sərəncamla ticarət mərkəzindəki sahibkarlara dəyən bütün zərərin dövlət tərəfindən ödənilməsini təmin etdi.

Hüquqi dövlətin ən mühüm xüsusiyyətlərindən biri vətəndaşa, xüsusən də, cinayət törətmiş şəxslərə münasibətdə maksimalist davranmamaq, onların cəmiyyətə yenidən qazandırılması və ədalətə olan inamının itməməsi üçün zəruri, demokratik və vətəndaş cəmiyyəti prinsiplərinə söykənən hüquqi-normativ bazanın yaradılması və effektiv tətbiqidir. Əfv institutu da bu baxımdan hüquqi dövlətdə vacib faktor kimi çıxış edir. Prezident İlham Əliyev də əfv hüququndan istifadə edərək mütəmadi olaraq məhkumları tam və ya cəzalarının geri qalan hissəsindən azad edərək yüksək humanizm nümunəsi göstərir. Təkcə sonuncu 2019-cu ilin 16 mart tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam 431 nəfərə şamil edilmişdir. Bu humanist addım birmənalı şəkildə ictimai sülhə, vətəndaş həmrəyliyinə xidmət edərək cəmiyyətimiz tərəfindən hər zamankı kimi öz yüksək qiymətini almışdır.

Sonda xüsusi vurğulamaq istərdik ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci ilin 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin hazırlamış, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirmişdir. Son seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsiylə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində irəli çəkilməsi islahatların səmərəliliyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlir.

İnkişafa xidmət edən islahatların reallaşdırılmasında Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, ölkəsinin taleyini cənab İlham Əliyevə etibar etmiş vətəndaşlarımızdan gəlir. Bu gün Azərbaycan xalqı cənab İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın, sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabahlara doğru aparan siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı dəstəkləyir.

## Xalq-iqtidar birliyi Azərbaycanda inkişafın əsas amilidir



**Tahir SÜLEYMANOV,**
*Milli Məclisin deputatı:*

- Hər bir sahədə inkişaf dövrü kimi yadda qalan 2018-ci ilin ən böyük hadisələrindən biri ötən ilin aprelində keçirilən prezident seçkisi oldu. Xalqımızın siyasi iradəsinin təntənəsi olan bu seçki həm də bir həqiqətin təsdiqi kimi tarixə düşdü. Bir daha təsdiq olundu ki, müdrik və qədirbilən xalq öz taleyini məhz illərin sınağından çıxan, ölkənin inkişafını təmin edən siyasətə etibar edir.

Beləliklə, Azərbaycan xalqı son seçkilərdə daxili inamına söykənərək ulu öndər Heydər Əliyev yoluna, bu yolun ən layiqli davamçısı İlham Əliyevə səs verməklə ölkənin taleyinə biganə olmadığını göstərdi. Bu tarixi seçim həm də belə bir həqiqətin növbəti təsdiqi oldu ki, Azərbaycan xalqı ölkənin gələcək inkişaf yolunda mövcud siyasi kursa heç bir alternativ qəbul etmir. Bu mənada 2003-cü ildən sonrakı ildə həyata keçirdiyi uğurlu siyasətlə Azərbaycanı dinamik inkişaf yoluna çıxaran cənab İlham Əliyevin 2018-ci ilin seçkilərində də layiqli qələbə qazanaraq Azərbaycan Prezidenti seçilməsi bütün xalqın mütləq əksəriyyətinin seçkilərlə bağlı reallaşan ən böyük arzusu idi.

Bütün bunları əsas götürən xalqımız 11 apreldə səsvermədə aktiv iştirak etdi və seçicilərin 86,02 faizi öz səsini cənab İlham Əliyevə verdi. Lakin bu seçim təkcə ən yeni tariximizin möhtəşəm nailiyyətləri ilə şərtlənmirdi. Bu qərar, eyni zamanda, növbəti illərdə Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamın təcəssümü idi. Ona göstərilən etimada görə minnətdarlığını bildirən cənab İlham Əliyev bu seçkilərdə xalqımızın sabitliyə, təhlükəsizliyə, inkişafa səs verdiyini bəyan etdi. Aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə İlham Əliyev xalqımıza müraciət edərək minnətdarlığını bildirdi: *"Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq".*

Aprelin 11-də cənab İlham Əliyevin növbəti dövr üçün prezidentlik müddətinin birinci ili tamam olur. Bu gün dönüb arxaya boylananda İlham Əliyevin qısa dövrdə nə qədər möhtəşəm işlər gördüyünün şahidi oluruq. Təkcə 2018-ci ildə İlham Əliyevin müəllifliyi ilə qazanılan nailiyyətlər sadəcə bu günümüzə deyil, gələcəyimizə işıq salan tarixi əsərlərdir. Məsələn, ötən il reallaşan infrastruktur layihələri bundan sonra neçə-neçə onilliklər ölkəmizin və onun vətəndaşlarının rifahına xidmət edəcək. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşasının uğurla başa çatdırılmasına nail olan Prezident İlham Əliyevin siyasi iradəsi ilə keçən ilin may ayında açılışı olan "Cənub qaz dəhlizi" bir daha təsdiq etdi ki, dövlət başçısı qarşıya qoyduğu hədəflərə inamla və layiqincə çatmağı bacaran liderdir. Məhz İlham Əliyevin iradəsi, qətiyyəti, bu mürəkkəb layihənin ərsəyə gəlməsini diqqətdə saxlaması, prosesləri koordinasiya etməsi nəticə etibarilə Azərbaycandan Avropaya uzanan yeni qaz kəmərinin reallığa çevrilməsini şərtləndirdi.

Azərbaycan Ordusunun ötən il Naxçıvan istiqamətində keçirdiyi uğurlu əməliyyat isə göstərdi ki, Prezident İlham Əliyev həm də güclü orduya sahib Ali Baş Komandandır. Naxçıvan əməliyyatı ilə ordumuzun azad etdiyi strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində vəziyyətə tam nəzarət edək.

Ötən bir il Azərbaycan üçün iqtisadi baxımdan da əlamətdardır. Məsələn, 2018-ci ildə dünyada və bölgədə gedən mənfi proseslərə baxmayaraq, Azərbaycan hərtərəfli və dinamik inkişaf edib. Ötən il ümumi daxili məhsul 1,4 faiz, qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artıb. Valyuta ehtiyatları 45 milyard dollara çatıb, ölkədə 118 min daimi iş yeri açılıb. Bu ilin ilk aylarında isə 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox ümumi daxili məhsul istehsal edilib. Sənayenin qeyri-neft sektorunda artım 15,5 faizdir. Bu baxımdan hələ bir neçə il əvvəl iqtisadiyyatda yeni islahatlar başladan İlham Əliyevin uzaqgörən və müdrik qərarlarının bəhrəsi artıq real faktlarla təsdiq olunur. Son bir il isə iqtisadi uğurlar baxımından xüsusilə əlamətdardır.

Azərbaycana yüksək nailiyyətlər qazandıran iqtisadi inkişaf strategiyasını uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin fəaliyyətində sosial məsələlərə diqqət prioritet istiqamət təşkil edir. Ona görə Prezidentin ötən birillik fəaliyyəti həm də sosial rifaha xidmət edən kompleks tədbirlərin işlənib hazırlanması və uğurla reallaşması ilə yaddaqalan oldu. Bu da onu göstərir ki, iqtisadi nailiyyətlər, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr sosial siyasətin də uğurla aparılmasına təkan verir, iqtisadi inkişafdan, ölkənin maliyyə imkanlarının artmasından hər bir Azərbaycan vətəndaşına pay düşür.

Minimum əməkhaqqının məbləğinin, əmək pensiyasının minimum məbləğinin, sosial müavinətlərin, tələbələrin təqaüdlərinin artırılması ölkədə 3 milyon nəfər vətəndaşın həyatında hiss olundu. Cənab Prezidentin kreditlərlə bağlı problemin həllini nəzərdə tutan sərəncamı isə sosial kursun praktik olaraq insan amilinə xidmət etdiyini göstərdi.

Bütün bunlar Prezident İlham Əliyevin sadəcə son bir illik fəaliyyətində baş verənlərdir. Daha dəqiq ifadə etsək, dövlət başçısının son bir illə bağlı uğur hesabatıdır. Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan bu siyasət növbəti illərdə də uğurla davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, qabaqcıl dövlətlər arasında layiqli yerini daha da möhkəmləndirəcək. Bu baxımdan qarşıdakı dövrdə daha möhtəşəm uğurların şahidi olacağıq.

## Prezidentin elan etdiyi inkişaf prioritetləri sürətlə reallaşır



**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Xalqımızın dahi oğlu ulu öndər Heydər Əliyevin qurucusu olduğu müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ildən-ilə daha da inkişaf edir, regionda və dünyada söz sahibi kimi beynəlxalq nüfuzunu artırır. Cənab İlham Əliyevin yürütdüyü çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz və xalqımız müstəqillik tarixinin ən böyük siyasi və sosial-iqtisadi uğurlarına imza atmaqdadır. Bu baxımdan Azərbaycanın qısa zaman kəsiyində böyük inkişaf yolu keçməsi müstəqilliyimizin ən şərəfli səhifələrindən biridir.

Hazırda Cənubi Qafqazın lideri olan Azərbaycan iqtisadi inkişaf göstəriciləri baxımından davamlı və dayanıqlı iqtisadi yüksəlişə malik ölkə, beynəlxalq enerji təhlükəsizliyi məsələlərində etibarlı tərəfdaş, qlobal iqtisadi layihələrin təşəbbüskarı və iştirakçısı, həmçinin bəzi problemlərə həsr olunmuş tədbirlərin əsas ünvanlarından biri kimi tanınır. Bütün bunlar öz növbəsində onu göstərir ki, Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq ölkədə bütün sahələrin tərəqqisinə nail olmaqla Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifinə çevrilib. Və əlbəttə bu uğurlar cənab İlham Əliyevin ötən dövrlərdə keçirilmiş bütün prezident seçkilərində xalqın etimadını qazanmasını şərtləndirən amillər kimi çıxış edir.

Azərbaycanın siyasi həyatında böyük hadisə kimi yadda qalan 2018-ci ilin prezident seçkilərinə də ölkə vətəndaşları bu amallarla getdilər. Aprel ayının 11-də keçirilən səsvermənin nəticəsi isə cəmiyyətin mənafelərini özündə ehtiva edən, ölkəmizi inkişaf yoluna çıxaran hazırkı siyasi kursun alternativsizliyini bir daha sübuta yetirdi. Bu seçki də əvvəlkilər kimi xalqımızın müdrik və dəyişməz seçiminə əsaslandı. Ölkə vətəndaşları növbəti dəfə Heydər Əliyev siyasi kursunun zəfərinə, bu kursun davamçısı kimi son 15 ildə Azərbaycanın bütün uğurlarının müəllifi olan cənab İlham Əliyevə səs verdilər.

Bu gün seçkidən bir il ötür. Bir il qarşıya qoyulmuş inkişaf məqsədlərinin reallaşdırılması baxımından uzun zaman kəsiyi deyil. Amma bu müddətdə görülən işlər, atılan addımlar və əldə olunan nəticələr Prezident İlham Əliyevin elan etdiyi inkişaf prioritetlərinin, ötən il aprelin 18-də Milli Məclisdə andiçmə mərasimindəki nitqində qarşıya qoyduğu vəzifələrin real həyata sürətlə vəsiqə aldığını göstərir. Andiçmə mərasimində cənab İlham Əliyev demişdi: *"Son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında da bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var".*

Beləliklə, ötən bir ilin yekunları, həyata keçirilən islahatlar göstərir ki, Prezidentin andiçmə mərasimində perspektiv dövr üçün müəyyən etdiyi vəzifələr uğurla reallaşır. Ötən bir il isə bu vəzifələrin yerinə yetirilməsi baxımından olduqca məhsuldar dövrdür.

Hər şeydən öncə onu qeyd etmək istəyirəm ki, cənab İlham Əliyevin ötən bir illik fəaliyyət dövrü mühüm layihələrin icrasının başa çatdırılaraq işə salınması ilə əlamətdardır. Bu bir ilin son dərəcə möhtəşəm və ölkəmizin beynəlxalq imicinin daha da artmasına təsir edən məsələlər "Cənub qaz dəhlizi"nin işə salınması, üçüncü peykimizin orbitə göndərilməsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin və ölkəmizin maliyyə imkanları hesabına Türkiyədə "Star" neft emalı zavodunun inşasının başa çatdırılmasıdır. Bütün bunlar Azərbaycanın yerləşdiyi bölgədəki aparıcı rolunu bir qədər də yüksəltdi və bir daha təsdiq etdi ki, respublikamız qarşısına qoyduğu bütün hədəflərə layiqincə çatır.

Cənab İlham Əliyevin yeni müddətə prezidentlik dövrünün birinci ilinin başqa bir uğur göstəricisi isə Naxçıvandakı Günnüt zəfəri oldu. Ermənistanla sərhəddə strateji yüksəkliklərin ələ keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin aprel qələbəsindən sonra növbəti zəfəri kimi tarixə düşdü və bir daha təsdiq etdi ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük qələbəyə doğru inamla addımlayır.

Prezidentin elan etdiyi prioritetlərin reallaşması baxımından ötən bir ilin növbəti mühüm hadisəsi 2019-cu ilin əvvəllərindən yeni islahatlara start verilməsidir. Cənab İlham Əliyev andiçmə mərasimində artıq bunun anonsunu etmişdi. Budur, Azərbaycan öz inkişafının yeni mərhələsinə yeni islahatlarla gedir. İslahatların bir istiqaməti dövlət qurumlarının fəaliyyətinin optimallaşdırılmasına xidmət edir. Bu baxımdan Prezident İlham Əliyevin sərəncamları bu ilin yanvar ayından başlanan struktur islahatlarının məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir.

Prezidentin ötən bir illik fəaliyyətini qiymətləndirməyə imkan verən ən mühüm məsələlərdən biri də bu ilin fevral ayından vətəndaşların rifahının daha da yüksəldilməsi ilə bağlı verilən qərarlar oldu. Və bir daha təsdiq olundu ki, əhalinin sosial rifahının gücləndirilməsi ölkədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Prezidentin imzaladığı sərəncamlar göstərdi ki, islahatlar kompleks xarakter daşıyır və atılan hər bir addımın mərkəzində Azərbaycan vətəndaşının etibarlı sosial təminatı dayanır.

Göründüyü kimi, Prezident İlham Əliyevin ötən bir illik fəaliyyəti ölkəmizin və xalqımızın həyatında olduqca nikbin və pozitiv dövr, dinamik inkişaf mərhələsi kimi əlamətdardır. Qazanılan uğurlar ondan xəbər verir ki, Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti nəticəsində Azərbaycan qarşısında dayanan hədəflərə, müəyyən etdiyi məqsədlərə doğru inamla irəliləyir.



***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ümumxalq inam və etimadının təcəssümü

**2018-ci ilin ölkəmiz üçün ən mühüm siyasi hadisəsi olan prezident seçkilərindən bir il keçir. Demokratik şəraitdən bəhrələnən ölkə vətəndaşları ötən il aprelin 11-də sərbəst və azad şəkildə öz iradəsini ifadə edərək səsini ən layiqli namizədə - cənab İlham Əliyevə verdi. Azərbaycan xalqı bu seçkidə də yekdilliklə İlham Əliyevi dəstəkləməklə, özünə rəhbər seçməklə sabitliyinə və firavanlığına səs verdi.**



Bu qələbənin kökündə Prezident İlham Əliyevin ötən on beş il ərzində gördüyü işlər, Azərbaycanda həyata keçirdiyi genişmiqyaslı layihələr, ölkəmizin iqtisadiyyatında, sosial həyatında və digər sahələrdə qazanılan əzəmətli uğurlar dayanırdı. Buna görə xalq özünün ən doğru seçimini edərək ötən illərin sosial-iqtisadi uğurlarına, həyata keçirilən səmərəli islahatlara, perspektiv nailiyyətlərə hesablanan siyasi kursun yenilməzliyinə və alternativinin olmadığına dərindən inandığını ortaya qoydu. Prezident seçkilərinin nəticəsi göstərdi ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin sabitliyə, sülhün və firavanlığın möhkəmləndirilməsinə, dövlətçiliyimizin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən siyasətini dəstəkləyir və çox böyük etimad göstərir. Azərbaycan seçicilərinin bu seçimi həm də ölkəmizin inkişafına yönəlmiş bir ümumxalq qərarı idi.

İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq oldu. Dövlət başçısının rəhbərliyi ilə görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqətləri təsdiq edir. Son 15 il ərzində Azərbaycanın dünyada sürətli inkişafı, enerji sahəsi ilə yanaşı, qeyri-neft sektorunun önəmli şəkildə tərəqqisi, milli sahibkarlığın formalaşması və inkişafı, hər bir vətəndaşın maddi rifah halının yüksəlməsi, Azərbaycanın milli mənafeyinə cavab verən müstəqil xarici siyasətin yürüdülməsi Prezident İlham Əliyevin bir lider kimi uğurlarının ayrı-ayrı tərəfləridir.

Namizəd olduğu bütün prezident seçkilərində xalqın böyük inam və etimadını qazanaraq yalnız ona güvəndiyindən güc alan, yüksək siyasi iradə, əzm və cəsarət sahibi olan İlham Əliyev 2003-cü ildən bəri mövcud resursları səmərəli şəkildə səfərbər edərək əvvəlki dövrlərdəki inkişaf konsepsiyasının daha da təkmilləşdirilməsinə nail oldu. Azərbaycan xalqı son prezident seçkilərində də İlham Əliyevin şəxsində məhz bu kursun davam etməsinə, daha böyük nailiyyətlərin qazanılmasına səs verdi.

Ötən il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev ölkəmizin qarşıdakı dövr üçün inkişafı ilə bağlı prioritetləri elan etdi. "Azərbaycan iqtisadiyyatı inkişaf edir. Biz dünyada baş vermiş böhranlar zamanı da bu böhranlardan ən az itkilərlə çıxa bilmişik. Artıq bu böhranlar arxada qalıb və iqtisadi sabitlik, maliyyə sabitliyi, əlbəttə ki, həm investisiya iqliminə müsbət şərait yaradır, həm də biznes mühitini daha da yaxşılaşdırır. Gələcək illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaq, iqtisadi islahatlar dərinləşəcək" - deyən cənab Prezident görüləcək işlərin Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyini bəyan etdi.

Ötən bir ilin iqtisadi mənzərəsi göstərir ki, Azərbaycan dövləti qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir. Cənab İlham Əliyevin bir neçə il əvvəl elan etdiyi yeni islahatlar kursu bu dövrdə daha böyük vüsət alıb və iqtisadiyyatın qeyri-neft sektorunu yeni inkişaf yoluna çıxarıb. Ötən il ümumi daxili məhsulun 1,4 faiz, qeyri-neft sektorunun 1,8, sənaye istehsalının 1,5, kənd təsərrüfatının isə 4,6 faiz artımı islahatların artıq bəhrə verdiyini göstərir. Bu ilin təkcə yanvar-fevral ayında ÜDM ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz artıb. Əlbəttə, bu göstəricilər daha da yüksələcək və 2019-cu ilin yekunlarında daha möhtəşəm iqtisadi inkişafın şahidi olacağıq.

Əlamətdar haldır ki, aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin reallaşdırdığı bu islahatları yüksək qiymətləndiriblər. Dünya Bankının "Doing Business-2019" hesabatında biznes mühitinin əlverişliliyinə görə ölkəmiz əvvəlki illərlə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə yüksəlib. Müstəqil Dövlətlər Birliyi ölkələri arasında isə Azərbaycan liderlik mövqeyinə yüksəlmişdir. Ölkəmizin kredit reytinqinə görə də mövqeyi xeyli möhkəmlənib. "Doing Business-2019" hesabatının əhatə etdiyi 10 indikatordan 8-i üzrə öz mövqelərini yaxşılaşdıran Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilib. Digər beynəlxalq reytinq agentliklərinin hesabatlarına görə də Azərbaycanın mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Fəxr hissi ilə qeyd etməliyik ki, ölkədə qeyri-neft sektorunun inkişafında Gəncə Avtomobil Zavodunun da böyük rolu var. Öncə onu qeyd edim ki, Gəncə Avtomobil Zavodunun fəaliyyətə başlaması məhz Prezident İlham Əliyevin regionların və qeyri-neft sənayesinin inkişafı ilə bağlı uğurlu iqtisadi kursunun bariz nümunəsidir. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində 2004-cü ilin dekabrında, regional inkişafla bağlı birinci dövlət proqramının təsdiq olunmasından sonra bu zavod işə salındı və müəssisədə yığımdan keçən ilk avtomobil buraxıldı. Ötən 15 ildə Belarusun, Rusiyanın və Çinin qabaqcıl müəssisələri ilə əməkdaşlıq çərçivəsində Gəncədə müxtəlif modellərdə "Belarus" traktorlarının, "UAZ" və "Oka" kimi minik avtomobillərinin, MAZ, KAMAZ və "Can Qan" markalı yük avtomobillərinin, o cümlədən, su və yanacaqdaşıyanlar, yüküözüboşaldanlar, avtokranlar, kommunal maşınlar, avtomobil qoşquları, ağırtonnajlı yük dartıcıları yığılıb.

Ötən bir il Gəncə Avtomobil Zavodunun fəaliyyəti baxımından da olduqca uğurlu və məhsuldar dövrdür. Öncə onu qeyd edim ki, ötən il prezident seçkilərindən bir neçə gün əvvəl zavodun istehsalı olan 10 mininci traktor konveyerdən çıxdı. Bununla əlaqədar keçirilən tədbirdə Belarus Respublikasının Baş nazirinin müavini Vladimir Semaşko, Azərbaycanın Baş nazirinin I müavini Yaqub Eyyubov, Minsk traktor və Minsk avtomobil zavodlarının baş direktorları iştirak ediblər. Qonaqlar zavodun fəaliyyətini yüksək qiymətləndirib, texniki və kadr potensialında perspektivlərdən söz açıblar.

Aprelin 3-də isə Prezident İlham Əliyev respublikamızda avtomobil sənayesinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətlərinə görə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin əməkdaşlarının bəzilərini "Tərəqqi" medalı ilə təltif etdi. Ölkə rəhbərinin bu diqqəti fəaliyyətimizə verilən ən yüksək qiymət olmaqla, zavod kollektivini daha böyük uğurların əldə edilməsinə ruhlandırdı.

2018-ci ili uğurla başa vurduq. Bu dövrdə müəssisədə mindən çox "Belarus" traktoru, 70-ə yaxın traktor qoşqusu, 60 KAMAZ avtomobili, 100 ədəd URAL avtomobili, 60-dan çox qoşqulu su çəni, HALLER markalı məişət tullantıları daşıyan avtomobillər istehsal olunub. Bütövlükdə il ərzində Gəncə Avtomobil Zavodu Azərbaycan bazarını müxtəlif modifikasiyalı traktor və avtomobil texnikası ilə təchiz etdi.

2019-cu ildə isə zavodun fəaliyyətində yeni keyfiyyət dəyişiklikləri baş verəcək. Bununla bağlı Belarus müəssisələri ilə artıq razılaşmalar var və Gəncədə elektrik avtobuslarının, kombaynların istehsalı üzərində işlər davam edir.

Prezident İlham Əliyevin regionların və qeyri-neft sektorunun inkişafı ilə bağlı strategiyasının nəticəsi olaraq ərsəyə gətirilən Gəncə Avtomobil Zavodu bundan sonra da öz fəaliyyəti ilə ölkəmizin inkişafına töhfə verəcək. Zavodun uğurlu fəaliyyətinin əsas səbəbi isə ölkə rəhbərinin yüksək diqqəti və qayğısıdır. Elə buna görə qarşıdakı dövrlərdə daha böyük uğurlara imza atacağıq.

**Xanlar FƏTİYEV,**
***Milli Məclisin deputatı***







# 22 rayona 27 səfər, 93 yeni obyektin açılışı

## İlham Əliyevin prezidentliyinin bir ili regionların inkişafının ən sürətli dövrü oldu

*Əvvəli 1-ci səh.*

Sosial-iqtisadi tərəqqi

Son 16 ildə ölkənin sosial-iqtisadi tərəqqisini təmin edən ən başlıca amillərdən biri də regionların davamlı və tarazlı inkişafına nail olunması ilə bağlıdır. Regionların inkişafına dair 3 dövlət proqramının uğurla icrası bölgələrin sosial-iqtisadi mənzərəsini xeyli yaxşılaşdırıb, yerlərdə iqtisadi fəallığın və təşəbbüskarlığın artmasına, vacib infrastruktur layihələrinin reallaşdırılmasına imkan yaradıb.

Dövlət başçısı seçkilərdən sonrakı dövrdə, yəni bir il ərzində mütəmadi olaraq ölkənin əksər şəhər və rayonlarına səfərlər edib, görülən işlərlə şəxsən maraqlanaraq tapşırıqlar verib və vətəndaşlarla səmimi görüşlər keçirib. Şad gündə də, dar gündə də xalqın yanında olan İlham Əliyev öz missiyasını uğurla yerinə yetirib.

11 aprel prezident seçkilərindən sonrakı dövrə nəzər yetirsək görərik ki, bu qısa müddət ərzində dövlət başçısı respublikanın bir çox şəhər və rayonuna səfərlər edərək verdiyi tapşırıqların və göstərişlərin icrası ilə yerində maraqlanıb, eləcə də mühüm sosial obyektlərin, mədəniyyət mərkəzlərinin açılışı, avtomobil yollarının yenidən qurulması işləri ilə tanış olub, hərbi hissələrə baş çəkib, vətəndaşlarla səmimi görüşlər keçirərək onların problemləri ilə maraqlanıb. Bakıya qayıtdıqdan sonra isə bəzi sosial məsələlərin həlli istiqamətində fərman və sərəncamlar imzalayıb.

### Bölgələr hər zaman Prezidentin diqqət mərkəzindədir

Diqqət etsək görərik ki, prezident seçkilərindən keçən müddət ərzində, yəni son bir ildə İlham Əliyev ölkənin əksər şəhər və rayonlarında səfərdə olub.

1. Xaçmaz-Xızı (4 may). 2. Naxçıvan Muxtar Respublikası (16 may). 3. Goranboy və Naftalan (5 iyun). 4. Sumqayıt (18 iyul, 16 noyabr, 27 dekabr). 5. Şamaxı-İsmayıllı (25-26 avqust). 6. Biləsuvar-Masallı (18 sentyabr), 7. Quba-Xızı (11 oktyabr). 8. Lənkəran-Astara-Lerik (15 oktyabr). 9. İmişli (22 oktyabr), Qax-Şəki (28-29 oktyabr). 10. Ağdam-Ağcabədi (5 noyabr). 11. Abşeron (24 dekabr). 12. Sumqayıt (16 yanvar, 18 fevral). 13. Şamaxı (7 fevral, 7 mart). 14. Beyləqan (13 fevral). 15. Ağsu (6 mart).

Ümumilikdə 22 şəhər və rayona 27 dəfə səfər edib, 93 yeni sosial-iqtisadi infrastrukturun açılışını edib. Əlbəttə ki, açılan hər yeni obyekt yeni iş yerləri deməkdir. Bu da əhalinin sosial durumuna öz müsbət təsirini göstərir. Elə bunun səbəbidir ki, vaxtı ilə iş dalınca Bakıya üz tutan insanlar indi rayona qayıdırlar.

### Regionlarda gerçəkləşən mühüm iqtisadi layihələr

Seçkilərdən sonrakı müddət ərzində regionların sosial-iqtisadi inkişafına töhfə verən, yeni iş yerlərinin açılmasını təmin edən müəssisələr, zavodlar, fabriklər və digər obyektlər fəaliyyətə başlayıb.

Dövlət başçısı yeni müəssisələrin işə düşməsi, istismara verilməsi mərasimlərində iştirak edərək öz xeyir-duasını verib.

Prezidentin iştirakı ilə Masallı Sənaye Məhəlləsi, Şamaxıda “Şirvan şərabları” MMC-nin şərab zavodu, Sumqayıt Kimya Sənaye Parkında “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən polipropilen zavodu, İnşaat Kimyəviləri Zavodu, “SOCAR karbamid” zavodu, Yüksək sıxlıqlı polietilen zavodu, “Baku Non Ferrous and Foundry Company” MMC-nin əlvan metallar və ferroərintilər zavodu və “Tabaterra” QSC-nin tütün məmulatları istehsalı fabriki, “Qubaekoaqrar” MMC-nin kənd təsərrüfatı mallarının istehsalı zavodunun və “Azərxalça” ASC-nin Ağdam, Xaçmaz, İsmayıllı, Lənkəran filiallarının açılış mərasimləri keçirilib.

Göründüyü kimi, ölkədə innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin, həmçinin qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin məşğulluğunu artırmaq məqsədilə nəhəng sənaye parkları və məhəllələri, zavod və fabriklərin yaradılması prosesi uğurla davam etdirilir. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması baxımından bu cür sənaye parklarının və məhəllələrinin müstəsna əhəmiyyəti var.













### Reallaşan sosial infrastrukturlar

Ölkədə həyata keçirilən sosialyönümlü siyasət və İlham Əliyevin çevik iqtisadi islahatları nəticəsində əldə olunan nailiyyətlər sosial dövlət modelinin uğurla reallaşdırılmasının fundamental əsaslarını formalaşdırıb. Bunun nəticəsidir ki, Azərbaycanda sosial müdafiə sistemi beynəlxalq standartlar əsasında keyfiyyətcə yenidən qurulub və iqtisadi yüksəlişlə sosial xərclərin artımının balanslaşdırılmasının daimi olaraq diqqət mərkəzində saxlanılması vətəndaşların yaşayış səviyyəsinin daha da yüksəldilməsini təmin etməkdədir.

Prezident ötən ilin aprelindən bu ilin mart ayınadək İmişli və Şəkidə “ASAN Həyat” komplekslərinin açılışlarını edib. Həmçinin “ABAD” publik hüquqi şəxsin Qubadakı “ABAD Factory” İstehsalat Kompleksinin, Şəkidəki “ABAD” Keramika və Tətbiqi Sənət Mərkəzinin açılış mərasimlərində olub.

Dövlət başçısının iştirakı ilə həmçinin Naftalan və Quba şəhər mərkəzi xəstəxanaları, Lənkərandakı İstisu Sağlamlıq Mərkəzi, Sumqayıt Dəmir Yolu Vağzalı Kompleksi, Qaxda “Yurd Hotel” mehmanxanası, Lənkəran və Beyləqan olimpiya idman komplekslərinin və Naxçıvan Müəllimlər İnstitutunun açılışları olub.

Bundan başqa, İlham Əliyev Şəkidə Heydər Əliyev Mərkəzinin, Beyləqanda yenidən qurulan tarix-diyarşünaslıq muzeyinin, Goranboyda, Lerikdə, İmişlidə, Şəkidə bayraq muzeylərinin açılışlarında iştirak edib.

Ölkəmizdə bütün sahələrdə, o cümlədən sosial sahədə uğurlu dövlət siyasəti həyata keçirilir. Məhz bu səbəbdən də reallaşdırılan siyasət, aparılan islahatlar öz müsbət nəticələrini göstərir.

### Yeni inşa olunan, əsaslı şəkildə qurulan müasir avtomobil yolları

Prezidentin son illərdə daha çox diqqət yetirdiyi sahələrdən biri də yol infrastrukturudur. Ölkəmizdə yol tikintisi geniş vüsət alıb. Dövlət İnvestisiya Proqramında ən azı 600 kəndin yolunun əsaslı təmir olunması nəzərdə tutulub. O cümlədən, magistral yolların salınması, onların ən yüksək standartlara çatdırılması prosesi də uğurla həyata keçirilir.

**Prezident İlham Əliyev ötən 1 il ərzində 22 şəhər və rayona 27 səfər edib:**

Xaçmaz, Xızı, Naxçıvan Muxtar Respublikası, Goranboy, Naftalan, Sumqayıt (5 dəfə), Şamaxı (2 dəfə), İsmayıllı, Biləsuvar, Masallı, Quba, Lənkəran, Astara, Lerik, İmişli, Qax, Şəki, Ağdam, Ağcabədi, Abşeron, Beyləqan, Ağsu.

**Regional inkişafın 15 illik uğur hesabatı:**

15 il ərzində ÜDM 3,3 dəfə artıb;
Qeyri-neft sektoru 2,8 dəfə çoxalıb;
Sənaye istehsalı 2,6 dəfə artıb;
Kənd təsərrüfatı üzrə 1,7 dəfə artım qeydə alınıb;
1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri açılıb;
100 mindən çox müəssisə yaradılıb;
İşsizlik 5 faizə, yoxsulluq səviyyəsi 5,1 faizə enib;
İxrac 4,7 dəfə çoxalıb;
Valyuta ehtiyatları 24 dəfə artıb.

İlham Əliyev şəxsən bu layihələrin icrası ilə yerində maraqlanıb və yeni salınan, əsaslı şəkildə yenidən qurulan yolların açılış mərasimlərində olub. Dövlət başçısının əksər regionlara səfər proqramlarına yeni yolların açılış mərasimi daxil edilib. Bunların sırasında Mingəçevir, Beyləqan, İmişli, Xaçmaz-Xudat, Giləzi-Xızı, Goranboy, Şamaxı, İsmayıllı-Şəki, Quba, Biləsuvar, Lənkəran, Lerik, Qax, Ağdamda avtomobil yollarının müxtəlif hissələrini göstərmək olar.

Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin keçdiyi məkan kimi Azərbaycan da tarixi İpək yolunun bərpası prosesində öz üzərinə düşən vəzifəni uğurla reallaşdırır. Ötən il bu istiqamətdə daha bir layihə gerçəkliyə çevrilib. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu istifadəyə verilib.

### Aqrar sektora dövlət qayğısı bu sahəyə yeni nəfəs gətirib

Regionların inkişafını özündə ehtiva edən proqramların vaxtında və yüksək səviyyədə icra olunması Azərbaycanın ümumi iqtisadi gücünü artırmaqla yanaşı, istehsal müəssisələrinin fəaliyyətinin bərpasına, yeni istehsal müəssisələrinin yaradılmasına, yerli resurslardan istifadənin səmərəsinin artırılmasına, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasına, aqrar sektorda islahatların sürətləndirilməsinə yol açıb.

Bir ildə bölgələrdə aqrar sektorun inkişafına töhfə verəcək çoxlu sayda yeni müəssisələr fəaliyyətə başlayıb. Dövlət başçısının iştirakı ilə ötən il Goranboyda “Region Aqropark”ın, Şamaxıda “Buta Qrup” MMC tərəfindən yaradılan aqroparkın, “AZZA AGRO” MMC-nin müasir heyvandarlıq kompleksinin, Kənd Təsərrüfatı Nazirliyinin Qubadakı Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun, Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin və Qida Təhlükəsizliyi Agentliyinin Qida Təhlükəsizliyi İnstitutunun Lənkəran Regional Sınaq Laboratoriyasının, Qax Damazlıq İpəkçilik Stansiyasının, “Ulu Aqro” MMC-nin Qax Aqroparkının, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki “Qarabağ Atçılıq Təsərrüfatı” MMC-nin Ağcabədidəki Qarabağ Atçılıq Kompleksinin açılış mərasimləri olub.

Əlbəttə ki, bütün bunlar aqrar sektora göstərilən diqqət və qayğının təzahürüdür. Ötən il görülən işlər, yeni fəaliyyətə başlayan müəssisələr onu deməyə əsas verir ki, bu il aqrar sektorda mühüm nailiyyətlər əldə olunacaq.

### Dağlar qoynundakı Lahıca da qaz xətti çəkildi

Bu müddət ərzində dövlət başçısının daha çox diqqət yetirdiyi sahələrdən olan meliorasiya və irriqasiya, həmçinin əhalinin enerji təminatı sahəsində böyük uğurlar əldə edilib. Bu layihənin icrası qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafına müsbət töhfələr verir.

Əhalinin enerji təminatına gəlincə isə, deyə bilərik ki, ötən il bu sahədə də bir sıra mühüm layihələr gerçəkləşib. Dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən, Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunan İsmayıllının Lahıc qəsəbəsinə qaz verilməsi mərasimi ötən ilin ən yaddaqalan hadisələrindəndir.

Bu bir həqiqətdir ki, Heydər Əliyev Fondunun dəstəyi ilə son illərdə ölkəmizdə yüzlərlə ümumtəhsil müəssisəsi inşa olunub və ya yenidən qurularaq istismara verilib. Bu da ki, əlbəttə, ölkənin təhsil sisteminə öz müsbət təsirini göstərib.

Bununla yanaşı, Heydər Əliyev Fondu ölkəmizdəki mədəni abidələrin qorunub saxlanılması istiqamətində də ciddi işlər görür. Fond ənənəsinə sadiq qalaraq bir sıra layihələri gerçəkləşdirib. Nəzər salaq: Şamaxıda Dəmirçi Arxeologiya Muzeyi, Ağdamda Muğam Mərkəzi, əsaslı şəkildə yenidən qurulan Bərdə türbəsi və Torpaqqala kompleksində yaradılan şərait.

Həmçinin 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçası, Qubada 100 yerlik “Günəş” körpələr evi-uşaq bağçası, 132 şagird yerlik Şamaxı rayonu Meysəri kənd tam orta məktəbi, İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binaları, İmişlidə 100 yerlik körpələr evi-uşaq bağçası, Şəkidə qarışıq tipli uşaq evi üçün inşa olunan yeni bina.

Adları çəkilən mərkəzlərin, muzeylərin, məktəblərin, uşaq bağçalarının açılışlarında Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva iştirak edərək yerinə yetirilən tapşırıqların icrası ilə yaxından maraqlanıblar.

### Hər zaman diqqətdə olan cəbhə bölgəsi, yeni hərbi obyektlərin açılışı

Prezidentlik fəaliyyətinin bütün dövründə cəbhə bölgəsinin sakinlərinə hər zaman xüsusi diqqət, himayədarlıq göstərən İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva noyabrın 5-də Qarabağa səfər etdilər. Ağdam rayonuna edilən səfər bir neçə məqamla əlamətdar oldu.

Bu səfərlə Qarabağa yeni nəfəs gətirən İlham Əliyev Böyük qayıdışa inamı daha da möhkəmləndirdi. Ağdam sakinləri isə dövlət başçısına möhtəşəm dəstəyini, birmənalı bağlılığını nümayiş etdirdilər.

Onu da qeyd edək ki, dövlət başçısı regionlara səfərləri çərçivəsində həm də Azərbaycan Ordusunun hər zaman yenilənən maddi-texniki bazası ilə tanış olub və hərbçilərlə görüşlər keçirib.

Naftalan şəhərində Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsi üçün inşa edilmiş hərbi şəhərcikdə və Beyləqanda inşa edilmiş yeni “N” saylı hərbi hissədə yaradılan şəraitlə tanış olan Ali Baş Komandan həmçinin Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində və Əlahiddə Ümumqoşun Ordusunun “N” saylı hərbi hissəsində hərbçilərin şəraiti ilə maraqlanıb.

Hərbi hissələrlə tanışlıq, yeni hərbi obyektlərin açılışı Azərbaycan hərbçilərinin hər zaman Ali Baş Komandanın diqqət və qayğısı ilə əhatə olunduqlarını bir daha təsdiqləyir. Həmçinin bu görüşlər Azərbaycan hərbçisinin döyüş, qələbə əzmini daha da gücləndirir.

### Yeni dövlət proqramı, 17 milyard manatdan çox vəsait

Bu il yanvarın 29-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda çıxış edən dövlət başçısı görülən işlərə bir daha nəzər salaraq qazanılan uğurları dəyərləndirdi.

Bəlli oldu ki, dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri açılıb, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaradıb.

Həmçinin yeni dövlət proqramının qəbulu ilə bağlı məlumat verən Prezident bildirib ki, 2019-2023-cü illəri əhatə edəcək regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir.

Əminliklə deyə bilərik ki, ötən il olduğu kimi, bu il də Azərbaycanın hər bir şəhərində, rayonunda, qəsəbə və kəndində quruculuq-abadlıq işləri davam edəcək. Yeni qəbul olunan dövlət proqramına uyğun olaraq regionların inkişafı istiqamətində mühüm işlər görüləcək.

### Şad gündə də, dar gündə də xalqın yanında

Fevralın 5-6-da respublikamızın şimal bölgəsində baş verən təbii fəlakət hər kəs üçün üzücü xəbər oldu. İnsan tələfatı olmasa da, Şamaxıda, Ağsu və İsmayıllıda bəzi evlərə ciddi ziyan dəydi.

Zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində ciddi tapşırıq verən İlham Əliyev fevralın 7-də Şamaxıya səfər edib sakinlərə böyük təsəlli verdi. Evi dağılmış və çarəsiz duruma düşmüş 92 yaşlı Saray nənə ilə görüşən Prezident ağbirçək ananın ömrünə ömür qatdı. Onun dağılmış evini yenidən tikdirdi, özü də əvvəlkindən daha möhtəşəm.

Şamaxı sakinləri ilə görüşdə isə bəyan etdi ki, dağılan evlərin hamısı söküləb yenidən tikiləcək. Vədinə sadiq olan liderin bu bəyanatı hər kəsi sevindirdi. Hazırda zəlzələ bölgəsində tikinti işləri sürətlə davam edir. Evi qəzalı durumda olan bütün sakinlər yeni mənzillərlə təmin edilirlər.

Dövlət başçısı martın 6-da Ağsuda zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərlə də tanış oldu. Sakinlərlə görüşüb problemlərini dinlədi və ona təqdim edilən bütün məktublara baxılacağını bildirdi.

Sosial islahatlar çərçivəsində Prezidentin imzaladığı fərman və sərəncamlar isə 3 milyona yaxın insana sevinc payı bəxş etdi. Maaşlar, pensiyalar, təqaüdlər, müavinətlər, Prezident təqaüdləri orta hesabla 50-100 faiz artdı. Bütün bunlar isə Prezidentin böyük sosial islahatlar paketinin tərkib hissəsidir.

*Azərbaycanın real mənzərəsi göz önündədir: vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən və dərhal həlli üçün qəti tapşırıqlar verən lider bu xoşməramlı missiyası ilə xalqın ona olan etimadını daha da artırır və bu birlik Azərbaycanı daha böyük uğurlara doğru aparır.*

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***



# 4 qəsəbə, 6713 mənzil

## İndiyədək 300 min köçkünün məişət problemlərini həll edən Prezident İlham Əliyev son 1 ildə bu sahəyə xüsusi diqqət ayırıb





*Əvvəli 1-ci səh.*

### Uğur nümunəsi

Azərbaycan bu gün azsaylı ölkələrdəndir ki, qaçqın və məcburi köçkünlərin üzləşdikləri problemlərin həllində ortaya kifayət qədər uğurlu bir nümunə qoya bilib. Ümumiyyətlə, qaçqın və məcburi köçkünlər probleminin nə dərəcədə həssas xarakter daşımasını Azərbaycan kifayət qədər yaxşı bilir və onun həllinin vacibliyini də hər zaman ön planda tutur. Çünki ölkəmiz uzun illərdir ki, bu problemlə üzləşib və bunun hansı çətinliklər yaratdığını da çox gözəl bilir.

Ötən dövr ərzində iqtisadi imkanları artan Azərbaycan dövləti öz doğma torpaqlarını tərk etməyə məcbur edilmiş insanların üzləşdikləri problemlərin həlli üçün bütün zəruri tədbirləri görüb və görməkdədir.

### Ötən il 27 minə yaxın məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb

Yaşanan sürətli inkişaf, məşğulluq, sosial problemlərin effektiv həlli qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin böyük miqyasda aradan qalxmasına səbəb olub. Əlverişli sosial atmosferin yaradılması, ölkə miqyasında tərəqqinin sürətlənməsi, yeni iş yerlərinin açılması və əhalinin məşğulluqla təmin edilməsi bu gün məcburi köçkünlərin də davamlı, sabit artımlı gəlirləri üçün əsas yaradıb. Onların qarşılaşdıqları mənzil probleminin həllinə isə həmişəki kimi dövlət ən yüksək səviyyədə böyük diqqət və qayğı göstərib. Elə bunun nəticəsidir ki, təkcə keçən il 5 min 903 ailənin və ya 27 minə yaxın məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Bundan əlavə, müvəqqəti məskunlaşma yerlərində aparılmış təmir işləri nəticəsində 158 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Son 1 ildə isə 6713 mənzilli 4 qəsəbə istifadəyə verilib.

Ümumiyyətlə isə 2001-2018-ci illər ərzində qaçqın və məcburi köçkünlər üçün ölkənin 30-dan artıq şəhər və rayonunda Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 3,5 milyon kvadratmetr sahəsi, bütün sosial-texniki infrastruktura malik olan fərdi evlərdən, çoxmərtəbəli binalardan ibarət 103 müasir məhəllə, qəsəbə və ya yaşayış kompleksi salınıb. Bunun da 3,3 milyon kvadratmetr yaşayış sahəsinə malik 97-si və yaxud 95 faizi son 15 ildə inşa edilib.

### Nəticələr təqdirəlayiqdir

2001-2018-ci illər ərzində Ermənistandan olan 6 min qaçqının, yaxud 1330 ailənin və 294 min məcburi köçkünün, yaxud 56 min 873 ailənin, ümumilikdə isə 59 mindən çox ailənin və ya 300 min nəfərə yaxın qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

54 min 203 ailənin, yaxud 272 min nəfərin mənzilə sahib olması isə son 15 ilin payına düşür. Bu məqsədlə 2,6 milyard manat vəsait sərf olunub ki, bunun da 2,3 milyard manatı Dövlət Neft Fondunun payına düşür.

Xatırladaq ki, ötən il dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı olub. Açılışında Prezident İlham Əliyevin iştirak etdiyi yaşayış məntəqəsi şəhərin mərkəzində, Koroğlu prospektində yerləşir. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunan bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina, o cümlədən səkkizmərtəbəli səkkiz, 15 mərtəbəli dörd bina var. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri inşa edilib.

Layihənin icrası zamanı Sumqayıtdakı 12-ci mikrorayonda yerləşən 21 saylı məktəbə əlavə olaraq, dördmərtəbəli yeni korpus inşa edilib, məktəbin mövcud binasının fasadı, dam örtüyü tamamilə yenilənib.

Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlət başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini sosial siyasətin əsas istiqamətlərindən biri kimi müəyyən edib.

Ötən il dekabrın 24-də açılışı olan Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi də qeyd edilənlərin təsdiqidir. Xatırladaq ki, yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən həyata keçirilib. Kompleksin inşasına ötən ilin martında başlanılıb və tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Layihə üzrə 23-ü 42, biri isə 35 mənzilli olan 7 mərtəbəli yaşayış binası inşa olunub. Məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunub.

Bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün daha yeni bir yaşayış kompleksi istifadəyə verilib. Mənzillərdən 72-si birotaqlı, 360-ı ikiotaqlı, 306-sı üçotaqlı, 72-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 91 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub.

Bu arada onu da qeyd edək ki, məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı, artıq özəl sektor da yaxından iştirak edir. Elə "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsidir. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni yaşayış binaları tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə həmin layihə özəl sektor tərəfindən icra edilib və maliyyələşdirilib. Növbəti dövrdə də bu istiqamətdə özəl sektorun fəaliyyətinin genişləndirilməsi gözlənilir.

### Sosial problemlərin həlli Birinci vitse-prezidentin xüsusi diqqət mərkəzindədir

Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir.

Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur. Eyni zamanda qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür.

Xatırladaq ki, bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu.

Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Ötən il 24 may tarixində isə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva "Qobu Park" yaşayış kompleksinin açılışında iştirak ediblər.

Eyni zamanda Abşeron rayonunun Masazır, Mehdiabad, Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı.

Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur. Eyni zamanda, qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür.

Xatırladaq ki, bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərinin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Qarşıdakı dövr ərzində isə bu qəbildən olan insanların mənzil-məişət problemlərinin həlli istiqamətində işlər daha geniş miqyasda davam etdiriləcək. Müvafiq dövlət proqramına uyğun olaraq, artıq Kürdəmir rayonunda 563, Ucar rayonunda 250, Göygöl rayonunda 80 və Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində 645 məcburi köçkün ailəsi üçün nəzərdə tutulmuş fərdi evlərdən və çoxmərtəbəli binalardan ibarət qəsəbə və yaşayış komplekslərinin layihə-smeta sənədləri hazırlanıb.

Bu isə o deməkdir ki, yaxın vaxtlarda mənzil-məişət problemi həll edilən məcburi köçkünlərin sayı daha da artacaq. Bütün bunlar bir daha sözügedən kateqoriyadan olan insanlara yüksək diqqət və qayğının real təzahürləridir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***







# Səmərəsi əsrlərə bərabər 25 yaşlı saziş

**Sentyabrın 20-də "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi üzrə Hasilatın Pay Bölgüsü Sazişinin imzalanmasının 25 ili tamam olacaq. Bu, "Əsrin müqaviləsi" adını almış mühüm kontraktın, ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının 25 illik yubileyi deməkdir.**

Ötən illər ərzində saziş özünü doğrultmuş, Azərbaycanın iqtisadi inkişafına böyük töhfə vermişdir. Bu, eyni zamanda təkcə ölkəmizə deyil, bütün regiona, tərəfdaşlara və əlaqədar tərəflərə böyük mənfəətlər gətirmiş bir sazişdir.

Hazırda AÇG-də 2 texnoloji və 6 hasilat platforması fəaliyyət göstərir. Kompleksdən neftin və səmt qazının çıxarılması ahəngdar davam edir.

2018-ci ildə AÇG-dən ümumi hasilat təqribən 213 milyon barel - 29 milyon ton olub. "Çıraq" platformasından gündə orta hesabla 46 min, "Mərkəzi Azəri"dən 154 min, "Qərbi Azəri"dən 126 min, "Şərqi Azəri"dən 97 min, "Dərinsulu Günəşli"dən 105 min və "Qərbi Çıraq"dan 57 min barel neft çıxarılıb. İlin sonunda AÇG-də ümumilikdə 117 neft hasilat, 44 su injektor və 7 qaz injektor quyusu istismarda olub.

İl ərzində AÇG-də 14 neft hasilat quyusu və 3 su injektor quyusu qazılıb. SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6,4 milyon kubmetr, ümumilikdə isə 2,3 milyard kubmetr səmt qazı verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun məlumatına görə, AÇG üzrə əldə olunan ümumi gəlirlər 2001-ci ildən 2019-cu il yanvarın 1-dək 138 milyard 206 milyon ABŞ dollar təşkil edib. Keçən il AÇG-nin gəlirləri 9 milyard 720 milyon dollar olub. O cümlədən "Şahdəniz" kondensatının satışından il ərzində 245 milyon dollar gəlir əldə edilib.

Layihənin əməliyyatçısı olan BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "Ötən illər nə qədər uğurlu olubsa, biz gələcəyin də bu qədər uğurlu olacağına ümid bəsləyirik. Bunu hesablamalarımız da göstərir. Cari ilin ikinci rübündə AÇG-nin gələcəyi üçün bir platformanın - "Mərkəzi Şərqi Azəri" platformasının sanksiyası veriləcək. Bu istiqamətdə SOCAR-la və digər tərəfdaşlarımızla işlər aparılıb".

Yeni platforma Xəzərdə "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformaları arasında mərkəzi nöqtədə yerləşəcəyindən "Mərkəzi Şərqi Azəri" (MŞA) adlanacaq.

"Mərkəzi Şərqi Azəri"dən gözlənilən hasilat isə belədir: gündə 100 min barelə qədər neft (lay suları ilə birlikdə) və 350 milyon standart kubfutadək qaz. Quraşdırma, öncə qazma quyularının platformaya birləşdirilməsi və işəsalma tədbirləri tamamlandıqdan sonra hasilata 2023-cü ildə başlanacağı gözlənilir.

Yeni platformanın üst modullarının və dayaq blokunun inşa edilməsi üçün potensial tikinti-quraşdırma meydançaları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu və Bibiheybətdəki "AMEK-Tekfen-Azfen" sahələridir. Qurudakı tikinti-quraşdırma meydançalarında inşaat və istismara hazırlıq işlərinin əksəriyyətinin 2019-cu ilin ortalarından 2022-ci ilin ortalarına qədər davam edəcəyi nəzərdə tutulur. Layihənin qiymətləndirilməsi nəticəsində belə qənaətə gəlinib ki, tikinti mərhələsinin ən qaynar çağı 2021-ci ilin əvvəlinə təsadüf edəcək. Bu zaman işçi qüvvəsinin təxminən 3700 nəfərə çatacağı gözlənilir. Həmişə olduğu kimi, bu layihədə də Bakının tikinti meydançalarına yaxın olan Səbail və Qaradağ rayonlarının sakinləri məşğulluq problemlərini həll etmək imkanı qazanacaqlar. Əvvəlki neft-qaz tikinti layihələrində çalışarkən bacarıq nümayiş etdirmiş və etimad qazanmış işçilərə üstünlük veriləcək.



MŞA platformasından karbohidrogenlər "Dərinsulu Günəşli"nin neft və qaz ixracı borularına yataqdaxili xətlərlə köçürüləcək. Hasil edilən neft AÇG-nin digər platformalarında olduğu kimi, Səngəçal terminalına çatdırılacaq və burada ixrac üçün lazım olan səviyyədə emal ediləcək. Çıxarılan qazın bir hissəsi platformada yanacaq kimi istifadə olunacaq, qalan qaz yataqdaxili xətlərlə "Mərkəzi Azəri"yə, oradan AÇG-nin mövcud ixrac borularına ötürüləcək.

Xatırladaq ki, bu işlər 2017-ci il sentyabrın 14-də AÇG üzrə dəyişdirilmiş və yenidən işlənmiş Hasilatın Pay Bölgüsü Sazişinə əsasən görüləcək. Məlum olduğu kimi, AÇG layihəsinin müddəti 2049-cu ilin sonunadək uzadılıb. "Yeni əsrin müqaviləsi" adlandırılan sazişin imzalanmasından sonrakı 32 il müddətində AÇG-yə 40 milyard dollardan çox sərmayə qoyulması nəzərdə tutulub. Beynəlxalq tərəfdaş şirkətlər ARDNF-yə 3,6 milyard dollar bonus ödəyəcəklər. Artıq keçən il yanvarın 29-da ARDNF-yə 450 milyon dollar həcmində ilk bonus ödənişi həyata keçirilib.

Beləliklə, "Əsrin müqaviləsi"nin və "Yeni əsrin müqaviləsi"nin mənbəyi olan AÇG-nin salnaməsi uğurla davam edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ən islahatçı Prezident

**2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərindən bir il ötür. Xalqımız bu seçkidə öz tarixinin növbəti düzgün seçimini edərək ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolla, İlham Əliyevin rəhbərliyi ilə inkişafın davamına səs verdi.**



Bu seçim təkcə ən yeni tariximizin möhtəşəm nailiyyətləri ilə şərtlənmədi. Eyni zamanda, növbəti illərdə də Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamın təcəssümü kimi tarixə düşdü.

## “Opinion Way”in rəy sorğusu son bir ilin inkişaf proseslərindən xəbər verir

İlham Əliyevin möhtəşəm qələbəsinin səbəbləri çoxdur. İqtisadiyyatın inkişafı, infrastrukturun yenilənməsi, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, ordumuzun güclənməsi və sair bu kimi onlarla uğurlu göstərici İlham Əliyevin 16 illik fəaliyyətinin şərəfli səhifələridir. Bütün bunlarla yanaşı, İlham Əliyev daim insan və şəxsiyyət amilini ucaltmaqla hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirmişdir. Bu baxımdan ölkədə həyata keçirilən dövlət siyasətinin hər bir qolu eyni zamanda vətəndaşların rifahının və mənafeyinin təmin edilməsinə, qorunmasına xidmət edib.

Ötən il aprelin 11-də seçki məntəqələrinə gedən insanlar əmin idilər ki, inkişafa və xoşbəxt gələcəyə aparan bu siyasət növbəti 7 ildə də uğurla davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaq. Budur, artıq prezident seçkisinin birinci ildönümündə hər bir vətəndaşda fəxarət hissi yaradan, seçiminin nə qədər düzgün olduğunu göstərən kifayət qədər möhtəşəm göstərici var. Bu günlərdə Fransanın “Opinion Way” şirkətinin açıqladığı rəy sorğusunun nəticələri də son bir ildə ölkəmizdə gedən inkişaf proseslərindən xəbər verir. Sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Ölkədə etnik, dini və ictimai-siyasi zəmində sabitlik hökm sürüb, ictimaiyyətdə narahatlıq doğuran ciddi hallar müşahidə edilməyib.

“Opinion Way”in sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir. Ümumiləşmiş orta nəticələr onu göstərir ki, əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, İlham Əliyev ölkə seçicilərinin mütləq çoxluğunun, təxminən 83-85 faizinin səsini qazana bilər.

## İnkişaf həm də təkmil idarəetmə deməkdir

“Opinion Way”in “Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz” sualına sorğuda iştirak edənlərin 90,5 faizi bütövlükdə müsbət cavab verib. Bəli, Prezident İlham Əliyevin son bir ildəki fəaliyyətinin uğurlu nəticələrindən biri həyata keçirilən islahatlardır. Hələ 2018-ci ilin aprel ayının 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev demişdi: “Növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır”.

2019-cu ildən Prezidentin elan etdiyi islahatlar sürətlə reallaşmağa başladı. İlk qərarlar isə struktur islahatlarının aparılması barədə oldu. Məlumdur ki, inkişaf həm də təkmil idarəetmə deməkdir. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənib. Çünki inkişaf idarəçilik sisteminin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən strukturun formalaşdırılmasını tələb edir.

Bu gün dövlətimiz Prezident İlham Əliyevin çevik təşəbbüsləri ilə öz inkişafının yeni mərhələsini yaşayır. Əsas prioritet iqtisadiyyatda qeyri-neft sektorunun üstünlüyünü təmin etməkdir ki, artıq bu sahədə mühüm uğurlar var. Belə ki, son 3 ildə həyata keçirilən yeni islahatlar ölkədə tamamilə yeni iqtisadi münasibətlərin yaranmasına səbəb olub. Vergi və gömrük sahəsindəki yeniliklər, lisenziyaların verilməsinin və biznesə başlama prosedurlarının sadələşdirilməsi, yoxlamaların aradan qaldırılması, yerli istehsalın və onun ixracının dövlət tərəfindən stimullaşdırılması qeyri-neft sektorunun inkişafına səbəb olub. Təbii ki, bu cür iqtisadi inkişaf templəri idarəetmənin də optimallaşmasını, xidmətlərdə çevikliyin artırılmasını, o cümlədən xərclərin daha səmərəli olmasını zəruri edir. Yeni struktur islahatları da bu məqsədə xidmət edir. Struktur islahatlarına uyğun olaraq bəzi dövlət qurumları ləğv edildi. Bəziləri birləşdirildi və ya yeniləri yaradıldı.

Dövlət aparatının optimallaşması, paralel strukturların aradan qaldırılması və mövcud strukturların yenidən təşkili həm də büdcə vəsaitinə qənaət deməkdir. Struktur islahatları nəticəsində vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə dövlət xidmətləri daha əlçatan, səmərəli və keyfiyyətli olacaqdır. “Bir pəncərə” və rəqəmsallaşma kimi prinsiplər struktur islahatları boyunca keçən əsas xətdir.

## 3 milyon vətəndaşı əhatə edən sosial paket

Prezident İlham Əliyevin son bir ildəki fəaliyyəti boyunca diqqəti çəkən əsas məqamlardan biri də sosial məsələlərlə bağlı qəbul edilən qərarlardır. Bu baxımdan ötən bir ilin yekunları təsdiq edir ki, əhalinin sosial rifahının daha da gücləndirilməsi ölkədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Xüsusən bu ilin fevral ayında Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla pensiya və əməkhaqlarına, sosial müavinətlərə tətbiq olunan artımlar göstərdi ki, dövlət başçısı insan amilinə böyük önəm verir.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2018-ci ilin aprel seçkilərindən sonra imzaladığı ilk fərman şəhid ailələri ilə bağlı olmuşdu. Fərmana əsasən şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsinə başlanıldı. İlham Əliyevin yanvar ayının 28-də imzaladığı digər fərmanla 11 min manat birdəfəlik ödəmə alacaq şəhid ailələrinin əhatə dairəsi daha da genişləndi. 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi qərara alındı.

Bütün bunlarla yanaşı, Prezident İlham Əliyev şəhid ailələrinə verilən Prezident təqaüdünün məbləğini 242 manatdan 300 manata qaldırdı.

## Əməkhaqqı və əmək pensiyasının məbləği artırıldı

Sosial paketin əsas tərkib hissələrindən biri minimum əməkhaqqının artırılması oldu. Belə ki, minimum əməkhaqqının məbləği martın 1-dən 50 manat (38,4 faiz) artırılaraq 130 manatdan 180 manata çatdırıldı. Sərəncamdan əvvəl 400 min şəxs 180 manatdan az əməkhaqqı alırdı ki, onların da 67 faizi, yəni 270 mini dövlət sektorunda çalışırdı. Bu sərəncamdan sonra isə minimum aylıq əməkhaqqı yaşayış minimumuna bərabərləşdi.

Minimum əməkhaqqının məbləğinin artırılması 600 minədək insanı əhatə etdi ki, onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım oldu.

Milli Məclis də öz fəaliyyəti ilə Prezidentin sosial kursuna böyük töhfələr verir. Belə ki, Milli Məclisin fevralın 19-da qəbul etdiyi və cənab Pezidentin təsdiqlədiyi “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanuna əsasən bu il martın 1-dən əmək pensiyasının minimum məbləği 160 manat məbləğində müəyyən olundu. Dəyişiklik 233 min nəfərin pensiyasında hissolunacaq artıma gətirib çıxarıb. 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası 30 faiz artıb. Bütövlükdə isə əhalinin böyük bir qisminin pensiyası 38,5 faiz civarında artıb.

## 576,8 min nəfəri əhatə edən sərəncam

Prezidentin “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” sərəncamı isə ümumilikdə 576,8 min nəfəri əhatə etdi. Aprelin 1-dən qüvvəyə minən sərəncama uyğun olaraq sosial müavinətlər yaşa görə 130 manat, I qrup əlilliyə görə 150 manat, II qrup əlilliyə görə 130 manat, III qrup əlilliyə görə isə 110 manat müəyyənləşdi. Sərəncama əsasən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar 150 manat, ailə başçısını itirməyə görə ailə üzvlərinin hər biri 80 manat, 5-dən çox uşağı olan qadınlar hər uşaq üçün 55 manat sosial müavinət alacaqlar. Bunlarla yanaşı, müavinətlər uşağın anadan olmasına görə 200 manata, dəfn üçün isə 300 manata çatdırıldı.

Sərəncamla müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Prezidentin təqaüdü də təsis edildi. Müharibə əlilləri üçün Prezidentin təqaüdünün məbləği I qrup əlilliyə görə 182 manatdan 250 manata, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata qaldırıldı. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad (indi Sankt-Peterburq) şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Prezident təqaüdünün məbləği 150 manata çatdırıldı.

## Prezident çoxmərtəbəli binalarla bağlı problemi yoluna qoydu

Prezident İlham Əliyev “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” fərmanı ilə indiyə kimi tikilmiş, amma dövlət sənədi verilməmiş çoxmərtəbəli binalarda bu problemi də həll etdi və bu məsələyə birdəfəlik son qoyuldu. Bu fərman ümumilikdə 350-400 min insanı əhatə etdi.

Fərmana qədər Bakıda tikintisinin başa çatmasına və məskunlaşmalarına baxmayaraq, sakinlər yaşadıqları mənzillərlə bağlı çıxarış sənədləri ala bilmir və bu, onların mülkiyyət hüquqlarının pozulmasına səbəb olurdu.

Fərmana əsasən bundan sonra vətəndaşlar sahib olduqları mənzillərinin çıxarış sənədlərini qısa zamanda ala biləcəklər. Bununla da sakinlərin mülkiyyət hüquqları qısa müddətdə təmin olunacaq.

## Problemli kreditlərə son

Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərman isə uzun müddət müzakirə olunan və əhalini daha çox narahat edən sosial məsələni həll etmiş oldu. Bu fərmanın dünyada analoqu yoxdur. Burada ən vacib məqamlardan biri də odur ki, problemli kreditlərlə bağlı məhkəmə işləri dayandırıldı, məhkəmələrin qərar və qətnamələri qüvvədən düşdü. Bu da haradasa 311 mindən artıq məhkəmə işidir.

Bu fərman ümumilikdə 800 mindən artıq vətəndaşın problemini həll etdi.

## Sosial siyasət bütün vətəndaş qruplarını əhatə edir

Prezidentin fərman və sərəncamları ilə ali təhsil müəssisələrində təhsil alan tələbələrin təqaüdü, Prezident təqaüdü, doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin AMEA-nın magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlər artırıldı. Bu sənədlər 100 minə yaxın tələbəni əhatə etdi.

Əgər bu kateqoriyaya aid tələbələr martın 1-dək 185 manat təqaüd alırdılarsa, artıq bu məbləğ 210 manat təşkil edir. Bununla yanaşı, doktorantura pilləsi, yəni elmlər doktoru hazırlığı üzrə doktorantlara 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara 180 manat, ali təhsil müəssisələrində və Milli Elmlər Akademiyasında adlı təqaüd alan tələbələrə 170 manat, peşə təhsili müəssisələrinin tələbələrinə 50 manat ödəniləcək.

Sosial paketdə məcburi köçkünlər də unudulmadı. Bu kateqoriya vətəndaşlara verilən aylıq müavinətlər 50 faiz qaldırıldı. Sərəncama qədər məcburi köçkünlərdən 81 min 476 nəfəri 22 manat, 415 min 81 nəfəri 40 manat məbləğində vahid aylıq müavinət alırdı. Aprelin 1-dən isə həmin məbləğlər, müvafiq olaraq, 33 və 60 manat təşkil etdi.

Dövlət başçısı fevralın 5-6-da Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün ilkin mərhələdə 2 milyon manat, sonra isə yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi üçün Prezidentin Ehtiyat Fondundan 11 milyon manat vəsait ayırdı. Azərbaycan Prezidenti bu hadisəyə operativ və çevik reaksiya verməklə öz vətəndaşının taleyinə biganə qalmadığını nümayiş etdirdi. Bu, bir daha onu göstərdi ki, dövlət başçısı hər zaman öz vətəndaşlarının yanındadır və baş verən istənilən ekstremal hadisə zamanı, çətin vəziyyətlərdə ölkəsinin vətəndaşını tək qoymur, maddi və mənəvi dəstəyini onların üzərindən əsirgəmir.

Eyni fikirləri “Diqlas” ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar da söyləmək olar. Martın sonlarında Bakının Nizami rayonundakı “Diqlas” ticarət mərkəzində baş verən yanğın bir daha göstərdi ki, Azərbaycan dövləti hər zaman çətin vəziyyətlərdə öz vətəndaşına arxa durur. Prezident İlham Əliyev zərər çəkmiş sahibkarlara maddi dəstək göstərməklə, onlara dayaq olmaqla bütün dünyada ən mükəmməl sosial siyasət nümunəsi ortaya qoydu.

Bütün bunlar bir daha təsdiq edir ki, “Opinion Way” şirkətinin keçirdiyi sorğu real gerçəkliklərə, bütün vətəndaşların həyatında hiss olunan siyasətə, bəhrəsi göz qarşısında olan islahatlara əsaslanır.

*Prezident İlham Əliyevin əzmkar fəaliyyəti, hər bir sahədə inkişafa nail olmaq üçün keçirdiyi islahatlar uğurlu nəticələr verməklə Azərbaycanın son bir ildə dinamik yüksəlişinə və bütövlükdə ölkədə sosial rifahın daha da yaxşılaşmasına səbəb olub. Bu siyasətin qarşıdakı dövrdə daha böyük nailiyyətlərlə əlamətdar olacağı şübhəsizdir.*

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***



# Gənclər İlham Əliyevin siyasi alternativsizliyini birmənalı qəbul edirlər

**İnamla və böyük uğurlara imza atmaqla addımlayan respublikamız qısa zaman kəsiyində böyük uğurlar əldə edib, sosial-iqtisadi göstəricilərinə görə dünya miqyasında liderlər mövqeyinə yüksəlib. Eyni zamanda yerləşdiyi regionun iqtisadi və siyasi cəhətdən söz sahibi statusuna malik olan Azərbaycan beynəlxalq birlikdəki yerini möhkəmləndirib. İndi ölkəmiz tək regionda deyil, dünyada söz sahibi kimi çıxış edir.**

Təbii ki, bu gün Azərbaycanın qazandığı bütün nailiyyətlərin kökündə ulu öndər Heydər Əliyevin müəyyən etdiyi kursun son 16 ildə Prezident İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun olaraq böyük siyasi iradə ilə davam etdirilməsi dayanır. Ölkə vətəndaşları bu gün haqlı olaraq əldə edilən inkişafla, yüksək sosial rifahla və güclü Azərbaycan dövləti ilə fəxr edirlər. Bütün bunlara nail olmaq isə Prezident İlham Əliyevin ötən 16 ildəki fəaliyyətinin daimi prioritetləri olub. Ölkə rəhbəri qazanılan uğurlarla kifayətlənməyib və onun davamlı olması üçün əzmlə çalışıb.

Bu baxımdan cənab İlham Əliyevin hər bir prezidentlik dövrü onun xalqımıza verdiyi uğurlu hesabat kimi xarakterizə oluna bilər.

2018-ci ilin aprelində keçirilən son prezident seçkisində də xalqımızın etdiyi müdrik seçimin kökündə bu siyasətin dəstəklənməsi dayanırdı. Aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən Prezident İlham Əliyev inkişaf siyasətinin bundan sonra da davam etdiriləcəyini demişdi: *“Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabətqabiliyyətliliyinə görə biz 35-ci yerdəyik. Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir”.*

Ümumiyyətlə, cənab İlham Əliyevin son prezident seçkilərində qazandığı qələbə misilsiz olmaqla yanaşı, həm də bundan sonra onun rəhbərliyi altında görüləcək daha böyük, əzəmətli və genişmiqyaslı işlərə xalqın böyük inamının, güvəninin göstəricisidir. İlham Əliyevə verilən hər bir səs eyni zamanda Heydər Əliyev siyasi kursuna xalqın etimadını təcəssüm etdirirdi. Odur ki, bu seçkilərdə də xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşməklə Heydər Əliyev ideyalarının və siyasətinin davamına səs verdi. Bu mənada cənab İlham Əliyevin qələbəsi hər birimizin - Heydər Əliyev dövlətçilik xəttinə və Azərbaycanın müstəqilliyinə sadiq olan milyonların qələbəsi kimi tarixə düşdü.

Seçkidən ötən bir ildə Azərbaycanın inkişafı 12 aya sığmayacaq qədər möhtəşəm uğurlardan xəbər verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən dövlət siyasəti nəticəsində əldə olunan möhtəşəm nailiyyətlər ölkəmizin daha da inkişaf etməsi üçün yeni perspektivlər açmış və praktiki olaraq bunun nəticələri ötən bir ildə hiss olunmuşdur.

Dövlət başçısı praqmatik və rasional düşüncəli siyasətçi kimi xalqın gələcəyinin məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulamış, fəal milli maarifçilik xətti yeridərək dünya təhsil sisteminə inteqrasiyanı vacib saymışdır. Azərbaycan gənclərinin sağlam ruhda böyüməsi və ölkəyə layiqli vətəndaşlar kimi yetişməsi, intellektual səviyyəsinin yüksəldilməsi üçün ölkə rəhbərliyi tərəfindən ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

Dövlət başçısının bugünün gəncliyinə ünvanlanmış “Gənclərə müraciət edirəm! Mən sizinləyəm, mən sizi həmişə dəstəkləmişəm. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm” sözləri əslində Azərbaycan gəncliyinin qarşısında açılan aydın üfüqlərdir.

Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsini sosial siyasət təşkil edir. Ölkəmizin davamlı inkişafından, iqtisadi potensialının güclənməsindən ötrü bütün respublika boyu sosial infrastruktur yaradılması, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması, maddi təminatlarının möhkəmləndirilməsi məqsədilə səmərəli şəkildə istifadə olunur. 2019-cu ilin fevral ayında həyata keçirilən sosial islahatlar bunu bir daha təsdiq etdi. 3 milyon vətəndaşa şamil olunan sosial paket Azərbaycanda insan amilinin sosial siyasətin fövqündə dayandığını göstərdi.

Azərbaycan Prezidenti hər zaman çətin vəziyyətə düşən vətəndaşa arxa durur. Fevral ayında respublikanın şimal bölgəsində baş verən zəlzələdən dərhal sonra Prezidentin Şamaxıya səfəri, insanlara təskinlik verməsi və yeni mənzillərin tikilməsi ilə bağlı sərəncamların imzalanması əsl liderlik örnəyi idi.

Martın sonlarında Bakının Nizami rayonundakı “Diqlas” ticarət mərkəzində baş verən yanğın nəticəsində zərər çəkmiş sahibkarlara münasibətdə bunun şahidi olduq. Prezident İlham Əliyev zərər çəkmiş sahibkarlara maddi dəstək göstərməklə, onların yanında olmaqla bütün dünyada ən mükəmməl sosial siyasət nümunəsi göstərdi.

Bütün bunlar dövlət başçısının hər bir vətəndaşın taleyinə həssaslıqla yanaşmasının, diqqət və qayğısının təcəssümüdür. Eyni zamanda insanlar bir daha əmin oldular ki, Prezident İlham Əliyev kimi güvənc yerləri var.

Bütövlükdə ötən bir il Azərbaycan üçün uğurlarla əlamətdardır. Hələ ötən il aprelin 11-də öz səsini cənab İlhah Əliyevə verən hər bir vətəndaş perspektivdə dövlətin və özünün həyatında daha böyük nailiyyətlərin olacağını bilirdi. Budur, son bir ilin uğurlu sosial-iqtisadi göstəriciləri xalqın öz seçimində heç vaxt yanılmadığını tam təsdiq edir.

Bunu aprelin 9-da Fransanın “Opinion Way” şirkətinin bu ilin martında Azərbaycanda keçirdiyi rəy sorğusu da bir daha təsdiqləmişdi. Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahat kursuna, daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə keçirilən geniş rəy sorğusu dövlət başçısının yenə də öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiqlədi.

Rəyi soruşulanların 80,1 faizi hesab edir ki, ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılması Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsidir. Respondentlərin 85,1 faizi dövlət başçısının son bir ildə gördüyü işləri yüksək dəyərləndirib. Sorğunun ümumi nəticəsi də onu göstərir ki, bu gün ölkədə yenidən prezident seçkiləri keçirilərsə, İlham Əliyev seçicilərin 85 faizinin səsini qazanaraq bir daha alternativsiz lider olduğunu təsdiqləyəcək.

Göründüyü kimi, xalq Azərbaycan dövlətinin qazandığı bütün bu uğurlarda İlham Əliyev fenomenini xüsusi vurğulayır. Çünki ölkədə sabitliyi, dinamik inkişafı təmin etmək üçün ilk növbədə vətəndaş həmrəyliyi, qarşılıqlı münasibətləri normallaşdıran, cəmiyyətdə sağlam iqlim yaradan cənab İlham Əliyev insanlar arasında dövlətə, dövlətçiliyə inam, etibar hissini daha da gücləndirib.

**Günel MƏLİKLİ,**
***AMEA-nın Fəlsəfə İnstitutunun elmlər doktoru proqramı üzrə doktorantı, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Hafiz Paşayev Macarıstanın ali ordeni ilə təltif edilib





Azərbaycanın xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev Macarıstanın ali ordeni ilə təltif olunub.



Universitetdən AZƏRTAC-a bildirilib ki, "Macarıstanın Xidmətlərinə görə Komandor Xaçı"nı Hafiz Paşayevə Macarıstanın Azərbaycandakı səfiri Viktor Sederkenyi təqdim edib. ADA Universitetində keçirilən mərasimdə səfir ölkəsinin Prezidenti Yanoş Aderin adından təbrikləri çatdırıb və mükafatı təqdim edib. O vurğulayıb ki, Hafiz Paşayev bu ali ordenə Macarıstan-Azərbaycan əməkdaşlığının strateji səviyyəyə çatdırılması, ölkələrimiz arasında mədəni və elmi sahədə münasibətlərin möhkəmləndirilməsində töhfəsinə görə layiq görülüb.

Mükafata görə təşəkkürünü ifadə edən Hafiz Paşayev bildirib ki, ali ordeni bütün ADA Universiteti adından qəbul edir və bundan sonra iki ölkənin elmi icmasını yaxınlaşdırmaq üçün daha həvəslə səy göstərəcək. O deyib: "Hər iki tərəf üçün mümkün sayda çox tələbə təhsilləndirmək vacibdir ki, gələcəyimiz əmin əllərdə olsun".

Mərasimdən sonra işçi görüş zamanı səfir Viktor Sederkenyi bu günlərdə Azərbaycana səfər edən Macarıstanın xarici siyasət və ticarət naziri Peter Siyartonun ADA Universitetindəki çıxışı barədə yüksək təəssüratını bölüşüb. O qeyd edib ki, nazir ADA-nın tələbə və müəllim heyəti qarşısındakı çıxışını və daha sonra dinamik sual-cavab sessiyasını səfərinin yaddaqalan hissəsi kimi xatırlayır.

Rektor Hafiz Paşayev səfirlə söhbəti zamanı hələ Sovet İttifaqı dövründə Macarıstana alim kimi etdiyi mübadilə səfərini xatırlayıb və bildirib ki, Macarıstan elmi, xüsusilə də nüvə fizikası sahəsi yüksək səviyyəli mütəxəssisləri ilə seçilirdi.

Tərəflər ADA Universitetinin Macarıstanın hazırda üç ali təhsil ocağı ilə imzaladığı əməkdaşlıq anlaşmalarının nəticələrini nəzərdən keçirib, artan sayda tələbə və müəllim heyəti üzvünün mübadilə proqramlarında iştirakını məmnunluqla qeyd ediblər. Vurğulanıb ki, ADA Macarıstan universitetlərinə 27 nəfər göndərməklə, qarşı tərəfin 7 tələbəsini mübadilə semestrlərinə qəbul edib. Tərəflər bu rəqəmləri daha da artıracaqlarını bildiriblər. ADA Universitetində Vışeqrad Qrupunun 25 illik yubileyinin elmi konfransla qeyd edilməsi də əməkdaşlığın uğurlu nəticələrindən biri kimi qeyd olunub.

# Milli Məclisin Mədəniyyət komitəsinin iclası keçirilib

Aprelin 10-da Milli Məclisin Mədəniyyət komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədr müavini Jalə Əliyeva əvvəlcə aprel ayında baş verən, ölkəmiz üçün əhəmiyyətli olan bir neçə hadisə barədə danışıb. Bildirib ki, aprel ayı Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunub. 2016-cı ilin Aprel zəfəri tariximizin şanlı səhifələrindən biri oldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin iradəsi və qətiyyəti, şanlı ordumuzun qələbə əzmi sayəsində bayrağımızı düşmən tapdağından azad olunmuş torpaqlarımıza sancdıq.

Bundan başqa, aprel ayını hər birimiz üçün mühüm edən daha bir başlıca amil bir il əvvəl aprelin 11-də ölkədə keçirilən növbəti prezident seçkiləridir. Ötən il Azərbaycan bir daha dünyaya xalq-iqtidar birliyini, prezident-vətəndaş həmrəyliyini sübut etdi. Təsadüfi deyil ki, son bir il tariximizdə islahatlar ili kimi yadda qalıb. Bu islahatların təməlində isə, əlbəttə ki, insan amili dayanır. Sosial-iqtisadi sahədə atılan hər bir addım, imzalanan hər bir fərman və sərəncam Azərbaycan vətəndaşının daha yaxşı yaşamasına hesablanıb.

Jalə Əliyeva vurğulayıb ki, aprel ayını bizim üçün əhəmiyyətli edən hadisələrdən danışarkən bir neçə gün əvvəl on milyonuncu vətəndaşımızın dünyaya gəlməsini də qeyd etmək lazımdır. Bu hadisə hər birimizi çox sevindirdi.

Sonra gündəlikdə duran məsələyə baxılıb.

İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin təyin edilməsi məsələsi müzakirə olunub. İclasda iştirak edən Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmov bildirib ki, "İctimai televiziya və radio yayımı haqqında" Qanunun 17.4-cü maddəsinə uyğun olaraq İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına idman federasiyaları, dini konfessiyalar və yaradıcılıq təşkilatları tərəfindən irəli sürülmüş namizədlərin 2019-cu il aprelin 19-da altıillik səlahiyyət müddətinin başa çatması ilə əlaqədar yeni namizədlərin irəli sürülməsi ilə bağlı Milli Televiziya və Radio Şurası tərəfindən "Milli Televiziya və Radio Şurası haqqında Əsasnamə"nin 7.4-cü, "İctimai televiziya və radio yayımı haqqında" Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin fərmanının 3.1-1-ci bəndinə müvafiq olaraq təşkilati tədbirlər görülüb. 2019-cu ilin mart ayında keçirilmiş iclaslar nəticəsində 5 şəxs İctimai Televiziya və Radio yayımları Şirkəti Yayım Şurasına namizəd seçilib. İrəli sürülmüş namizədlər arasından hər təşkilatdan bir nəfər olmaqla 6 il müddətinə təsdiq ediləcək.

Deputatlar Hüseynbala Mirələmov, Elmira Süleymanova, Ziyad Səmədzadə, Novruzəli Aslanov, Gövhər Baxşəliyeva namizədlər barədə fikirlərini söyləyib, onların fəaliyyətini müsbət dəyərləndiriblər. Deputatlar, həmçinin müasir Azərbaycan teleməkanındakı vəziyyətlə bağlı fikirlərini bölüşüblər, mövcud nöqsanların aradan qaldırılmasının vacibliyinə toxunublar. Verilişlərin keyfiyyətinin və tamaşaçı zövqünün yüksəldilməsi zərurəti qeyd olunub. Tarixi mövzuda dəyərli film və serialların çəkilməsi, sosial reklamlardan səmərəli istifadə olunması və s. təklif edilib. Vurğulanıb ki, aşağı keyfiyyətli, mentalitetimizə uyğun olmayan, bəsit verilişlərin efirdən çıxarılması üçün ictimai qınaq önə keçməlidir.

Fikir mübadiləsinin yekununda baxılan məsələ Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# On milyonuncu vətəndaşın doğum haqqında şəhadətnaməsi valideynlərinə təntənəli surətdə təqdim olunub

Bu il aprelin 6-da respublikamızın on milyonuncu vətəndaşının dünyaya gəlməsi ilə Azərbaycan demoqrafik inkişaf baxımından nəinki keçmiş sovet ittifaqı dövlətləri, həmçinin bir çox Avropa ölkələri arasında liderə çevrilib.

Bu əlamətdar hadisə münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan xalqını və körpənin valideynlərini təbrik edərək xeyir-dua veriblər.

AZƏRTAC xəbər verir ki, aprelin 10-da körpənin valideynləri Rauf Həsənov və Nigar Ocaqova Ədliyyə Nazirliyinin Bakı şəhəri Nərimanov rayon qeydiyyat şöbəsinə gələrək ilk övladlarının adını məhz Mehriban xanım Əliyevanın şərəfinə Mehriban adlandırdıqlarını bildiriblər.



Valideynlər Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın analara və uşaqlara daim həssaslıqla yanaşdığını qeyd edib, onlara göstərilən qayğıya görə dövlət başçısına və xanımına minnətdarlıqlarını ifadə ediblər.

Qeydiyyat şöbəsinin rəisi Səadət İsmayılova on milyonuncu vətəndaşımız Mehriban Həsənovanın doğum haqqında şəhadətnaməsini təntənəli surətdə valideynlərinə təqdim edib.

Sonda valideynlər təbrik edilib, onlara xatirə hədiyyəsi təqdim olunub, övladlarına uzun ömür və uğurlu gələcək arzulanıb.

# BELTA agentliyi Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi ilə bağlı geniş məqalə yayıb

Belarusun dövlət xəbər agentliyi olan BELTA Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi ilə bağlı geniş məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Belarusdakı səfirliyinin fəaliyyəti nəticəsində rəsmi məlumatlara istinad olunmaqla dərc edilən məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın aprelin 9-da Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşdükləri qeyd olunub.

Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin görüşdəki fikirləri yer alıb. Vurğulanır ki, Prezident İlham Əliyev Həsənova Mehribanın valideynlərinə onun Azərbaycanın 10 milyonuncu sakini olması barədə sertifikatı və mənzilin çıxarışını təqdim edib.

# "AzerTelecom" Transxəzər magistralı layihəsinin icrasına başladı

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkəti Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün həyata keçirdiyi "Azerbaijan Digital Hub" proqramı çərçivəsində Transxəzər layihəsinin bir həssəsi olan Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiber-optik magistral kabel xəttinin çəkilişi layihəsinə başlayıb.

Bu məqsədlə Azərbaycan tərəfdən "AzerTelecom" şirkəti və Qazaxıstan tərəfdən Transtelekom və KazTransCom şirkətləri arasında ümumi uzunluğu 380-400 km olacaq Transxəzər magistralının çəkilməsi ilə bağlı Konsorsium təsis edilib, birgə İşçi qrup yaradılıb, tikinti üzrə müvafiq müqavilə imzalanıb.

Layihənin icrası üçün Azərbaycan və Qazaxıstan arasında "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" dövlətlərarası Saziş imzalanıb və müvafiq olaraq Azərbaycan dövləti tərəfindən təsdiqlənib.

Mühüm strateji əhəmiyyət daşıyan bu layihənin reallaşmasına nüfuzlu beynəlxalq konsaltinq və telekommunikasiya şirkətləri olan McKinsey and Company, Detecon, Axiom, DLA Piper, Huawei, PwC kimi şirkətlər də cəlb olunub.

Transxəzər fiber-optik magistralının çəkilişi "AzerTelecom" şirkətinin həyata keçirdiyi "Azerbaijan Digital Hub" (ADH) proqramının bir hissəsidir. Bu proqram çərçivəsində Transxəzər fiber-optik magistralının çəkilişi Avropa ilə Asiya arasında Azərbaycandan keçməklə rəqəmsal dəhlizin yaradılmasına mühüm töhfə verəcəkdir və Azərbaycanı regionun Enerji və Nəqliyyat mərkəzinə paralel olaraq həmçinin Rəqəmsal Mərkəzinə (Digital Hub) çevirəcəkdir. Transxəzər fiber-optik magistralının ümumilikdə regionun fiber-optik kabel infrastrukturunun inkişafında, Qafqaz, Yaxın Şərq, Orta Asiya və Cənubi Asiya, eləcə də digər ətraf regionların yüksək sürətli internet bağlantısı və qabaqcıl rəqəmsal xidmətlərlə təmin edilməsində müstəsna rolu olacaqdır.

Bu layihənin icrası həmçinin Çinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" (BRI) layihəsinə də öz töhfəsini verəcək və Azərbaycanı "Belt and Road Initiative" (BRI) layihəsinin telekommunikasiya dəhlizinə çevirəcəkdir.

Azərbaycanın Rəqəmsal Mərkəzə (Digital Hub) çevrilməsi ölkəmizin telekommunikasiya ekosisteminin dünya standartları səviyyəsinə çatdırılması, internetin Orta və Cənubi Asiya, Yaxın Şərq, eləcə də digər ətraf regionlara verilməsində tranzit ölkə və Rəqəmsal Mərkəz olması deməkdir. Bu, həmçinin Azərbaycanın Avropa ölkələrindən Çinə qədər olan fiber-optik magistral infrastrukturu şəbəkəsində mərkəzi mövqe əldə etməsidir. Azərbaycanın "Digital Hub"a çevrilməsi ilə perspektivdə dünyanın İnternet xəritəsinə London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam, Dubay ilə yanaşı Bakı şəhəri də əlavə olunacaqdır. Layihə dünya miqyaslı qlobal rəqəmsal xidmətlər təchizatçıları olan korporasiyaların (Apple, Amazon, Alibaba, Google, Facebook, Netflix və s.) Azərbaycana gəlməsi, ölkəmizin kiber-təhlükəsizliyinin yüksəldilməsi, yeni iş yerlərinin açılması, kiçik və orta sahibkarlığın inkişafı, Qafqaz, Orta və Cənubi Asiya, Yaxın Şərq və digər ətraf regionlarda yaşayan 1.8 milyard əhalinin (dünya əhalisninin 1/4-i) internet və rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsi, bu region dövlətlərinə Azərbaycandan müxtəlif rəqəmsal xidmətlərin "Made in Azerbaijan" brendi altında ixrac edilməsinə öz töhfəsini verəcəkdir.

"AzerTelecom" Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və ölkənin ilk mobil operatoru - Bakcell şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. "AzerTelecom" şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şikrət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxalq tranzit, DDoS hücumdan müdafiə, VPN, FTTx, Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətləri təqdim edir.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Vergilər Nazirliyi qrafik, video və qrafik video çarxların, video təlimatların və reportajların hazırlanması, reklamların internetdə (sosial şəbəkələrdə) yerləşdirilməsi, dizayn, dizayna düzəlişlərin edilməsi və fərdiləşdirmə işlərinin satın alınması üçün

## *açıq tender elan edir*

Müvafiq maliyyə və texniki imkanlara malik olan tender iştirakçıları tender təkliflərini yazılı şəkildə, möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanına təqdim etməlidirlər.

Tender təklifi zərfləri 23 may 2019-cu il tarixində yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 (doxsan) bank günü qüvvədə olmalıdır);*
- *İştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *İştirakçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İştirakçının son 1 (bir) ildəki bank dövriyyəsi haqqında arayış;*
- *İştirakçının ixtisas göstəricilərinə dair sənədlər;*
- *İştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *İştirakçının bank rekvizitləri barədə məlumat;*
- *İştirakçının rəhbərinin şəxsiyyətini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti;*
- *Satınalma müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edəcək və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri barədə məlumat;*
- *Tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 14 may 2019-cu il, saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 1 000,00 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Hesab №: AZ65CTRE00000000000002118401**
**VÖEN: 1300204521**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T.BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tender təklifi və tender təklifinin təminatı 22 may 2019-cu il, saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri tender komissiyasının iclasında iştirak edə bilərlər.

Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti: satınalma müqaviləsinin imzalandığı tarixdən 31 dekabr 2019-cu il tarixinədək.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:
**AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi 16, Azərbaycan Respublikası Vergilər Nazirliyi**
**Əlaqələndirici şəxs: Gülbahar Qasımova, e-mail: gulbaxar.qasimova@taxes.gov.az, tel: (+994 12) 403-87-91.**

***Tender komissiyası***

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

AZƏRTAC Müdafiə Nazirliyinə istinadla xəbər verir ki, Ermənistanın İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# REGİONLAR



## Cəbhə bölgəsində əhaliyə nümunəvi mədəni xidmət göstərilir







Təbiətin nazlı gəlini baharın müjdəsini gətirən mart ayının ilk günündə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə keçirdikləri tarixi görüş gündəmin əsas mövzusudur.

Cəbhə bölgəsində yerləşən Tərtərin dövlətin qayğısından güc alaraq sosial-iqtisadi inkişafın bütün istiqamətlərində və mədəniyyət sahəsində böyük uğurlar qazanması rayon sakinlərində razılıq yaradır, fərəh doğurur. Xalqların tanınmasında mədəniyyətin rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: “Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik. Bizim mədəniyyətimiz qürur mənbəyimizdir. Biz mədəniyyətimizi qoruyuruq və çox şadam ki, çox gözəl gənc nəsil yetişir. Bizim gənc nəsil artıq həm müasir musiqini öyrənir, həm də öz milli köklərinə çox sadiqdir. Azərbaycanda keçirilən, həm yerli, həm də beynəlxalq iştirakçıların qatıldığı muğam festivalları, muğam müsabiqələri çox böyük maraq doğurur və bütün bölgələrdən olan gənclər, uşaqlar, yeniyetmələr çalışırlar ki, o müsabiqələrdə iştirak etsinlər, özlərini göstərsinlər. Bu, çox əlamətdar hadisədir”.

Dövlətimizin güclənən iqtisadiyyatı xalqımızın milli sərvəti olan mədəniyyətin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün də stimul yaratmışdır. Son illər ölkəmizin paytaxtı Bakıda olduğu kimi bölgələrdə də muzeylər inşa olunmuş, köhnə teatr binaları, mədəniyyət evləri... zövqlə əsaslı şəkildə təmir edilmişdir.

Prezident İlham Əliyevin cəbhə bölgəsi olaraq hər zaman xüsusi qayğı və diqqət göstərdiyi Tərtər rayonu da son illər təsərrüfat, tikinti, abadlıq-quruculuq sahəsində olduğu kimi mədəniyyətin inkişafında da böyük uğurlara imza atmışdır.

Rayon mərkəzi abadlığı, səliqə-sahmanı ilə göz oxşayır. Şəhərdə milli memarlıq üslubunda inşa edilmiş Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Gənclər Mərkəzi, əsaslı təmirdən sonra müasir görkəm almış Mədəniyyət Evi daha çox diqqət çəkir.

Dövlətin qayğısından güc alan, yaradılan imkan və şəraitdən məqsədyönlü şəkildə faydalanan mədəniyyət işçiləri tapşırılan vəzifəni layiqincə yerinə yetirmək bacarıqlarını əsirgəmir, səmərəli yaradıcılıq axtarışları edir, rayon əhalisinə nümunəvi mədəni xidmət göstərmək üçün inamla çalışırlar. Müəyyən edilmiş hədəflərə uyğun olaraq uşaqların və yeniyetmələrin istedadlarının erkən yaşlarında aşkar edilməsi məqsədilə rayonun mədəniyyət müəssisələrində vaxtaşırı müsabiqələr, yarışlar və festivallar təşkil olunur. Aşkar edilən istedadlı uşaqların bilik və bacarıqlarını artırmaları üçün onlar mədəniyyət müəssisələrinin nəzdində fəaliyyət göstərən kurs və dərnəklərə cəlb edilir, xüsusi qayğı və diqqətlə əhatə olunurlar.

Azərbaycanın tarixində müstəsna xidmətləri olmuş şəxsiyyətlərin, ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmanlıq nümunəsi göstərmiş döyüşçülərin, o cümlədən tərtərli milli qəhrəmanlar Elman Hüseynovun, Vəzir Orucovun şərəfli döyüş yolu, qürurverici vətənpərvərlik missiyası rayonun mədəniyyət müəssisələrində geniş təbliğ olunur. Bu isə öz növbəsində gənc və yeniyetmələrin fəal vətəndaş, əsl vətənpərvər kimi formalaşmasına əhəmiyyətli təsir göstərir. Rayon mədəniyyət mərkəzində, mərkəzi kitabxanada, Heydər Əliyev Mərkəzində “Gənclər gələcəyin qarantıdır”, “İnkişaf edən gənclik” adlı “dəyirmi masa”lar, gənc rəssamların əl işlərindən ibarət sərgilər, aktual mövzularda keçirilən diskussiyalar, söhbətlər gənc və yeniyetmələrin intellektual səviyyəsinin yüksəlməsində, müasir dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

Tarix-Diyarşünaslıq Muzeyi Tərtərin mədəniyyət müəssisələri sırasına yeni daxil olub. Şəhərin mərkəzində, Heydər Əliyev prospektində ucaldılmış bu yaraşıqlı bina şəhərin simasına yeni naxış vurur. Burada toplanmış eksponatlar ziyarətçilərdə böyük maraq doğurur, xalqımızın, dövlətimizin şanlı keçmişinə dair elmi məlumatlar verir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2019-cu ilin “Nəsimi ili” elan olunması Tərtərin mədəniyyət işçilərinin fəaliyyətinə yeni istiqamət vermişdir. Bu məqsədlə xüsusi plan hazırlanmış, keçiriləcək mədəni-kütləvi tədbirlər müəyyənləşdirilmişdir. Böyük Azərbaycan şairi Nəsimini daha yaxından tanımaq, onun yaradıcılıq fəlsəfəsini geniş təbliğ etmək üçün rayonun mədəniyyət müəssisələrində poeziya axşamları, bədii qiraətlər, şairin həyat və yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiyalar keçirməyə artıq start verilmişdir.

Bərdə Regional Mədəniyyət İdarəsinin Tərtər rayonu üzrə nümayəndəliyinin qayğılı günləridir. Baharın gəlişi mədəniyyət işçilərinin fəaliyyətində qeyri-adi bir canlanma yaratmışdır. Rayonda “Bahar nə xoş gəlir...” adlı geniş ədəbi-bədii kompozisiya hazırlanmışdır. Möhtəşəm Novruz şənliyi ötən illərdə olduğu kimi, yenə də şəhərin mərkəzi meydanında keçiriləcək. Tərtər rayonu üzrə mədəniyyət nümayəndəliyinin rəhbəri Ceyhun İsmayılzadə bizimlə söhbətində dedi:

- Martın 1-də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizin tanınmış mədəniyyət və incəsənət xadimləri ilə görüşü respublikada mədəniyyətin inkişafına dövlət səviyyəsində verilən böyük önəmin, göstərilən qayğı və diqqətin parlaq ifadəsidir. Bu isti münasibət bizi üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə ruhlandırır. Rayonumuz cəbhə bölgəsində yerləşsə də, mədəniyyət sahəsində güclü maddi-texniki baza yaradılmışdır. Biz bu imkandan yararlanaraq rayon əhalisinə göstərilən mədəni xidmətin səviyyəsini hər vasitə ilə yüksəltməyə çalışırıq. Rayonun ictimai-siyasi həyatındakı bütün mədəni-kütləvi tədbirlərdə fəal iştirak edirik. Ərazidə yerləşən hərbi hissələri də fəaliyyət dairəsinə daxil edə bilərik. Bir qayda olaraq ərazidəki hərbi hissələrdə Yeni il şənliyi, Novruz bayramı, hərbi hissələrin yaranma günlərində, Müdafiə Nazirliyinin “Açıq qapı” tədbirlərində, andiçmə mərasimlərində konsert proqramları ilə iştirak edirik.

Ölkəmizin iqtisadiyyatının inkişafı hər bir ölkə vətəndaşında olduğu kimi, biz mədəniyyət işçilərində də böyük ümidlər doğurur. Bəzi kəndlərimizdə mədəniyyət müəssisələrinin təmirə ciddi ehtiyacı var. Belə mədəniyyət müəssisələrinin yararsız vəziyyətə düşməsinin əsas səbəbi isə uzun illərdən bəri orada qaçqın və məcburi köçkün soydaşlarımızın məskunlaşması olmuşdur. Dövlətimizin sürətlə artan iqtisadi gücü sayəsində, şübhəsiz ki, bu problemlər də tezliklə aradan qaldırılacaq.

Dövlət başçısının mədəniyyətə verdiyi yüksək dəyər təbii ki, hər bir mədəniyyət işçisinin üzərinə məsul və şərəfli vəzifələr qoyur. Əmək meydanında, Qarabağ döyüşlərində gerçək qəhrəmanlıq nümunəsi göstərən tərtərlilər mədəniyyətimizin inkişafına da öz sanballı töhfələrini verirlər.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***




Xalçaçılıq Azərbaycanın qədim və ənənəvi sənət növlərindən sayılır. Xalq tətbiqi sənətinin qollarından olan xalçaçılıq milli mədəniyyət tariximizdə özünəməxsus yer tutur. Xalça xalqımızın məişətində təkcə qiymətli əşya deyil, həm də sənət əsəri, gözəllik daşıyıcısı, müalicə vasitəsidir.

## Qazax xalçasının şöhrətini qaytaranlar



Bu yerdə görkəmli alim və yazıçı Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” əsəri yada düşür. Əsərdə Sona xalanın dili ilə deyilən “İtə ataram, yada satmaram” el məsəli xalçanın azərbaycanlılar üçün nə qədər əhəmiyyətli olmasını əks etdirir.

Arxeoloji materiallara və yazılı mənbələrə əsaslanaraq demək olar ki, Azərbaycanda xalçaçılıqla tunc dövründən məşğul olmağa başlamışlar. Minilliklər ərzində Azərbaycanın müxtəlif bölgələrində toxunan xalçaların xüsusiyyətlərini əks etdirən bir neçə xalçaçılıq məktəbləri formalaşmışdır ki, onlardan biri də Qazax xalçaçılıq məktəbidir. Müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar Qazax məişətində geniş istifadə edilib. Deyilənə görə, hələ keçən əsrin əvvəlində burada yaşayan hər bir Azərbaycan ailəsi ildə 4-5 xalça toxuyardı. Cavan gəlinlərin özlərinə cehizlik xalçalar toxuması isə buranın el adəti idi. Qədim zamanlarda qıza elçi gələndə onun həm də xalça-palaz toxumaq qabiliyyətinə qiymət verirlərmiş. Elçilər onun toxuduğu xalçalara baxmaqla təkcə qabiliyyətini deyil, həm də xasiyyətini müəyyənləşdirirmişlər.

Orta əsrlərdə Qazax xalçaları Gəncə, Bərdə, Bakı, Tiflis bazarlarında geniş yayılmışdı. Bu xalçalar başqa bölgələrin xalçalarına nisbətən ucuz olsa da, öz keyfiyyəti ilə seçilirdi. Həm ucuz və həm də orijinal çeşidinə görə əcnəbilər ona daha çox maraq göstərmişlər. Məhz bunun nəticəsidir ki, hazırda Qazax xalçaları dünyanın bir çox məşhur muzeylərində saxlanılır. Məsələn, XIV əsr Qazax xalçası Berlinin İncəsənət Muzeyində, XVIII əsr xalçaları Nyu Yorkun Metropol, Londonun Viktoriya və Albert, Budapeştin İncəsənət muzeylərində və digər yerlərdə nümayiş etdirilir.

Qazax xalçalarının naxışları orta əsrlərdə Avropa rəssamlarının da marağına səbəb olmuşdu. İtalyan rəssamı Karlo Krivelonun Londonun Milli Qalereyasında saxlanılan “Müjdə” (1486), alman rəssamı Hans Holbeynin “Elçilər” (1533) əsərlərində bu xalçaların təsviri verilmişdir.

SSRİ dağılandan sonra təəssüf ki, Azərbaycanda bir çox sahələr kimi xalçaçılıq da tənəzzülə uğradı. Xalça istehsalı azalmaqla yanaşı, onun satışı da aşağı düşdü. Nəticədə milli-mənəvi dəyərlərin təbliğində əhəmiyyətli rol oynayan xalça istehsalı demək olar dayandı.

Lakin Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində bu vacib sahə yenidən bərpa olundu. Xalçaçılıq ənənələri olan bölgələrdə “Azərxalça” ASC-nin filialları açıldı. Belə filiallardan biri Qazax rayonunda fəaliyyətə başladı. Bunun da nəticəsində vaxtilə şan-şöhrəti dünyaya yayılmış Qazax xalçalarının istehsalı yenidən bərpa edildi.

Müəssisə 150 nəfər üçün nəzərdə tutulsa da, hazırda filialda 90 nəfər çalışır. Bu yaxınlarda kurslara cəlb edilmiş daha 10 nəfər toxucu da burada fəaliyyətə başlayacaq. Ümumiyyətlə, filialda işləyən bütün toxucular kurslardan keçmişlər. Onlar müəssisə inşa edilərkən müxtəlif bölgələrdəki kurslarda iştirak etmiş, sənətin sirlərini mənimsəmişlər. Bundan başqa, qazaxlı toxucular arasında yaşlı nəslin nümayəndələri də var ki, onlar da gənc qızlara bu peşəni öyrənməkdə yaxından kömək göstərirlər.

Xalidə Yolçuyevanın 60 yaşı var. Həyatı boyu xalça toxumaqla məşğul olub, zəngin təcrübə qazanıb. İndi Gülbahar Mustafayevaya, Sevinc Hüseynovaya, Şahnaz Əliyevaya xalça toxuculuğunun sirlərini öyrədir. Təcrübəli toxucu Qənirə Əbdürrəhmanovanın da bu sənətdə böyük təcrübəsi var. Deyir ki, sağ olsun, dövlət başçısını, ölkəmizdə xalça toxuculuğu itib-batmışdı: “Onun səyi ilə bu vacib sahə yenidən dirçəldi. İndi həm ata-baba peşəmizi davam etdirir, həm də ailəmizin dolanışığını təmin edirik. Əməkhaqqımız toxuduğumuz xalçaya görə ödənilir”.

Filialda çalışanlar üçün hər cür rahatlıq təmin edilmişdir. İşçilər müəssisənin xüsusi avtobusu ilə işə gətirilib aparılır. Burada yeməkxana, tibb otağı, kitabxana, duşxana var. İşçilərin istirahəti üçün yerlər yaradılmışdır.

Filialda əlillər üçün də xüsusi şərait var. Sahibə Xəlilova və Rübabə Mahmudova söhbət zamanı dedilər ki, heç ağlımıza da gətirməzdik ki, burada çalışa bilək: “Ancaq gəlib görəndə əmin olduq ki, bizim dövlət əlillərin qayğısına qalır. Toxuculuq oturaq iş olduğu üçün işdə heç bir çətinliyimiz yoxdur”.

Müəssisədə şəhid ailələrinə də xüsusi qayğı ilə yanaşılır. Şəhid olmuş Niftalı İbrahimovun qızı Humay burada toxuculuqla məşğuldur. Ona göstərilən xüsusi hörmət və qayğıdan razıdır: “Burada hamı bir ailənin üzvü kimidir. Hamı bir-birinə mehriban və qayğıkeşliklə yanaşır”.

Bu xanımların barmaqları ilə ərsəyə gələn nəfis xalçalara - “Qazax”, “Gəncə”, Qarabağ”, “Naxçıvan”, “Şirvan”, “Quba” xalçalarına tamaşa etməkdən doymaq olmur. Minilliklərlə yol keçən və xalqımızın milli adət-ənənələrini qoruyub saxlayan bu xalçalarda sanki ulularımızın nəfəsi duyulur.

Sex rəisi Razim İbrahimov söhbət zamanı dedi ki, toxunan hər bir xalçaya ad yazılır və bu, həmin xalçanın hansı ölkədə, hansı bölgədə toxunması barədə məlumat verir: “Bundan başqa çalışırıq ki, itib-batmaqda olan xalça növlərini də bərpa edək. Çünki xalçalar Azərbaycan xalqının mədəniyyəti ilə yanaşı, onun milli-mənəvi dəyərlərini və tarixini də yaşadır”.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Üstünlük məhsuldar sortlara verilir

Son illər İsmayıllı rayonunun iqtisadiyyatında mühüm yer tutan meyvəçiliyə diqqət daha da artırılıb. Yeni meyvə bağları salınarkən məhsuldar sortların əkininə üstünlük verilir.





Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən aldığımız məlumatda bildirilir ki, təkcə ötən il 1102,6 hektar sahədə yeni bağlar salınıb. Bunun 100 hektara yaxını fındıq, qalanı alma, qoz, badam və xurma bağlarıdır. Meyvə bağları salınarkən ağacların bioloji xüsusiyyətləri, torpaq, iqlim şəraiti nəzərə alınır və damcı suvarma sistemi də tətbiq olunur. İntensiv meyvə bağları əsasən Qalınçaq, Quşencə, Topçu, Kəlbənd, Gəraybəyli kəndlərinin ərazilərində salınıb.

“2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafı Dövlət Proqramı”na uyğun olaraq 2018-ci ilin yaz aylarında Kürdmaşı kəndində fəaliyyət göstərən “Kənd” MMC tərəfindən 28 hektar sahədə texniki, 30 hektar sahədə süfrə üzümü əkilib.

Yeni bağlardan biri Qoşakəndin ərazisindədir. Bu bağ sahibkar Bəxtiyar Salahovun vəsaiti hesabına salınıb. Sahibkar deyir ki, paytaxtda yaşasa da, dövlət başçısının sahibkarlar üçün yaratdığı şərait, aqrar sektorun inkişafına yetirdiyi diqqət onu ürəkləndirib. Keçən ilin may ayında Qoşakənd kəndinin kənarında, dağlarla əhatə olunan ərazidə 7 hektar torpaq sahəsi alıb. Bağın salınmasında rayon rəhbərliyi və digər əlaqədar qurumlar ona hərtərəfli kömək göstəriblər.

Ötən ilin oktyabr ayında bağın salınması üçün hazırlıq işləri yekunlaşıb. Sonra 5 hektarda qoz, 2 hektarda fındıq tingləri əkilərək suvarılıb. Hazırda sahəyə gübrə verilir.

Burada əkilən qoz ağacları Türkiyədən, fındıq ağacları Xaçmaz rayonundan gətirilib. Sahibkar deyir ki, yaxın ərazidə olan daha 5 hektar sahəni də alıblar. Orada da fındıq bağı salınacaq. Qoz ağacı 2-3 ilin tamamında bar versə belə, onu yetişməmiş halda qırıb atırlar. Məqsəd ağacları daha güclü etmək, onların məhsuldarlığı üçün zəmin hazırlamaqdır.

Çəkilən xərcləri qarşılamaq üçün bağda kiçik təsərrüfat da yaradılıb. Əsas üstünlük qoyunçuluğa veriləcək. İlk mərhələdə 300 qoyun və 700-800 toyuğun saxlanılması planlaşdırılır. Həm infrastrukturun yaradılmasına, həm də bağda əkin işlərinin aparılmasına təxminən 13 kənd sakini cəlb olunub.

Ərazinin elektrik enerjisi ilə təchizatı təmin olunub, yaxınlıqdakı bulaq təmir edilib, 150 kubmetrlik su anbarı yaradılıb. Anbara yığılan su nasos vasitəsilə çənə vurulur. Bununla da ağacların damcı üsulu ilə suvarılması təmin edilir.

Ərazinin fərqli cəhətlərindən biri də odur ki, qaranlıq düşəndə bütün sahə projektorlar vasitəsilə işıqlandırılır.

***Ə.SƏLİMOV,***
***“Azərbaycan”***

## İşləyənə iş var



Əhalinin məşğulluğu baxımından Zaqatala böyük potensiala malik rayonlardandır. Burada aqrar sektorla yanaşı, qida sənayesi müəssisələrinin fəaliyyət göstərməsi minlərlə insanın işlə təmin olunmasına imkan verir. Doğrudur, belə iş yerlərinin bir qismi mövsümidir.

Lakin rayon iqtisadiyyatının yüksəlməsinə, sakinlərin güzəranlarının yaxşılaşmasına əhəmiyyətli təsir göstərir. Buna fındıq emalı müəssisələrini, keçən ildən fəaliyyətə başlayan “AzRose” MMC-nin qızılgül yağı istehsalı müəssisəsini misal göstərmək olar.

Ümumiyyətlə, rayonda məşğulluğun artırılmasına böyük diqqət yetirilir. Elə bunun nəticəsidir ki, hər il yeni iş yerləri açılır, yüzlərlə adam mövsümi və daimi işlə təmin edilir. Ötən il rayon Məşğulluq Mərkəzinə müraciət edənlərin 523 nəfəri işlə təmin olunub. Bundan əlavə, məşğulluq mərkəzinə müraciət edən vətəndaşlara və rayondakı ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə mərkəz tərəfindən peşəyönümü məsləhətlər verilib. Rayon Məşğulluq Mərkəzinin təşkil etdiyi peşə kurslarına cəlb edilənlərin 22 nəfəri sertifikat alıb, onların da bir çoxu mərkəzin göndərişi ilə işlə təmin olunub. İşə düzələn 523 nəfərin 196-sı qadın, 131-i gənclərdir.

Ölkə Prezidentinin 7 aprel 2016-cı il tarixli sərəncamının icrası ilə bağlı mərkəzdə işaxtaran kimi qeydiyyatda olan vətəndaşlardan 320 nəfərin sənədi Dövlət Məşğulluq Xidmətinə (DMX) təqdim edilib.

DMX-nin əməkdaşları onların 142 nəfərinə “Öz biznesinə başla və təkmilləşdir” mövzusunda təlimlər keçiblər. Biznes planına uyğun tərtib edilən aktivlər DMX-yə göndərilib. DMX-nin nümayəndələrinin iştirakı ilə imtahan verənlərdən 136 nəfərin işi məqbul qiymətləndirilib. Öz biznesi ilə məşğul olacaq vətəndaşlardan 132 nəfəri kənd təsərrüfatında, 4-ü isə xidmət sahələrində çalışacaqlar.

Məşğulluq Mərkəzində təlim keçən və məqbul qiymətləndirilən 136 nəfərdən 54-ü aktivlə təmin edilib. Onlardan 5 nəfərinə arı ailəsi, 6 nəfərin hərəsinə 21 qoyun, 43 nəfərinə isə hər birinə südlük malqara verilib.

Onların arasında Dağlı kənd sakini Mahirə Ağaməmmədova, Muxax kənd sakini Elman Yusubov, Qımır-bazar kənd sakinləri Zübeydə Əliyeva, Seymur Həsənov, Mosul kənd sakini Xanım Əliyeva da var. Mal-materialla təchiz olunanlar arasında da “inkubasiya” aparatı, avtomobil təmiri üçün avadanlıq alanlar da var. Təlim keçən və əməyi məqbul qiymətləndirilən digər vətəndaşlara da mal-materialın verilməsi davam etdirilir.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 10-da Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi, polkovnik-leytenant Ralf Bossard keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və YSPQ-nin nümayəndəsi polkovnik Yuri Dudçenko aparıblar.

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Milli Məkan Məlumatları İnformasiya Sisteminin formalaşdırılması və bu sistemin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası ilə bağlı məsləhətçi xidmətlərinin cəlb edilməsi üzrə açıq tender elan edir.

Tenderdə informasiya sisteminin formalaşdırılması və inteqrasiyası xidmətlərinin göstərilməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 1700 (bir min yeddi yüz) manat və ya 1000 (bir min) ABŞ dolları məbləğində iştirak haqqını aşağıda göstərilən müvafiq bank hesabına köçürdükdən və bunu təsdiq edən sənədi təqdim etdikdən sonra həm Azərbaycan, həm də ingilis dillərində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 806, tel.: +99412 4902408 (daxili: 242); faks: +99412 4903359), e-mail: ekhanalibayli@emdk.gov.az) ünvanından ala bilərlər:

**AZN hesabı**
**Emitent**
Dövlət Xəzinədarlıq Agentliyi
Bank kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı: AZ41NABZ01360100000000003944
SWIFT BIK: CTREAZ22
**Alan**
Əmlak Məsələləri Dövlət Komitəsi
VÖEN: 2000015631
H/H: AZ84CTRE00000000000002647970
Büdcə səviyyəsinin kodu: 7
Büdcə təsnifatının kodu:142340
**USD hesabı**
Alan: Əmlak Məsələləri Dövlət Komitəsi
Ünvan: Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50
VÖEN: 2000015631
Dollar hesabı: AZ02AİİB32150018403700201107
Büdcə səviyyəsinin kodu: 7
Büdcə təsnifatının kodu: 142340
"Kapital Bank" ASC-nin Xətai filialı
VÖEN: 9900003611
Bank kodu: 200071
Hesab: AZ56NABZ01350200000000001840
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *digər sənədlər (tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində Əsli və Surəti yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin Əsli və Surəti arasında fərqlər olduqda üstünlük üzərində Əsli sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 15 (on beş) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:
- *iddiaçının bu sahədəki iş təcrübəsi;*
- *iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;*
- *görüləcək işlərin dəyəri.*

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 17 may 2019-cu il saat 17:00-dək, tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 27 may 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 812, əlaqələndirici şəxs - İxtiyar Rəhmanov) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 29 may 2019-cu il saat 15:00-da Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

## "Azercell" tərəfindən ödənişsiz göz müayinələrinin təşkili davam edir

"Azercell" şirkətinin təşkil etdiyi ödənişsiz tibbi müayinələrdən minlərlə insan faydalanıb. Şirkətin dəstəyi ilə fəaliyyət göstərən "Mobil Göz Klinikası" 2011-ci ildən etibarən bu müayinələri davamlı olaraq keçirməkdədir.



Klinika tərəfindən 3 aprel 2019-cu il tarixdə Pereküşkül qəsəbəsi, hərbi şəhərciyin ərazisində yerləşən 1 saylı tam orta məktəbə növbəti səfər təşkil edilib. Səfər çərçivəsində 52 nəfərin müayinəsi aparılıb, ehtiyacı olanlara müalicə təyin olunub, optik eynəklər paylanılıb.

Qeyd edək ki, valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır. Bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## Gəncə Regional Mədəniyyət İdarəsi 2019-cu il üçün *kotirovka sorğusu elan edir*

1. Maşın avadanlıqları.
2. İdarənin xərcləri.
3. Yumşaq inventar.

Əlaqələndirici şəxs: B.Y.Muradov
Tel.: (022) 266-29-51
VÖEN: 2300144211

**Ünvan: Gəncə şəhəri, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi**

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına Bakı şəhəri və Abşeron yarımadasında izolyasiya və hidroizolyasiya işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431-47-67/2288) ala bilərlər.

İştirak haqqı 200 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **29 may 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 may 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# İdmançı sərhədçilərimiz Avropa çempionatından iki qızıl medalla qayıtdılar

2019-cu ilin 9 aprel tarixində Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən güləş üzrə Avropa çempionatında Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" idman olimpiya mərkəzinin hərbi qulluqçuları polkovnik-leytenant Firdovsi Umudovun rəhbərliyi altında leytenant Hacı Əliyev və leytenant Cəbrayıl Həsənov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanmışlar.

Dövlət Sərhəd Xidməti şəxsi heyəti adından sərhədçi zabitləri təbrik edir, dövlət bayrağımızı yüksəltdiklərinə, Dövlət himnimizi səsləndirdiklərinə görə minnətdarlığımızı bildiririk!











## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 30 yanvar 2019-cu il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC-yə Müxtəlif növ sürtkü yağlarının satın alınması dair açıq tender üsulu ilə keçirilən müsabiqədə tenderin əsas şərtlər toplusunun tələblərini və qiymətləndirmənin nəticələrini nəzərə alaraq **"Grand Motors" MMC-nin** təqdim etdiyi ƏDV daxil 168 636.16 (yüz altmış səkkiz min altı yüz otuz altı manat 16 qəpik) manat məbləği ilə Tender komissiyasının qərarına əsasən qalib elan olunub.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Azərbaycan" qəzetinin 19 mart 2019-cu il tarixli nömrəsində Dövlət büdcəsi vəsaiti hesabına Şəki şəhərinin su təchizatı və kanalizasiya şəbəkələrinin və qurğularının tikintisinin davam etdirilməsi və Horadiz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması işlərinin satın alınması məqsədilə dərc edilmiş təkliflər sorğusunda iştirakçıların rəsmi müraciətlərini nəzərə alaraq, təkliflərin qəbulu vaxtı uzadılaraq 24 aprel 2019-cu il, zərflərin açılışı isə 25 aprel 2019-cu il saat 16:00-a təyin edilmişdir. (Əlaqələndirici şəxs: İlqar Tağıyev, 431 47 67/1033 və İntizam Novruzov, 431 47 67/3019)

***Tender komissiyası***

*Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 10 iyun 2008-ci il tarixdə İlqar Qayıbverdi oğlu İskəndərlinin adına Bakı şəhəri, Nəsimi rayonu, Ənvər Qasımzadə küçəsində 0.5359 hektar torpaq sahəsində yerləşən 72 nömrəli binanın 1-ci mərtəbəsində 24.3 kvadratmetr ümumi, 18.5 kvadratmetr əsas, 5.8 kvadratmetr köməkçi sahədən ibarət qeyri-yaşayış sahəsinə dair verilmiş Çıxarış (seriya: MH, № 0132047, Qeydiyyat nömrəsi 1108040031) və Texniki pasport itdiyi üçün etibarsız sayılır.*

# Miqrant gəmisini qəbul edən ölkə tapılmır



Göyərtəsində qida və suyun tükənməsinə baxmayaraq, İtaliya və Malta miqrant gəmisinin sahilə yaxınlaşmasına icazə vermir. Ötən həftə qayıqda hərəkət edən liviyalı qaçqınlar alman dənizçiləri tərəfindən xilas edilmişlər. Gəmi heyəti ümumilikdə 64 nəfəri xilas etmişdir ki, onlardan da 5-i uşaqdır.

Hazırda bütün ərzaq ehtiyatının tükənməsinə baxmayaraq, yaxınlıqdakı ölkələr limanlarını açmaqdan imtina edir. Gəmi Almaniyanın qeyri-hökumət təşkilatına məxsusdur. Buna görə İtaliya və Malta hökumətləri gəmi heyətinə Almaniya sahillərinə yollanmağı təklif edir.

Xatırladaq ki, bir il əvvəl göyərtəsində 629 miqrant olan "Akvarius" gəmisi də İtaliya sahillərinə yan ala bilmirdi. Axırda İspaniyanın Valensiya limanı qapılarını qaçqınların üzünə açmışdır.

# Əlcəzair parlamenti müvəqqəti prezidenti təsdiqlədi



Əlcəzair parlamenti Millət Şurasının (parlamentin yuxarı palatası) başçısı Əbdülqadir bin Salihi müvəqqəti prezident kimi təsdiqləmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Ötən həftə sabiq dövlət başçısı Əbdüləziz Butəfliqənin istefasından sonra parlamentin hər iki palatasının - Millət Şurası və Milli Xalq Məclisinin üzvləri birgə iclas keçirmişlər. Parlament təsdiqləmişdi ki, ölkə prezidenti vəzifəsi vakantdır.

Konstitusiyaya əsasən, belə bir qərar qəbul olunduqdan sonra Millət Şurasının spikeri müvəqqəti prezident təyin edilir. Əsas qanunun 102-ci maddəsinə görə, prezident istefası barədə Konstitusiya Şurasını məlumatlandırır, bundan sonra məsələyə parlamentdə baxılır. Hər iki palatada üçdəiki səs çoxluğu əldə edildikdən sonra prezident 90 gün ərzində ölkədə seçkilər keçirir.

Prezidentin səlahiyyətlərini icra edən şəxs ölkədə ali dövlət vəzifəsinə namizədliyini sürə bilməz.

82 yaşlı Butəfliqə səhhəti ilə əlaqədar və kütləvi etirazların təzyiqi altında vəzifəsindən vaxtından əvvəl istefa vermişdir. O, dövlət başçısı kimi 20 il hakimiyyətdə olmuşdur.

# Qızılca epidemiyası Nyu Yorku bürüdü



ABŞ-ın Nyu York şəhərində qızılca xəstəliyinin yayılması ilə əlaqədar fövqəladə vəziyyət elan olunmuşdur. Epidemiyanın ocağı Bruklin rayonundadır. Orada əhalinin, ilk növbədə uşaq və yeniyetmələrin peyvəndləndirilməsi keçiriləcək. Bu barədə yerli KİV xəbər verir.

Peyvənddən imtina edənlər 1000 dolláradək cərimə ödəməli olacaqlar.

Şəhər Səhiyyə Departamentinin məlumatına görə, ötən ilin payızından Nyu Yorkda 285 qızılcaya yoluxma halı aşkar edilmişdir. 21 nəfər xəstəxanaya yerləşdirilmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Fuad Məmmədov, Aqşin Məmmədzadə, Elçin Quliyev, Sarvan Sadıqov, Ayxan Kazımov, Yunis İsmayılov, İsmayıl Cəfərov, Nüşabə Xəlilova, Rüfət Ələkpərov, Səməd Sultanov, Sədaqət Bağırova və Ceyhun Əliyev Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsi müdirinin müavini Səyyad Kərimova əzizi

**ELVAR BAYRAM OĞLU SADIXOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9094
Sifariş 1176
Qiyməti 40 qəpik